FƏLSƏFİ İNCİLƏR KİTABXANASI

# Təsəvvüf nurunun iki çırağı:

# *MƏNSUR HƏLLAC*

# və

# *SƏRRAC TUSİ*



Bakı - 2007

**Az**
**E 46**

**Kitab İsa NƏCƏFOV və Vidadi MƏMMƏDOVUN təşəbbüsü və yardımı əsasında tərcümə və çap olunmuşdur.**

*Ərəb dilindən tərcümə edən, ön sözün və giriş məqalələrin müəllifi:* **KönÜl BÜNYADZADƏ**
*fəlsəfə elmləri namizədi*

*Elmi məsləhətçi:* **Zümrüd QULUZADƏ**
*fəlsəfə elmləri doktoru*

*Redaktor:* **Zakir QASIMOV**
*fəlsəfə elmləri namizədi*

***Seriyanın tərtibat və illüstrasiyalarının rəssamı:*** **Fikrət ƏLƏKBƏROV**

**Təsəvvüf nurunun iki çırağı: Mənsur Həllac və Sərrac Tusi.**
*Bakı, «Adiloğlu» nəşriyyatı - 2007, 216 səh. (5 şək.)*

Təqdim olunan kitabda X əsrin iki görkəmli sufi mütəfəkkirinin – Mənsur Həllacın «Kitab ət-Təvasin» əsərinin və Sərrac Tusinin «əl-Lümə‘» traktatından hissələrin tərcüməsi verilmişdir.

Eyni zaman kəsiyində yaşasalar da, təsəvvüfün ayrı-ayrı qollarına və dövrlərinə mənsub olan iki şeyxin yaradıcılığına müraciət etməklə biz həm təsəvvüfün zahiri fərqliliklərə baxmayaraq, vahid prinsiplərə əsaslanan sistemli bir təfəkkür forması olduğunu əyani şəkildə göstərməyə, həm də şərh xarakterli və hər kəs üçün nəzərdə tutulan «əl-Lümə‘» vasitəsilə rəmzi dillə yazılmış və yalnız seçilmişlər üçün aydın olan «Təvasin»ə bir açıqlama gətirməyə çalışmışıq.

Ərəb dilindən ilk dəfə Azərbaycan dilinə tərcümə edilən hər iki əsər təsəvvüfün mahiyyəti və fəlsəfəsi ilə tanış olmaq istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

E $\frac{4322110018}{121\text{-}2007}$ qrifli nəşr

© İsa Nəcəfov, 2007
© Vidadi Məmmədov, 2007
© «Adiloğlu» nəşriyyatı, 2007

# MÜNDƏRİCAT

*Ön söz*.......................................................................................... 5

*Ənə‘l-Həqq cazibəsi*.......................................................................... 12

**Mənsur Həllac. Kitab ət-Təvasin (mətnin tərcüməsi)**
**Ta sin çıraq** ........................................................................... 22
**Ta sin fəhm** ........................................................................... 25
**Ta sin saflıq**........................................................................... 27
**Ta sin dairə** ........................................................................... 30
**Ta sin nöqtə** ........................................................................... 32
**Ta sin əzəli və şübhə**................................................................. 38
**Ta sin [ilahi] iradə**.................................................................... 45
**Ta sin tövhid**.......................................................................... 46
**Ta sin tövhid haqqında sirlər**...................................................... 47
**Ta sin tənzih (ayrılma)** ............................................................ 49
**Mə‘rifət bağçası**....................................................................... 52

*Fəqirlərin tavusu*

**S.Tusi şəxsiyyəti qədim mənbələrdə.**........................................... 57
**«əl-Lümə‘»ni tədqiq edən əsərlər**. ................................................ 63
**«əl-Lümə‘»nin sufi ədəbiyyatında yeri və rolu.**............................. 66
**IX-X əsrlərdə yazıb-yaratmış sufi mütəfəkkirlər və əsərləri.** ... 67
**«əl-Lümə‘»nin özündən əvvəl yazılmış bəzi əsərlərlə müqayisəsi**.................................................................................. 69
**«əl-Lümə‘»nin əsas mövzuları.** ..................................................... 92
**«Biz əvvəllər bu adı eşitməmişik, bu, yeni addır», – deyənlərə cavab.**.............................................................................................. 101
**Sufi adı barədə açıqlama. Niyə bu adla adlandırılıb, bu geyimlə səciyyələndirilirlər.**................................................................. 102
**Sufilərin fəqihlərə etirazları. Dində fiqhin izahı və dəlilləri haqqında.** .......................................................................................... 103
**Mə‘rifət haqqında deyilənlər. Arifin sifəti və onun həqiqətlərinin izahı.** .............................................................................................. 105

**Zahir əhlinin kəraməti inkar etməsinin dəlilləri haqqında və övliya üçün bunun mümkünlüyünün isbatı. Övliya və peyğəmbərlər arasındakı fərqə dair.** ........................................ 109
**HALLAR VƏ MƏQAMLAR**
*Məqamlar və onların həqiqətləri* ........................................ 111
*Halların mənası* ........................................ 111
*Tövbə məqamı* ........................................ 112
*Vəra‘ məqamı* ........................................ 113
*Zahidlik məqamı* ........................................ 115
*Fəqirlik məqamı və fəqirlərin sifətləri* ........................................ 116
*Səbir məqamı* ........................................ 118
*Təvəkkül məqamı* ........................................ 119
*Razılıq məqamı* ........................................ 121
*Nəzarət halı* ........................................ 122
*Yaxınlıq halı* ........................................ 124
*Məhəbbət halı* ........................................ 125
*Xof halı* ........................................ 127
*Ümid halı* ........................................ 129
*Xof və ümidin mənasına dair* ........................................ 130
*Şövq halı* ........................................ 130
*Ünsiyyət halı* ........................................ 132
*Əminlik halı* ........................................ 133
*Müşahidə halı* ........................................ 135
*Yəqinlik halı* ........................................ 136
**ÇƏTİNLİKLƏRİN İZAHI**
*Sufilərin istifadə etdikləri kəlamların izahına dair fəsil* .......... 139

**İstifadə olunmuş ədəbiyyat** ........................................ 185
**Qurani-Kərimdən istifadə edilmiş ayələr** ........................................ 189
**Adların indeksi** ........................................ 201198
**Terminlərin indeksi** ........................................ 205

# *Ö N  S Ö Z*

Son dövrlər təsəvvüfün həm nəzəriyyəsi, həm də praktikası aktual mövzulardan birinə çevrilmişdir. Maraqlıdır ki, təsəvvüf barədə fikir söyləyən, mühakimə yürüdənlər arasında ixtisaslı tədqiqatçılarla yanaşı, təsəvvüf haqqında səthi məlumatı olan şəxslər də az deyil. Əlbəttə, İnsanın mənəvi aləmini zənginləşdirən, ona imanın, İnsan adının ucalığını anladan bu dünyagörüşün ictimai-sosial sıxıntılardan bir çıxış yolu göstərdiyini, bir könül rahatlığı verdiyini nəzərə alsaq, bu gün də təsəvvüfə təşəkkül tapdığı dövrlərdə olduğu kimi, marağın artmasını yaxşı hal tək qiymətləndirmək olar. Lakin yenə tarixə nəzər salsaq, görərik ki, təsəvvüf məhz onu dərk etməyən, yaxud onu öz şəxsi mənafeyi üçün istifadə edən şəxslər tərəfindən təhrif edilmiş, əsl mahiyyətindən uzaqlaşdırılmışdır. Nəticədə təsəvvüf haqqında ziddiyyətli fikirlər yaranmış, onun məqsəd və mahiyyəti arxa planda qalmış, onu ya bidətçi bir təlim, ya da ortodoksal din çərçivəsindən kənara çıxmayan bir dünyagörüşü kimi təqdim etmişlər.

Deyilənləri nəzərə alaraq, problem haqqında dolğun və düzgün məlumat əldə etmək üçün, zənnimizcə, təsəvvüf ilk növbədə onun görkəmli nümayəndələrinin öz əsərləri əsasında öyrənilməlidir.

Təqdim olunan kitabda təsəvvüfün iki böyük şəxsiyyətinə müraciət edilir: Mənsur Həllac və Sərrac Tusiyə. Əslində, bizim tərəfimizdən hər iki mütəfəkkir haqqında müəyyən tədqiqat aparılıb oxucunun hökmünə verilmişdir (1; 6). Lakin hazırkı kitabda təsəvvüf bir növ iki bir-birinə zidd hesab edilən qolun nümayəndələrinin dünyagörüşü əsasında təqdim edilir.

Əvvəla, məlum olduğu kimi, təsəvvüfün hələ erkən illərində sahv (ayıq) və səkr (sərxoş) hallarına uyğun olaraq sufiləri təmkinlilər və sərxoşlar adı altında iki qola ayırmışlar. Sonralar bu bölgü daha da kəskinləşdirilərək mötədil və ifrat sufizm kimi

xarakterizə edilmişdir ki, bu da müəyyən mənada təsəvvüfün mahiyyətinin təhrifinə səbəb olmuşdur. Əslində, eyni prinsiplərdən çıxış edən və onları heç bir halda pozmayan hər iki qolun nümayəndələri yalnız həyat tərzlərində, davranış qaydalarında fərqlənmişlər. Belə ki, təmkinlilər adından da göründüyü kimi, daha çox təmkinli olmağın, öz hiss və duyğularını gizli saxlamağın tərəfdarı, şəthiyyat söyləməyin isə əleyhinə olmuşlar. Belə sufi mütəfəkkirlərə nümunə kimi Haris Mühasibini (857),[1] Səri Səqatini (870), Səhl Tüstərini (896), Cüneyd Bağdadini (910)[2] və onların bəzi davamçılarını göstərmək olar.

Sərxoş sufilər isə öz çılğınlıqları, şəthiyyatları, dinləyicilərinə fərq qoymadan ilahi sirri açıb danışmaqları, həddən artıq həssaslıqları, yaşadıqları halın təsiri altına düşmələri ilə seçilmişlər. Məsələn, mənbələrin verdiyi məlumata görə, Əbu Hüseyn Nuri (907) bir beytdən təsirlənərək çöllərə qaçmış və biçilmiş qamışlıqda huşunu itirənə qədər dolaşmış, sonra da bıçaq kimi iti qamışların ayaqlarını yaralamasından baş verən qanaxmadan öz dünyasını dəyişmişdir. Başqa bir sufi Əbu Bəkr Şibli (946) isə camaat arasında dəli-divanə adını qazanmışdır.

Sufilərin həyatından olan hadisələrdən belə məlum olur ki, sərxoşların əsas «nöqsanı» onların ilahi sirri qoruya bilməmələri olmuşdur. Məsələn, deyilənə görə, Əbu Hüseyn Nuri Cüneyd Bağdadini məclisin yuxarı başında oturaraq öz şəyirdlərinə dərs keçən görüb deyir: «Sən xalqdan gerçəyi gizlətdin, onlar səni şərəfli bir mövqedə oturtdular. Mən isə onlara gerçəyi söylədim, məni daşladılar» [8, s. 59]. Başqa bir rəvayətə görə, Cüneyd Bağdadi bir məktubunda öz yüksək vəcd halını təsvir edən Şibliyə belə cavab yazır: «Biz bir kəlməni alır, onu ölçüb-biçirik, onu gizlinlərdə danışırıq. İndi sən durub pərdəni qaldırırsan. Halbuki səninlə

---

[1] İllər mütəfəkkirlərin vəfat tarixini göstərir.

[2] Burada adı çəkilən sufi mütəfəkkirlər haqqında geniş bax bu kitabın «Fəqirlərin tavusu» bölməsində.

böyüklər arasında min təbəqə vardır. Bunların ilki də sənin vəsf etdiyindir» [8, s. 59].[1]

Bununla belə, bir daha mütləq təkrar edək ki, sərxoşlar və ayıqlar arasındakı fərq zahirdə olub, əsas prinsiplərə aid olmamışdır, hansı halda olurlarsa olsunlar, sərxoşlar heç vaxt şəriətin qanunlarından (namaz-oruclarından) aralanmamışlar. Mənbələrin bildirdiyinə görə, yeddi gün evində ac-susuz, yuxusuz heyrət halında qalan Nurinin xəbərini Cüneyd Bağdadiyə verəndə sonuncu ilk növbədə onun öz ibadətlərini edib-etməməsini soruşmuşdur. Fərz namazlarını qıldığını bilib: «Ona şeytanın yaxın durmasına yol verməyən Allaha şükürlər olsun. Gedək onu (Nurini) ziyarət edək, ya biz ondan xeyir görərik, ya o, bizdən», – demişdir [8, s. 70].

Deyilənlərlə yanaşı, onu da əlavə edək ki, təmkin əhli olanlar sərxoşları daim tənqid etsələr də, onları ilahi sirri qoruya bilməyən, ona dözmək iqtidarında olmayan zəif və aciz hesab etsələr də və bu hallarına görə onlara ciddi etirazlar etsələr də, onların sahib olduqları hal və həqiqətə, imana dair heç bir irad bildirməmişlər. Məsələn, Cüneyd Bağdadi Əbu Bəkr Şibli haqqında deyir: «Şibli daima sərxoşdur. Əgər ayılarsa, insanların faydalana biləcəyi bir imam olardı» [8, s. 47]. Əbu Yəzid Bistaminin (875) isə şəthiyyatlarına böyük bir şərh yazaraq onları Bistaminin halı ilə izah etmiş, özünün barəsində isə «Əbu Yəzidin bizim aramızda yeri Cəbrailin başqa mələklər arasında yeri kimidir» [8, s. 32], – deyə bildirmişdir. Məlumat üçün onu da bildirək ki, Haris Mühasibi, Cüneyd Bağdadi, Əbu Bəkr Şibli, Əbu Hüseyn Nuri də eyni – Bağdad sufi məktəbinin üzvləri olmuş, yaxından dostluq etmiş və ya aralarında mürşid-mürid münasibətləri olmuşdur. Məsələn, Cüneyd Bağdadi və Əbu Hüseyn Nuri yaxın dost olmuşlar və Cüneyd vəfat edərkən Nurinin yanında dəfn olunmasını vəsiyyət etmişdir [8, s. 45].

Bu kitabda təqdim olunan Mənsur Həllac sərxoşların məşhur nümayəndəsidir, Sərrac Tusi isə Cüneyd Bağdadinin

---

[1] Yəni sənin hiss etdiklərin sufi yolçuluğunun ilk pillələrinə aiddir və bu təcrübəsizliyə baxmayaraq, sən hər şeyi açıb camaata danışırsan.

davamçılarından, yəni təmkin əhlindəndir. Başqa sözlə desək, biz hər iki qolun bariz təmsilçisinin dünyagörüşünü təqdim etməklə onların nə dərəcədə bir-birini tamamladıqlarını, fərqin yalnız ifadə tərzində olub, prinsipial məsələlərdə isə eyni mövqedən çıxış etdiklərini əyani şəkildə göstərməyə çalışmışıq.

Təqdim olunan kitabın xüsusiyyətlərindən biri də budur ki, hər iki mütəfəkkir eyni əsrdə yaşalar da (Mənsur Həllac X əsrin əvvəllərində – 922-ci ildə, Sərrac Tusi isə sonunda – 988-ci ildə vəfat etmişdir), onların yaradıcılığı təsəvvüf tarixinin müxtəlif mərhələlərinə aiddir. Bu barədə qısa bir məlumat verək.

Hər şeydən əvvəl qeyd edək ki, biz bir çox tədqiqat əsərlərində təsəvvüf tarixinin təqdim olunan dövrləşmə prinsipi ilə qismən razı deyilik. Məsələn, ilk sufilərdə daha çox zahidliyin ön planda olması faktına əsaslanan bəzi tədqiqatçılar bu dövrü zühd dönəmi adlandırırlar. Təsəvvüfün zühddən daha geniş bir anlam olduğunu nəzərə alıb, biz nisbətən fərqli mövqedən çıxış edərək başqa bir dövrləşmə irəli sürürük.

Təsəvvüf tarixinin ilk dövründə mərifət, eşq, hal və məqam kimi bəzi prinsip və kateqoriyalar artıq ayrı-ayrı sufi mütəfəkkirlər tərəfindən irəli sürülməkdə idi. Məsələn, bizə məlum olduğuna görə, Rabiə əl-Ədəviyyə (792) ilk dəfə ilahi eşq, Zu‘n-Nun Misri (859) – hallar və məqamlar, mərifət, Əbu Səid Xərraz (IX) – fəna və bəqa hallarını təsəvvüf fəlsəfəsinə daxil etmişdir. Yəni bir növ təsəvvüfün nəzəri təməli qurulmaqda idi.

Bu dövrdə yazılmış əsərlər ya şəxsi təcrübənin ifadəsi, ya da şeyxin öz müridlərinə nəsihəti şəklində olur, bəzən müəyyən bir məsələ sufilərin məktublarında açıqlanırdı. Qısa desək, sufilər qarşılarına bu mənəvi təcrübə yolunun sistemli şərhini, nəzəriyyəsini təqdim etmək məqsədi qoymurdular. Deyilənləri nəzərə alaraq, biz ilk dövrü – VIII-X əsrləri təsəvvüfün nəzəri sisteminin əsaslarının təşəkkülü dövrü adlandırırıq.

Sufi mütəfəkkirlərin özlərinin də qeyd etdikləri kimi, təsəvvüf yalnız xüsusi təfəkkür və iman sahiblərinə məxsus bir dünyagörüşüdür. Onlar yazdıqlarını, söylədiklərini, hiss etdiklərini geniş kütlədən gizli saxlamağa çalışırdılar. Çünki, Cüneyd

Bağdadinin özünün bir məktubunda bildirdiyi kimi, onların sözləri əhalini çaşqınlığa salıb yanlış yola apara bilərdi. Buna görə də sufilər yalnız onlara məxsus, onların agah olduqları sirləri aləmə car çəkən həmkarlarını xoş qarşılamırdılar.

Onu da bildirək ki, yarandığı ilk dövrlərdən təsəvvüfü olduğu kimi anlamayan, təsadüfi eşitdikləri, oxuduqları gizli mənalı söz və ifadələri öz bilik səviyyələrinə uyğun şərh edib onları öz bildikləri kimi təqdim edən şəxslər – yalançı sufilər təsəvvüf, hətta islamın özü üçün böyük təhlükə yaratmış olurdular. Bu baxımdan, təsəvvüfün həqiqətinin açıqlanması zərurəti yaranmışdı.

Yeri gəlmişkən qeyd edək ki, bu təhlükə bu gün də mövcuddur və onun həlli zərurəti ciddi diqqət tələb edir.

İlk dəfə Bağdad sufi məktəbi bu işə başlayıb ayrı-ayrı sufilərin əsərlərini şərh etməklə məşğul oldu. X əsrdə Sərrac Tusi sufi mütəfəkkirlərin sufi prinsipləri izah edən fikir və mülahizələrini gələcək nəsillərə çatdırmaq üçün toplayıb ümumi bir traktatda işıqlandırmaqla həm də təsəvvüf tarixində yeni bir ənənənin başlanğıcını qoymuş oldu.

Ondan sonra bu ənənə Əbu Bəkr Kəlabazi (990), Əbu Talib Məkki (996), Əbu Əbdürrəhman Süləmi (1021), Əbu Nüeym İsfəhani (1038), Əbu'l-Qasim Qüşeyri (1072), Əbu Həsən Əli Hücviri (1077) və digərləri tərəfindən davam etdirildi. Yəni onlar təsəvvüfün həm təcrübi, həm də nəzəri tərəflərini, vacib prinsiplərini şərh edərək bu yolu anlamaq, keçmək istəyənlərə bir «məlumat kitabı» təqdim edirdilər.

Onu da bildirək ki, öz əsərlərində təsəvvüfün nəinki bir bidət cərəyan olmadığını, əksinə, onun bir növ islamın mahiyyəti, özək xətti olduğunu sübut etməyə çalışan sufi mütəfəkkirlər arasında bu işi daha yüksək səviyyədə və sistemli şəkildə Əbu Hamid Qəzali (1111) bacarmışdır. Fəaliyyəti tədqiqatçılar tərəfindən islamla təsəvvüf arasında «barışdırıcı»lıq və ya təsəvvüfü «islamlaşdırmaq» missiyası kimi qiymətləndirilən mütəfəkkirin əsas xidməti, zənnimizcə, yalnız təsəvvüfün həqiqətlərini olduğu kimi çatdırmaq olmuşdur.

Təsəvvüf tarixinin təqribən X əsrin sonu XII əsrin əvvəllərini əhatə edən bu dövr təsəvvüfün yayılması ilə səciyyələndirilə bilər.

XII-XIII əsrlər həm Şərqdə, həm də Qərbdə bir çox fəlsəfi dünyagörüşlərin sistemləşdiyi bir dövrdür. Təsəvvüfün də bir fəlsəfi sistem kimi formalaşması bu dövrə aiddir. Cüneyd Bağdadinin, Mənsur Həllacın və digər sufi mütəfəkkirlərin baxışlarında irəli sürülən prinsip və kateqoriyalar əvvəlcə Eynəlqüzat Miyanəcinin (1131), daha sonra isə Mühyiddin İbn Ərəbinin (1240) görüşlərində «vəhdət əl-vücud» nəzəriyyəsi səviyyəsində əsaslandırıldı.

Daha çox irrasional təfəkkürə istinad edən vəhdət əl-vücud bir nəzəriyyə olaraq təsəvvüf tarixində yeni bir mərhələnin başlanğıcını qoydu: dünya fəlsəfəsində daha çox təcrübə forması, bir həyat tərzi kimi tanınan təsəvvüf vahid bir fəlsəfi sistem, mükəmməl bir nəzəriyyə kimi təqdim edildi.

XII əsrdə eyni zamanda təsəvvüf tarixinin növbəti və ən böyük mərhələsinin başlanğıcı qoyulmuşdur. Göstərilən dövrdə müxtəlif şəhərlərdə fəaliyyət göstərən sufi məktəbləri daha da inkişaf edərək bir təlim səviyyəsinə qədər yüksəldi. Əgər əvvəllər məktəblər daha çox onların mövcud olduğu məkanla əlaqəli olurdusa (Bağdad, Xorasan, Misir və s. sufi məktəbləri), get-gedə şeyxin şəxsiyyəti, nüfuzu mərkəzi nöqtəyə çevrilir (cüneydiyyə, qadiriyyə, həllaciyyə, rifailik və s.), hər məktəbin ədəb qaydalarında, müəyyən prinsiplərində özünəməxsusluqlar yaranmağa başlayırdı. Məlum olduğu kimi, təsəvvüf yolu üç mərhələdən ibarətdir: şəriət, təriqət və həqiqət. Sufilərin cəmiyyətdən ayrılaraq xüsusi qayda-qanunların, əxlaq normalarının hökm sürdüyü tikililərdə – xanəgah, təkkə, zaviyələrdə yaşamaları haqlı olaraq onlara *təriqətlər* (yollar) adını qazandırdı və təsəvvüf müstəqil təriqətlərə bölünməyə başladı.

Onu da qeyd etməliyik ki, təsəvvüfün ilk dövrlərində də müxtəlif təriqətlər mövcud olmuşdur. Lakin məhz təsəvvüf tarixinin üçüncü dövründə təriqət özünəməxsus prinsipləri, ədəb-əxlaq qaydaları, inkişaf və fəaliyyət istiqamətləri bəlli olan bir

cəmiyyət, institut halına gəldiyinə görə o, təriqətləşmə və ya təsəvvüfün parçalanma dövrü adlanmışdır.

Göründüyü kimi, təqribən eyni zaman kəsiyində yaşasalar da, Mənsur Həllacın kitabı birinci dövrə aid əsər kimi daha çox rəmzi dillə yazılmış və yalnız bu əqidə sahibləri, yəni sufilər üçün nəzərdə tutulmuşdur. Sərrac Tusinin kitabı isə daha çox şərh xarakterli və geniş oxucu kütləsi üçündür. Bu baxımdan, biz Sərrac Tusinin «əl-Lümə‘»si ilə Mənsur Həllacın «Təvasin»inə bir növ açıqlama verməyə çalışmışıq.

Nəhayət, son olaraq qeyd edək ki, təsəvvüfün iki ayrı-ayrı qollarına mənsub olan, iki müxtəlif dövründə fərqli məqsədlərlə yaşayıb-yaratmış iki sufi mütəfəkkirin əsərlərinin tərcüməsini oxucuların hökmünə verməklə biz təsəvvüfün islam zəminində və vahid prinsiplər üzərində var olan saf təfəkkür forması olduğunu göstərməyə cəhd etmişik.

Bir neçə kəlmə də tərcümənin texniki tərəfləri barədə.

Kitabdakı Qurani-Kərimin ayələri bizim tərəfimizdən tərcümə edilmişdir. Lakin bunun nə dərəcədə məsuliyyətli bir iş olduğunu nəzərə alaraq və mümkün yanlışlıqların qarşısını almaq məqsədi ilə ayələr Quranın Azərbaycan, Türk və Rus dillərinə [4; 17; 34] edilmiş izahlı tərcümələri ilə müqayisə olunmuşdur.

Ərəb dilinin zənginliyini və sufi şeyxlərinin kəlamlarının mürəkkəbliyini, o cümlədən çoxmənalılığını nəzərə alaraq əminik ki, təqdim etdiyimiz tərcümədə mübahisəli məqamlar çoxdur. Biz ərəbcə mətnin hərfi mənasını və əsərlərin öz yazılma üslubunu mümkün qədər saxlamağa çalışmaqla bərabər, onların Azərbaycan türkcəsində də kifayət qədər anlaşıqlı olmasına cəhd göstərmişik. Mətni daha anlaşıqlı etmək məqsədi ilə tez-tez kvadrat mötərizədən [ ] istifadə etməli olmuşuq. Adi mötərizədə ( ) isə mətnin müəyyən qaranlıq məsələlərinə öz şərhlərimizi yerləşdirmişik.

Nəhayət, ümid etmək istərdik ki, təsəvvüf fəlsəfəsinə aid digər ilk mənbələr də bütünlükdə və ya onların əhəmiyyətli hissələri dilimizə tərcümə edilib oxuculara təqdim olunacaqdır.

# ***ƏNƏ‘L-HƏQQ***

# ***CAZİBƏSİ***

Mənsur Həllacın şəxsiyyəti və dünyagörüşü haqqında «Mənsur Həllacın sirli dünyası» (Bakı, 2006) adlı kitabımızda geniş məlumat verdiyimizə görə burada yalnız «Kitab ət-Təvasin» əsəri ilə bağlı bəzi izahlarla kifayətlənəcəyik.

Mənbələr Mənsur Həllacın müxtəlif məzmunlu çoxsaylı kitablarının olması haqqında məlumat versə də, əlimizdə onun özünə məxsus yalnız «Təvasin»i və şeirlər divanı vardır. Bununla belə, orta əsrlərin, demək olar ki, əksər sufi traktatları əsasında təsəvvüfün tarixi və fəlsəfəsi üzərində tədqiqat aparan bir mütəxəssis kimi belə bir fikir irəli sürə bilərik ki, bu kitab nəinki Mənsur Həllacın öz dünyagörüşünü, hətta təsəvvüf fəlsəfəsinin özünün də, rəmzi dillə olsa belə, əsas ideya xəttini dolğunluğu ilə çatdıran bir əsərdir. Dediklərimizə qısa şəkildə açıqlama verək.

Əvvəla, Mənsur Həllac bütün əsəri boyu öz fikirlərini Qurani-Kərimdən gətirdiyi ayələrlə əsaslandırır və ya onun düşüncələri bir növ ayələrə verilmiş təfsir xarakteri daşıyır. Təsadüfi deyil ki, mütəfəkkir: «Quranda hər şeyin elmi var…», – deyə bildirir (9, s. 95). Yuxarıda da xatırlatdığımız kimi, təsəvvüf tarixinin müxtəlif dövrlərində ayrı-ayrı sufi mütəfəkkirlər təsəvvüf və islamın əlaqəsi haqqında dəyərli əsərlər yazmış və bu əlaqənin üzvi xarakter daşımasını dəlil- sübutlarla göstərməyə çalışmışlar. Mənsur Həllac kimi ziddiyyətli, tarixdə əksər bidət təriqətlərdə adı hallanan bir şəxsiyyətin düşüncələrində də bu əlaqənin mövcudluğu danılmaz bir fakt kimi görünməkdədir.

İkinci nəzəri cəlb edən məsələ Mənsur Həllacın Məhəmməd peyğəmbərin (ﷺ) şəxsiyyətinə özünəməxsus tərzdə müraciət

etməsidir. Mütəfəkkirin rəmzi dillə çatdırmaq istədiyi bir neçə məna vardır ki, müxtəlif dövrlərdə onlar nəinki yanlış yozulmuş, hətta Həllacın küfrünə belə fərman verdirmişsə də, təsəvvüfün mahiyyətini ehtiva edən bir həqiqətdir.

Mənsur Həllac Məhəmməd peyğəmbəri (ﷺ) ilk növbədə islam dininin peyğəmbəri olaraq mədh edir ki, bu da islam mütəfəkkirləri və ədibləri arasında ənənə xarakterli bir addım olmuşdur. Bundan başqa, mütəfəkkir onu (ﷺ) həm də kamillik mücəssəməsi kimi təfsir edir.

Ümumiyyətlə, təsəvvüf fəlsəfəsində maraq doğuran məsələlərdən biri də Məhəmməd nuru və ya Məhəmməd həqiqəti məfhumudur ki, «Təvasin»də müəyyən dərəcədə öz əksini tapmışdır.

Həllaca görə, Məhəmməd peyğəmbərin (صدق الله العظيم) özü (bir peyğəmbər olaraq) ilə yanaşı, düşüncələri, baxışları da aydınladan nurdur. Bunu onun (صدق الله العظيم) Allah rəsulu və peyğəmbəri olması və vəhy sahibi olaraq universal xarakterli hikmət çatdırması ilə izah etmək olar. Bu nuru «qeybin nuru» və «sirləri və gizlinləri açan» adlandırmaqla Həllac Məhəmməd peyğəmbərin (صدق الله العظيم) həm də ezoterik biliyə sahib olmasına işarə edir. Həllac Məhəmməd (صدق الله العظيم) nurunu «nurdan bir nur», «əzəli» adlandırmaqla onun bilavasitə ilahi nurdan qaynaqlandığını və hər bir yaradılandan əvvəl olmasını bildirir. Təbii ki, burada onun (صدق الله العظيم) ilahi kəlamın vasitəçisi olması da unudulmur, yəni Müqəddəs Kitab və onun nazil olduğu şəxs – Peyğəmbər (صدق الله العظيم) Allahı tanıdan nurun daşıyıcısı – çıraqdır.

Allahın zatı vahid və bölünməzdir. Ən müxtəlif və zidd sifətlərə malik olmasına baxmayaraq, bu sifətlər vahid zata aiddir və bu, zatın bölünə biləcəyi və ziddiyyətli olması demək deyil. Çoxluq və zidlik yalnız adlardadır və təsəvvüf fəlsəfəsinə görə, bu, yaradılış iyerarxiyasında Vahid Zatdan sonra gələn ikinci aləm – vəhdaniyyət və ya Məhəmməd nurunun xüsusiyyətləridir. Bütün sifətlərin bərabər mövcud olduğu bu aləmə çatanın halı təsəvvüfdə «ayn əl-cəm» adlanır. Bu, bütün zidlərin vahid bir zat ətrafında

birləşdiyinin şahidi olmaqdır (Yaradılış iyerarxiyasının mərtəbələri haqqında geniş bax: 2, s. 149-155).

Nəhayət, onu da qeyd edək ki, bir sıra sufi mütəfəkkirlərin (Eyn əl-Qüzat Miyanəcinin, Mühyiddin ibn Ərəbinin, Əbu Hamid Qəzalinin) də məsələyə dair fikirlərindən çıxış edərək bildirmək olar ki, Məhəmməd nuru deyərkən, zənnimizcə, onlar yalnız müəyyən bir şəxsi deyil, özündə insanlığın bütün ucalığını və kamilliyini ehtiva edən, mövcudatın var olmasının səbəbkarı olan kamil insanı nəzərdə tutmuşlar.

Həllac öz əsərində Məhəmməd peyğəmbərin (ﷺ) şəxsiyyətini, imanını, kamilləşmə prosesini göstərməklə yanaşı, «əşyalar öz zidləri ilə tanınırlar. Zərif ağ ipək qara işlərdən (toxunuşdan) yaranır», – deyib Məhəmməd peyğəmbəri (ﷺ) İblislə müqayisə edir.

Məlum olduğu kimi, tarix boyu Həllac haqqında ədalətsiz fikirlərin yaranmasına imkan verən faktlardan biri də onun məhz İblis haqqında düşüncələridir ki, birmənalı qarşılanmamışdır. Məsələyə müəyyən dərəcədə «Mənsur Həllacın sirli dünyası»nın girişində açıqlama versək də, bəzi şeyləri qısa şəkildə əlavə edək.

Mənsur Həllacda İblisə qarşı iki hiss duymaq mümkündür: rəğbət qarışıq bir təəssüf, eyni zamanda halına acıma. İblis Allaha əzəldən xidmət edən, Ona tam səmimiyyəti və təslimiyyəti ilə səcdə edən bir yaradılmışdır. Həllac onun bu xüsusiyyətini dönə-dönə, rəğbətlə, yüksək vurğunluqla təsvir edir. O, İblisin dili ilə deyir: «Haqqa and olsun ki, mən tədbirimdə yanılmadım, [Allahın] yazısını rədd etmədim, təsvirin dəyişməsi məni aldatmadı, mənim bu yazılara rəğmən öz alın yazım var. Mənə öz odunda əbədiyyən əzab versə də, başqasına səcdə etmərəm, bir şəxsə və cəsədə alçalmaram, mən [Ona] zidd birini tanımıram. Mənim iddiam sadiqlərin iddiasıdır. Məndə olan sadiqlərin sevgisindəndir». O, öz imanında israrlı və əmindir və bunun üçün Allahdan, yalnız Ondan gələn hər şeyə razıdır: «Əslində, mən sevənəm. Sevən isə rəzildir. Doğrudan da, Sən mənə «rəzil» deyirsən, ey mətinli qüvvə sahibi, mənim başıma gələnləri mən

aydın kitabda (Quranda) oxuyuram. Mən ona [insana] necə alçala bilərəm. Sən məni oddan yaratdın, onu palçıqdan. Bunlar iki uyğun gəlməyən ziddiyyətlərdir. Mən Sənin xidmətində daha əzəldənəm və daha böyük fəzilətdə, daha böyük elmdə və daha kamil anddayam».

Həllac özünü məhz bu notlarda, yəni sadiqlikdə, yalnız Ona xidmət etməsində, hər anının yalnız Onunla olmaq istəyində İblisə bənzədir. Lakin bu rəğbətdə dərin bir təəssüf də var: belə bir məhəbbət sahibi kordur, rəzildir: «Onun işi qarışdı, zənni pisləşdi, □Mən ondan xeyirliyəm□, – dedi və pərdə arxasında qaldı», çünki «o (İblis), qürur dənizinə düşdü və kor oldu». İblisin məhəbbəti onu həqiqətə çatdırmaq əvəzinə, daha da uzaqlaşdırdı: «Mənim istəyimi qadağandan, rədd etməkdən, ziyandan, faydalardan qurtardı, məni ayırdı, meydana çıxartdı, məni çaşdırdı, qovdu ki, seçilmişlərə qarışmayım; qısqanclığıma görə məni başqalarından ayırdı, heyrətimə görə məni dəyişdirdi, uzaqlaşdırıldığıma görə məni çaşdırdı, xidmətimə görə məni uzaqlaşdırdı, söhbətimə görə məni yasaq etdi, mədhimə görə məni utandırdı». Göründüyü kimi, deyilənlər müəyyən mənada Həllacın özünü də təsvir edir, daha dəqiq desək, onun iddiasındakı israrını: «Öldürülsəm də, [çarmıxa çəkilsəm də], əlim, ayağım kəsilsə də, iddiamdan dönməyəcəm».

Bunlarla yanaşı, Həllac həm də İblisin halına acıyır, çünki o, öz korluğu səbəbindən yolun yarısında qaldı, onu bitirə bilmədi: «İblis üçün mahiyyət dəyişdiyinə görə yoldan gözünü çəkdi». Allahı əzəldən tanıyan, Ona daha əvvəldən xidmət edən bir yaradılmış kimi, İblisin də həqiqətə yaxın olmaq imkanı çox idi, lakin öz iddiası nəticəsində «mahiyyətdən (əvvəlcə var olduğu Həqiqət aləmindən) düşdü, Əhmədə (ﷺ) isə mahiyyətin mahiyyətindən kəşflər açıldı». Bu o deməkdir ki, İblis həqiqəti görə-görə ona göz yumdu və ondan uzaqlaşdırıldı: «Ey qardaşım! Onu «Əzazil» adlandırdılar, çünki o, uzaqlaşdırıldı və «təcrid edilmiş» oldu. O, əvvəlindən sonuna dönmədi, çünki sonundan çıxmadı». Məhz burada Həllacın həm İblis, həm də İnsan haqqında düşüncələri açıqlanır: insanın ilahi mahiyyətə uzanan bir

yolu var, ona Allahdan kəşflər açılır, o, Allahdan başqa heç bir varlığın bilmədiyi elmlərə sahibdir və bu keyfiyyətlər onu Allahdan sonra səcdə obyekti olmağa layiq edir. «İblisə gəlincə, o dəvət etdi, lakin öz halına geri dönmədi. Əhməd (ﷺ) çağırdı və öz gücünə geri döndərildi».

Göründüyü kimi, Həllacın məqsədi İblisə haqq qazandırmaq yox, insanın imkanlarını, üstünlüklərini göstərmək olmuşdur.

Mütəfəkkir öz əsərində Məhəmməd peyğəmbərin (ﷺ) əsil-nəsəbini mədh etməklə yanaşı, onun (ﷺ) düşüncəsinin, təfəkkür tərzinin də seçilmiş və ilahi həqiqəti dərk edəcək səviyyədə olduğunu göstərir. Maraqlıdır ki, Həllac bir neçə dəfə «savadsız» kimi təsvir etdiyi bir adamın (ﷺ) sonda Haqqa «iki yay məsafəsinə» qədər çatmasından, onun (ﷺ) bu yoldakı iradəsindən, eyni zamanda Allah qarşısındakı təslimiyyətindən danışır. Ümumiyyətlə, burada o, bir-birinə zidd kəlmələrlə Peyğəmbərin (ﷺ) maddi və ilahi dünyalar arasında bir vasitəçi olmasını, rasional və irrasional biliklərə, metodlara sahib olmasını çox incə şəkildə çatdırır. Bununla Həllac peyğəmbərliyin mahiyyətini açmaqla yanaşı, həm də adi bir insanın maddiyyatdan başlayıb vəhdət aləmində bitən idrak prosesinin bütöv bir təsvirini də vermiş olur.

Həllacın düşüncələrində əhəmiyyətli bir ana xüsusilə diqqət yetirilməlidir. Məhəmməd peyğəmbərin (ﷺ) və onun (ﷺ) simasında Kamil İnsanın çatdığı sonuncu zirvə, Qurani- Kərimin də təsdiqlədiyi kimi, «iki yay məsafəsi»dir (Quran 53/9): «Həqiqət elminin çöllərinə çatanda könlü ona söylədi, o da xəbər verdi. Həqiqətin haqqına çatanda istəyini tərk etdi və comərdə (Allaha) təslim oldu».

İdrak prosesinin gedişində Həllac onun hər mərhələsində həm rasional, həm də irrasional mərhələlərin vacibliyini vurğulayır: «Bədənində bir tükün necə qara və ya ağ olduğunu bilməyən əşyaları yaradanı necə tanıyar?» və ya «Varlıqda zərrədən kiçiyi yoxdur. Sən onu dərk etmirsən. Zərrəni [onun nə olduğunu]

tanımayan ondan daha dəqiq olanı tam həqiqəti ilə necə tanıya bilər?» Mütəfəkkirin fikrinə görə, irrasional bilik – əsl həqiqət rasional biliyin səviyyəsindən asılıdır, çünki «Konkreti və müfəssəli, əvvəli və sonu, dəyişiklikləri və səbəbləri, həqiqətləri və yolları tanımayan şəxsə əzəli olanın [Allahın] mə'rifətindən pay düşməz». Lakin idrak prosesinin daha mürəkkəbi onun irrasional mərhələsidir, çünki «Məchulun içindəki mə'rifət gizlidir, mə'rifətin içindəki məchul da gizlidir».

Həllac bu qabiliyyətə sahib olmağın yolunu da göstərir. Hər şeydən əvvəl o, məqsəddən yayınmamağı, yalnız onu görməyi israr edir. Məsələn, o, İblisin dili ilə Musa peyğəmbəri bu yolda göstərdiyi zəiflikdə ittiham edir: «Mənə vahid məbud iddiası (tək Allaha səcdə istəyi) mane oldu, ona səcdə etsəydim, sənin kimi olardım. Sənə bir dəfə nida gəldi «dağa bax» (Quran 7/143), sən də baxdın. Mənə min dəfə nida gəldi ki, səcdə et, mənamdakı iddiama görə etmədim». Ondan fərqli olaraq, Sizin yoldaşınız[1] (yolunu) azmadı (Quran 53/2), naqis olmadı, yorulmadı, gözü «harada» ilə bəhanə gətirmədi, «nə vaxt» ilə yorulmadı, var oldu».

Həllac hər şeyə məhz maddiyyatdan uzaqlaşaraq könül gözü ilə baxmağı, yəni irrasional aspektdən dərk etməyi məsləhət görür: «Sözləri diqqətlə nəzərdən keçirt, zənlərdən uzaq ol, ayaqlarını insanlıqdan və xəlqdən ucaya qaldır. Onu nizam və uyğunluqla ayırd et, coşqun eşqlə özündən keç, gör ki, dağlar və qayalıqlar – fəhm dağlarının və əminlik qayalıqlarının – arasında uçursan ki, gördüyünü görəsən». Bununla belə, mütəfəkkir dönə-dönə və israrla bildirir ki, dərk olunan Allahın zatı, həqiqəti deyil: «Məxluqların idrakı həqiqətlə bağlı deyil, həqiqət kainatla bağlı deyil, düşüncələr – əlaqələrdir, məxluqların əlaqələri həqiqətlərə çatdırmır. Həqiqət elminin idrakı çətindir. Bəs həqiqətin həqiqəti necə? Haqq həqiqətin arxasındadır. Həqiqət Haqqın altındadır». Yəni Allahın həqiqəti Onu təsvir edən hər bir sözün, ifadənin fövqündədir və onlardan hər biri yaradılmışın düşüncə səviyyəsinə uyğun olaraq Allahı tanıdan bir vasitədir.

---

[1] Məhəmməd peyğəmbər () nəzərdə tutulur.

Allah zatı isə bunun fövqündədir, çünki: «Kim desə ki, «Onu həqiqətlə tanıdım», öz varlığını Tanınanın varlığından daha böyük etmiş olur, ona görə ki, kim bir şeyi həqiqətlə öyrənərsə, tanıyandan sonra tanıdığından daha güclü olur», bu isə mümkün deyil, çünki «hekayət hekayət danışanla qaldı, mə‘rifət – seçilmişlərlə, zəhmət – şəxslərlə, nitq – vəsvəsə əhli ilə, fikir – ümid qırıqlığına uğrayanlarla, qəflət – uzaq qalanlarla. Haqq Haqdır, xəlq xəlqdir, vəssalam».

İnsanın dərk etməyə çalışdığı isə öz mahiyyətidir: «Arif öz irfanı ilədir, çünki o, öz irfanıdır, irfanı da odur. Mə‘rifət isə bunun arxasındadır, Məruf (tanınan, Allah – K.B.) isə bunun arxasındadır».

Nəhayət, Mənsur Həllacın «Təvasin»də toxunduğu məsələlərdən biri də təsəvvüf fəlsəfəsinin təməl prinsipi olan vəhdət əl-vücuddur. Termin özü olduğu kimi işlənməsə də[1], onun əsas müddəası olan tövhid tam dolğunluğu ilə əsərdə öz əksini tapmışdır. Bu problemə bizim əvvəlki araşdırmamızda toxunduğumuz üçün burada onu yalnız xatırlatmaqla kifayətlənirik (6).

Beləliklə, dünyanın bir sıra dillərinə tam və hissələr şəklində tərcümə edilən «Təvasin»i ilk dəfə azərbaycandilli oxuculara təqdim etməkdə məqsədimiz yalnız Mənsur Həllacın dünyagörüşünün, hətta təsəvvüf fəlsəfəsinin bəzi qaranlıq və ziddiyyət dolu səhifələrinin də deyil, ümumiyyətlə, İnsanın həqiqətə gedən yolunun bəzi məqamlarına işıq salmaq olmuşdur.

---

[1] Vəhdət əl-vücud bir termin olaraq ilk dəfə Mühyiddin İbn Ərədinin tələbəsi olmuş Sədrəddin Konəvinin (1274) «Miftəhu‘l-qeyb» (Qeybin açarı) və onun müasiri olmuş İbn Səbinin (1270) əsərlərində xatırlanmışdır.

# *MƏNSUR HƏLLAC*

# *KİTAB ƏT-TƏVASİN*

♦1♥

الحلاج ابو المعيث الحسين منصور

كتاب الطواسين

*(ərəbcə mətnin tərcüməsi)*

I (*a*)

## TA SİN ÇIRAQ

1. [Həllac] (Allah ondan razı olsun) deyir: Ta sin, çıraq[1] qeybin nurundandır, göründü və yox oldu. Çıraq irəli keçdi və hər şeydən üstün oldu. O, aylar arasından təcəlli edən aydır. Onun bürcü sirlər ulduzundadır. Haqq-Təala onu bütün məqsədlərinə görə «ümmi» (savadsız), nemətinin əzəmətinə görə «həram» (qadağan olunmuş), öz yaxınlığında imkan əldə etdiyinə görə «məkkəli» adlandırdı.

2. [Haqq] onun köksünü genişləndirdi (Quran 94/1), onun dərəcəsini qaldırdı, onun əmrini vacib etdi, onun bədrini (dolu ay) göstərdi, onun bədri Yəmamə buludundan doğdu, onun günəşi Tihamə (Məkkə) tərəfdən parladı, onun çırağı kəramət mədənindən işıq saçdı.

3. Onun bəsirətindən başqa xəbər yoxdur, onun həyatının həqiqətindən başqa bir sünnətin əmri yoxdur. [Onun] hüzuruna vardı və ərz etdi, gördü və xəbər verdi, etməyə çalışdı və dəqiqləşdirdi.

4. Doğruluğu Sıddıqdan (Əbu Bəkrdən) başqa bir kimsə görə bilməz, **çünki** o, onunla həmfikir idi, sonra aralarında fərq qalmasın deyə onunla yoldaş oldu.

5. Arif cəhalətin təsvir etdiyindən başqa bir şey bilmir. Yalnız Haqqın nəzarət etdiyi kəşfin vəsfi ona aydındır. □O kəslər ki, biz onlara kitab verdik ki, Öz oğullarını tanıdıqları kimi onu (kitabı) tanısınlar. Onlardan elə bir qrup da var ki, Haqqı bilir və gizlədir□ (Quran 2/146).

6. Peyğəmbərliyin nurları onun görünən nurundandır. Onun qeybin nurundan olan nurları zahirdir. Onların nurları onun

---

[1] Burada söhbət Qurani-Kərimin Nur surəsinin 35-ci ayəsindən gedir və onun əksər təfsirlərində olduğu kimi, burada da çıraq adı altında Məhəmməd peyğəmbər (ρ) nəzərdə tutulur.

aşkar nurundandır. Nurlarda kərəm sahibinin [Allahın] nurundan savayı, daha işıqlı, daha aşkar və daha əzəli bir nur yoxdur.

7. Onun əzmi əzmlərdən, varlığı yoxluqdan, adı qələmdən əvvəldir. Çünki o, nəsillərdən qabaqdır. Üfüqlərin arxasında, üfüqsüz üfüqlərdə bu hökmün sahibindən daha zəfərli, daha şərəfli, daha çox bilikli, daha ədalətli, daha mərhəmətli, [Allahdan] daha çox qorxan, daha şəfqətli biri olmayıb. O, yaradılışın ağası, adı Əhməd, vəsfi əhəd, əmri təkid, zatı aşiq, sifəti şərəfli, nəsli təkdir.

8. Heyrət! Necə aşkar, baxımlı, necə böyük, nurlu, qüdrətli, açıqgözlüdür. O, hadisələrdən, baş verənlərdən, yaradılanlardan əvvəl olduğu kimi, hələ də məşhur olmaqdadır. Əvvəldən əvvəl, sonradan sonra cövhərlər və rənglər hələ də onu xatırlatmaqdadır. Onun cövhəri (mahiyyəti) saf, kəlamı peyğəmbəri, elmi ali, şərhi (ifadəsi) ərəbi, nəsli □nə şərqidir, nə qərbi□ (Quran 24/35), cinsi patriarxal, missiyası nizamlayıcı, ləqəbi ümmidir (savadsız).

9. Gözlər onun işarəti ilə görür, sirlər və gizlinlər onunla tanınır, onu Haqq danışdırır, dəlil onu təsdiqləyir, Haqq onu göndərib, o, dəlildir və dəlalət ediləndir. O, qapalı sinələri pasdan təmizləyir, o, əzəli, söylənməmiş, deyilməmiş, edilməmiş kəlamla verəndir. O, Haqla ayrılmadan birləşir, əqli olanın fövqünə qalxır. O, son və sonlar, sonun sonları haqqında xəbər verəndir.

10. Bulud qalxdı və Həram evinə (Kəbəyə) işarə etdi. O, kamaldır, o, comərddir, o, bütləri sındırmağı əmr edəndir, o, məxluqata və günahkarlara göndəriləndir.

11. Onun üzərində bulud bərq vurur, altında şimşək çaxır, parıldayır, yağış yağır, meyvələr yetişir. Bütün elmlər onun dənizinin bir qətrəsidir, hikmətlər hamısı onun çayından bir ovucdur, bütün zamanlar onun dövründən bir saatdır.

12. Haqq onunladır və onunla olmaq həqiqətdir, doğruluqdur və mülayimlikdir. O, vüsalda ilkdir, o, peyğəmbərlikdə sonuncudur. Həqiqətlə batin, mə‘rifətlə zahirdir.

13. Hər hansı bir alim onun elminə çatmaz, hər hansı bir hakim onun fəhminə vaqif olmaz.

14. Haqq Onun öz xəlqinə göndərdiyidir, çünki O, Odur, mən oyam və o, odur[1].

15. «Muhammməd»in (محمد) «mim»indən (د) [heç nə] xaric deyil, onun «ha»sına (ح) bir kimsə daxil deyil. Onun «ha»sı ikinci mim, «dəl»i (د) birinci «mim»dir. Onun «dəl»i onun davamıdır, «mim»i onun məkanıdır, «ha»sı onun halıdır, onun halı ikinci «mim»dir.

16. O (Allah), onun dediklərini üzə çıxartdı, onun əlamətlərini aydınlaşdırdı, izahlarını yaydı, furqanını (qanununu) nazil etdi, onun dilini dəqiqləşdirdi, ruhunu nurlandırdı, onun bənzərlərini aciz etdi, onun dediklərini təsdiqlədi, onun şanını ucaltdı (Quran 94/4).

17. Onun meydanından qaçsan, yol hanı? Dəlil yoxdur, ey xəstə. Müdriklərin hikmətləri onun hikmətinin yanında qum dənəsi kimidir.

/2 ∞

[1] Sonrakı sözlərindən çıxış edərək belə açıqlamaq olar ki, «Allah Allahdır, mən Haqqam, yəni Onun göndərdiyiyəm, yaratdığıyam, xəlq isə xəlqdir.

# II (*b*)

# TA SİN FƏHM

1. Məxluqların idrakı həqiqətlə bağlı deyil, həqiqət kainatla bağlı deyil, düşüncələr – əlaqələrdir, məxluqların əlaqələri həqiqətlərə çatdırmır. Həqiqət elminin idrakı çətindir. Bəs həqiqətin həqiqəti necə? Haqq həqiqətin arxasındadır. Həqiqət Haqqın altındadır.

2. Pərvanə səhərə kimi çırağın ətrafına fırlanır. Sonra öz həmcinslərinin yanına dönür və ən incə sözlərlə öz halını onlara danışır. O, dəlillərlə sevinir, təbii ki, kamala çatmaq həsrəti ilə.

3. Çırağın şüası həqiqət elmidir və onun hərarəti həqiqətin həqiqətidir, ona çatmaq isə həqiqətin haqqıdır[1].

4. O, çırağın işığı və hərarəti ilə razı qalmır və özünü bütünlüklə oda atır. Yoldaşları onun qayıtmasını gözləyirlər ki, öz gördüklərini onlara xəbər versin. O isə xəbərlə razılaşmayaraq yox olur, acizləşir, gözdən itir, rəsmsiz, cisimsiz, isimsiz və keyfiyyətsiz qalır. O, hansı xəbərlə yoldaşlarının yanına qayıtsın? Əldə etdiklərindən sonra hansı halla dönsün? Gördüklərinə çatan kəsin xəbərə ehtiyacı qalmır, görülənə çatanın görməyə ehtiyacı qalmır.[2]

5. Bu məna laqeydlərə, fanilərə, canilərə, mənim kimi təmənnalı kəslərə izah edilməz. Sanki mən oyam və ya o, məndir. Məndən qorxma mən oldunsa.

---

[1] Təsəvvüfdə idrak prosesi sadədən mürəkkəbə, zahirdən batinə doğru istiqamətlidir və bu yolun mərhələləri həqiqətin bilinməsi, görülməsi və həqiqəti – «ilm əl-yəqin», «ayn əl-yəqin» və «haqq əl-yəqin» – kimi mərhələlərlə xarakterizə edilir. Həllac onları «ilm əl-həqiqət», «həqiqət əl-həqiqət» və «haqq əl-həqiqət» kimi verir.

[2] Əvvəlcə söhbət subyektiv, sonra isə obyektiv həqiqətdən gedir.

6. Ey zənn! Elə hesab etmə ki, mən indi mənəm, yaxud olacam, yaxud idim. Mən arif olsam da, bu hal kamil deyil. Mən o olsam da, yenə mən o deyiləm.

7. Əgər anladınsa, onda bil ki, bu məna Əhməddən (ﷺ) başqasına tam açılmır. □Məhəmməd…□ peyğəmbərlərdən … □bir başqasına ata olmadı…□[1] (Quran 53/40). O, [qəlbinin üzərində] pas, yalan qalmayana qədər insan və cinlərdən aralandı, harada [sualına] gözlərini yumdu.

8. □O, iki yay məsafəsi qədər yaxınlaşdı□ (Quran 53/9). Həqiqət elminin çöllərinə çatanda könlü ona söylədi, o da xəbər verdi. Həqiqətin haqqına çatanda istəyini tərk etdi və comərdə təslim oldu. Haqqa çatanda döndü və dedi: «Şəklim sənə səcdə edir, könlüm sənə iman edir». Məqsədlərin məqsədinə çatanda dedi: «Sənə şükrüm hesabsızdır». Həqiqətin həqiqətinə çatanda dedi: «Sən özün özünü həmd-səna etdiyin kimisən». O, şəhvəti rədd etdi, arzusunun ardınca getdi. □Sidr müntəhanın[2] yanında□ (Quran 53/14) □Könül gördüyündə aldatmadı□ (Quran 53/11). O, üzünü həqiqətdən sağa, həqiqətin həqiqətindən şimala çevirmədi, □Göz nə ayrıldı, nə də həddini aşdı□ (Quran 53/17).□

/2 ∞

---

[1] Ayənin əsl mənasından fərqli olaraq, Həllac ayəni elə göstərib ki, Məhəmməd peyğəmbərin (ρ) peyğəmbərlərdən bir başqasına ata olmaması mənası alınır və bu, əslində, həqiqətdən uzaq bir şey də deyil.

[2] Sidr müntəha (sonuncu sərv) – ən böyük arzunu bildirən əfsanəvi ağac.

III (*c*)

## TA SİN SAFLIQ

1. Həqiqət dəqiqdir. Onun yolları dardır. Onlarda püskürən atəşlər var, onlarsız dərin çöllüklər var. Qərib onlarla gedər və qırx məqamı[1] qət etməsindən xəbər verər: ədəb, ayrılma (getmə)[2], səbəb, tələb, təəccüb, məhv, sevinc (coşqu), hirs, dürüstlük, paklıq, sidq, mülayimlik, azadlıq, açıqlama, canlanma, anlama, şəhadət, var olma, hesablama, ağırlıq, dönüş, genişlənmə, güvənmə, təcrid, yönləndirilmə, istək (və şəhadət), hüzur, razılıq, himayə, axtarmaq, müqavimət, hazırlaşma, çaşqınlıq, düşünmə, səbir etmək, dəyişmək, tərk etmək, oyanmaq, riayət, hidayət və başlanğıc. Bu sonuncu saflıq və paklıq əhlinin məqamıdır.

2. Hər məqamın aydın olan və olmayan məlumatları var.

3. Sonra [qərib] çöllüyə çatdı və onu keçdi. Onu gəzdi və bütünlüklə tanıdı. Dağ və düzəndən başqa bir əhl və yaxın tapmadı.

4. Musanın zamanı gələndə (Quran 28/29), o, həqiqət əhli olanda öz əhlini tərk etdi, həqiqətə yaxınlaşdı. Bununla da, nəzər yetirmədən bütünlüklə xəbərlə razılaşdı, onunla xeyirli bəşər arasında fərq yarandı[3]. Dedi: Bəlkə ondan sizə bir xəbər verdim (Quran 20/10).

---

[1] Ayrı-ayrı mütəfəkkirlərdə fərqli sayda olan hal və məqamların sayı Həllacda qırxdır və onların başında ədəb, sonunda isə başlanğıc durur. Deməli, bütün hallar, məqamlar əsl həqiqəti dərk etmək üçün bir hazırlıqdır və bütün mərhələləri doğru-dürüst keçə bilmiş şəxs hidayətə – doğru yola, bundan sonra isə başlanğıca çatır. Bu, yeni aləmin – həqiqətlər aləminin başlanğıcıdır.

[2] Əsərin fars nüsxəsində bu söz «qorxu»dur.

[3] Kontekstdən belə məlum olur ki, xeyirli bəşər deyəndə Həllac Məhəmməd peyğəmbəri (ρ) nəzərdə tutur və Musa peyğəmbərin yalnız xəbərlə (ilm əl-

5. Əgər bələdçi xəbərlə razılaşarsa, onun ardınca gedən izi necə tapar?

6. Tur tərəfdən ağacdan [eşidəndə], o, ağacdan eşitmədi, onun budağından eşitmədi, [Haqdan eşitdi].

7. Mən də həmin kəlamı deyən o ağac kimiyəm.

8. Həqiqət Həqiqətdir, yaradılmış yaradılmışdır. Yaradılmışdan imtina et ki, həqiqət baxımından sən o olasan, o, sən olsun.

9. Mən təsvir edənəm, təsvir edilən təsvir edəndir. Təsvir edən həqiqətlədir, təsvir edilən necə?![1]

10. Haqq ona dedi: «Sən dəlilə istiqamətləndirilibsən, dəlalət olunana deyil. Mən dəlilin dəliliyəm».

11. Şeir (bəsit bəhri)[2]:

Haqq məni həqiqətlə gətirdi,
Əhdlə, müqavilə ilə, qeydlə.

Mənim sirrim mənim ağlım olmadan şahid oldu,
«Bu», mənim sirrimdir, «o» və «o», həqiqətdir.[3]

12. Haqq mənim dilimlə mənimlə mənim ruhumdan və elmimdən danışdı. O, məni mənim uzaqlığımdan özünə yaxınlaşdırdı. O, məni seçdi və özünə yaxın etdi.

---

həqiqətlə) kifayətləndiyinə, Məhəmməd peyğəmbərin (ρ) isə haqq əl-həqiqət mərhələsinə çatdığına işarə edir.

[1] Həllacın əvvəlcə subyektiv mövqeyinə görə, hər obyekt subyektin təsviri çərçivəsində məlumdur. Lakin sonra Həllac obyektin daha geniş bir məfhum olduğunu da vurğulayır.

[2] «Təvasin»in ərəbcə nüsxəsində Həllacın şeirlərinin əvvəlində onun hansı bəhrdə yazıldığı qeyd olunmuşdur. Biz şeirləri sətri tərcümə etsək də, bu bəhrlərin adlarını saxlamaq qərarını verdik.

[3] Divanda və fars nüsxəsində «həqiqətdir» sözünün əvəzinə «təriqətdir».

/2 ∞

IV (*d*)

## TA SİN DAİRƏ




1. Yuxarıdakı (üst çərçivənin başındakı) ب (bə, باب (bab) – qapı) ona [Haqqın dairəsinə] aparandır. İkinci (iç dairənin üstündəki) çatıb dayanandır. Üçüncü (iç dairənin altındakı) həqiqətin həqiqəti çöllərində azandır.

2. Vay o kəsin halına ki, dairəyə daxil olur. Yol bağlıdır və axtaran geri döndərilir. Yuxarıdakı nöqtə (dairənin solundakı nöqtə nəzərdə tutulur) onun məqsədidir, aşağıdakı nöqtə (iç dairənin sağındakı nöqtə nəzərdə tutulur) onun öz əslinə qayıtmasıdır. Ortadakı nöqtə (iç dairədə soldan yuxarıdakı nöqtə nəzərdə tutulur) çaşqınlıq içərisində qalmasıdır.

3. Qapısı olmayan dairə (ikinci çərçivənin ortasındakı) və həmin dairənin ortasındakı nöqtə həqiqətdir.

4. Həqiqətin mənası zahir və batinlərdən uzaq olan, heç bir şəkil qəbul etməyən bir şeydir.

5. Sənə işarə etdiyim şeyi anlamaq istəyirsənsə, “Quşlardan dördünü götür və onları özünə öyrət” (Quran 2/260), çünki Haqq uçmur.[1]

6. İstək (şövq, həvəs) gizlilikdən sonra gəlir, heybət (bihuşluq) ona mane olur, heyrət onu talan edir.

---

[1] Bununla Həllac hər şeyin Haqqın özü deyil, Onu təsvir edən, Ona dəlalət edən bir dəlil olduğunu vurğulayır.

7. Bu, həqiqətin mənasıdır. Bu, mənbələrin dairəsindən, qatların dediklərindən daha dəqiqdir. Bundan daha dəqiq olanı isə vəhmin sirrinin anlaşılmasının anlaşılmasıdır.

8. Odur ki, [Haqq] dairənin içində görülür, onun kənarında deyil.[1]

9. Həqiqətin elminin elminə gəlincə, o qadağan edilib (Həramdır), o elmi axtaran acizdir və dairə onu yasaq edir.

10. Buna görə də Peyğəmbərimiz (ﷺ) «Həram» adlandırılıb, çünki ondan (ﷺ) başqa heç kim yasaq edilmiş dairədən kənara çıxmayıb.

11. O, qorxu və təqva içində və həqiqət libasında məxluqatdan kənara çıxdı və: «Ah», – dedi.

[1] Yəni hər şeyin mahiyyətini təşkil edən bir zərrə mövcuddur ki, onu dərk etməklə həmin şeyin həqiqəti dərk edilmiş olur və həmin zərrəni görmək, dərk etmək üçün zərrədən kənar hər şeyin fövqündə durmaq vacibdir.

V (*e*)

## TA SİN NÖQTƏ

1. Bundan daha dəqiq olan isə nöqtənin zikridir. O, [nöqtə] əsldir, artmır, azalmır, tükənmir.

2. [Məni] inkar edənlər çöl dairədədirlər. Onlar məni görməyəndə mənim halımı inkar edirlər, məni zindiq adlandırırlar, məni pisliklərdə günahlandırırlar. Mənim şanımı görəndə fəryad edirlər. Yasaq dairənin içində olan isə onun fəryadının arxasının arxasındadır.

3. İkinci dairənin sahibi məni «rəbbani alim» zənn edir.

4. Üçüncü dairəyə çatan hesab edir ki, mən əminlikdəyəm.

5. Həqiqət dairəsinə çatan məni unudur və məni görmür.

6. Xeyr, sığınacaq yoxdur. Həmin gün sənin Rəbbin təyin edəcək. Həmin gün insana onu geri qoyan və irəli aparan işləri xəbər veriləcək (Quran 75/11-13).

7. [İnsan] xəbərə fikir vermədi, sığınacağa qaçdı, qığılcımlardan qorxdu, aldanıb təhlükəyə atıldı.

8. Mən sufi quşlardan iki qanadlı bir quş (mürid) gördüm. Uçanda mənim şanımı inkar etdi.

9. Məndən paklıq barədə soruşdu, ona dedim: «Qanadlarını yoxluq (fəna) qayçısı ilə kəs. Yoxsa mənim ardımca gələ bilməzsən».

10. Dedi:

– Mən qanadlarımla dostuma tərəf uçuram.

– Vay sənin halına! – dedim, – Onun bənzəri kimi bir şey yoxdur. O, görüb eşidəndir (Quran 42/11).
Həmin gün o adam fəhm dənizinə düşdü və batdı.

11. Fəhmin təsviri belədir:



Şeir (vafir bəhri):

Könlümün gözüylə gördüm Rəbbimi,
Sordum: «Kimsən?» Dedi: «Sən».

Məkanının məkanı yoxdur Sənin –
Sənin olmayacaq bir məkan varmı?

Səndən gələn fəhmin fəhmi yoxdur,
Fəhm Sənin məkanına yetə bilərmi?

Hər məkana sahib olan Sənsən,
Elə bir məkan yoxdur – bəs Sən hardasan?[1]

Mənim fənamdadır fənamın fənası,
Mənim öz fənamda tapdığım Sənsən.

Adımın, cismimin rəsmi pozulub itəndə
Özümdən özümü sordum. Cavab verdim: «Bu,
Sənsən».

Sirrim sənə işarə etdi o vaxtadək ki,
Mən yoxa çıxıb Səndə davam etdim.

Həyatım da, qəlbimdəki sirr də Sənsən,
Harda mən varam – Sən varsan orda.

[1] Şeirin qalan beytləri Həllacın «Divan»ından əlavə edilib (47, s. 52-53).

Hər şeyi elmlə dərk etdim, bildim,
Hər şeyi göstərən Sənsən.

Allahım, Öz əhvini bəxş et ki,
Səndən başqasına üz tutmayım.

12. Dairədə ilk nöqtə[1] anlamaqdır, ondan [yalnız] biri Haqdır, digərləri batildir.

13. O (Haqq axtaran kəs), yüksələrək yaxınlaşdı, ucalaraq geri döndü (Quran 53/8). Axtararaq yaxınlaşdı, nəşə ilə geri döndü. Qəlbini orada qoydu və Rəbbinə yaxınlaşdı. O qeyb oldu, o, məni görəndə hələ qeyb olmamışdı. Hüzurda olmayan necə hüzura çatdı? Görməyən necə gördü?

14. Tərəddüd etdi və gördü. Gördü və tərəddüd etdi. Ona şahid olundu və o, şahid oldu. Çatdı və ayrıldı. İstəyi ilə çatdı, könlündən ayrıldı, Könül gördüyündə aldatmadı (Quran 53/11).

15. Onu gizlətdi və yaxınlaşdırdı. Onu yaxınlaşdırdı və paklaşdırdı, onun susuzluğunu yatırtdı və doydurdu. Onu saflaşdırdı və seçdi. Onu çağırdı və onu dəvət etdi, onu bəlaya saldı və şəfa verdi. Onu qorudu və ata mindirdi.[2]

16. O, iki yay məsafəsinə çatdı. O tövbə etdi və hədəfə çatdı. O çağırıldı və cavab verdi. Gördü və yox oldu. İçdi və məmnun qaldı, yaxınlaşdı və ağlı başından çıxdı, şəhərlərdən və yoldaşlarından, sirlərindən, gördüklərindən və əsərlərindən uzaqlaşdı.

17. Sizin yoldaşınız (yolunu) azmadı (Quran 53/2), naqis olmadı, yorulmadı, gözü «harada» ilə bəhanə gətirmədi, «nə vaxt» ilə yorulmadı, var oldu.

---

[1] Görünür, Həllac nöqtələri eyni şəkildə, eyni məsafədə, başı və sonu olmayan bir şəkildə verməklə ilk, Haqq və batil nöqtələrin sirr olduğuna işarə etmişdir. Çərçivə isə insan təfəkkürünün məhdudluğuna işarədir.

[2] Güman ki, Peyğəmbərimizin () Merac zamanı mindiyi Burak nəzərdə tutulur.

18. Bizi düşünməsində və bizimlə bağlı işlərində □Sizin yoldaşınız (yolunu) azmadı□ (Quran 53/2), bizim müşahidəmizdə olan zikr bağçasında □Sizin yoldaşınız (yolunu) azmadı□ (Quran 53/2), fikir cövlanında yolunu çaşmadı.

19. Əksinə, nəfəslərində və göz qırpımlarında zikr edərək, bəla və mükafatlarında şükür edərək Haqq üçün oldu.

20. O, nurdan nura □yalnız vəhy olunan vəhydir□ (Quran 53/4).

21. Sözləri diqqətlə nəzərdən keçirt, zənlərdən uzaq ol, ayaqlarını insanlıqdan və xəlqdən ucaya qaldır. Onu nizam və uyğunluqla ayırd et, coşqun eşqlə özündən keç, gör ki, dağlar və qayalıqlar – fəhm dağlarının və əminlik qayalıqlarının – arasında uçursan ki, gördüyünü görəsən, Həram məscidindən israrlı oruc halı ilə keçəsən.

22. Sonra o yaxınlaşdı, sanki o, mənaca yaxınlaşırdı. Sonra zəif kimi yox, aciz kimi dayandı.[1] O, tərbiyə məqamından təlim məqamına keçdi, təlim məqamından yaxınlıq məqamına keçdi. Axtararaq yaxınlaşdı, qaçaraq uzaqlaşdı. Çağıraraq yaxınlaşdı, müjdəçi olaraq geri döndü, cavab verərək yaxınlaşdı, yaxın olaraq qayıtdı, şahid olaraq yaxınlaşdı, müşahidə olunaraq qayıtdı.

23. □İki yay məsafəsi qədər yaxınlaşdı□ (Quran 53/9), «harada»nı «arada» oxu ilə atdı, iki yayı təsbit etdi, haradanı dəqiqləşdirmək və ya mənbəni gizlətmək üçün mənbənin mənbəyinə yaxınlaşdı.

24. Qəribə alim Hüseyn b. Mənsur Həllac (Allah ona rəhmət eləsin) dedi:

25. Zənn etmirəm ki, ikinci yaya çatmamış birisi bizim kəlamımızı anlasın. İkinci yay Lövhi Məhfuzun altındadır.

26. Onun (ikinci yaya çatanın) hərfləri çox deyil, onlar nə ərəbcədir, nə əcəmcə.

---

[1] Yəni bezmədi, yorulmadı, yalnız onun gücü və idrakı fövqündə olduğunu anladı.

27. Bir hərfdən başqa, o da «mim»dir (م), (mim hərfi) □vəhy olunandır□[1] (Quran 53/4)).

28. Mim sonuncu addır, yəni ikinci yayın adıdır və o, mələkut mülküdür.

29. O, birinci yayın telidir (vətəridir), o həm də birinci yayın başlanğıcıdır (yəni ikinci yayın mülkü mələkutdur. O isə birinci yayın telidir və cəbərut mülküdür. Beləliklə, birinci yay cəbərut mülkü, ikinci yay mələkut mülküdür. Mülk hər iki yayın telinin xüsusiyyətidir. Zatın mülkünün xüsusi təcəllisi vardır ki, o da əzəlinin oxudur, …hər iki yayın oxudur.)

30. Bu, günəşi yandırandan (Allahdan) gəlir.

31. Həllac (Allah ondan razı olsun) deyir: «Kəlamın sənəti yaxınlığın mənasındadır, O, mənanı xəlqin yolu üçün deyil, haqqın həqiqəti üçün bağışlayır. Yaxınlıq dəqiqlik dairəsidir».

32. Həqiqətlərin haqqı olan Həqiqət dəqiqlərin dəqiqindədir; öndə gedənlərin şəhadətinə görə bu, aludə olanın tiryəki vəsf etməsində, əlaqələrin qopmasının görülməsində, bərabər yəhərin üstündə fəlakətlərin davam etməsindədir; bu, şəxsiyyətdən asılı olaraq, xüsusi yolla və xilas ifadəsi ilə dəqiqliklərin bəyanıdır; peyğəmbər ənənəsinə riayət edən kəslərin mənəviyyatını anlamaq üçün əhatəli görüş mənasında olan yaxınlıqdadır.

33. Yəsribin[2] sahibi (ﷺ) qorunan kitabda (Qurani-Kərimdə), qeyd etdiyimiz kimi, □yazılmış□ və himayə edilən □kitabda□ (Quran 52/2) mühafizə edilən kəsin şanı haqqında quşların məntiqinin mənasından (Quran 27/16) [çıxış edərək] deyir: «Bizi □iki yay məsafəsinə□ kimi inandırdı və… gözü uzaqlaşdırdı».[3]

34. Ey həsrət çəkən, əgər bunu anladınsa, anla ki, Mövla [Allah] ancaq bir əhlə, əhlindən bir əhlə, əhlinin əhlinə müraciət edir.

---

[1] Güman ki, Məhəmməd peyğəmbər (□) və ona (□) nazil olan kitab nəzərdə tutulur.

[2] Yəsrib – Mədinə şəhərinin islamdan əvvəlki adı.

[3] Ayn – həm də mənbə mənasındadır. Eyni zamanda, ola bilsin, Həllac burada şahid olunacaq həqiqətlərin iki gözlə görülməsinin mümkünsüzlüyünə işarə edir.

35. Onun əhli o kəsdir ki, ustadı və tələbəsi yoxdur, seçimi və bənzətməsi, təhrifi və tənbehi yoxdur, onunla və ondan bir şey yoxdur, əksinə, onda olan ondadır, o, ondadır, onda olan onda deyil. Susuz çöllük susuz çöllükdə, ayə ayədə olduğu kimi.[1]

36. İddialar Onun mənalarıdır, mənalar Onun əməlləridir, Onun əməlləri uzaqdır, Onun yolu sərtdir, adı – şərəflidir, keyfiyyəti – fərdidir, mə‘rifəti – məchuldur, məchulluğu – həqiqətidir, dəyəri – təminatıdır, adı – yoludur, xüsusiyyəti – atəşidir, hirs – sifətidir.

37. Oyanıqlıq[2] Onun keyfiyyətidir, günəşlər – meydanı və şanıdır, nəfslər – məskənidir, şeytan – alimidir, əhli – heyvanıdır, adamlar – sirridir, unutduğu – şanıdır, əzilmək – Onun bəyanıdır, gəlin – Onun bağçasıdır, silinib yox olmaq – binasıdır.

38. Onun ərbabları (ağaları) – mənim sığınacağım, Onun prinsipləri – mənim qorxumdur, Onun iradəsi – mənim diləyim, Onun sərbəstlik verməsi – mənim mənzilim, Onun [verdiyi] dərd – mənim kədərimdir, Onun pərdəsi – sakitlik, [təcəllisinin] davamlı olması – göz xəstəliyidir.

39. Onun təcridi mənim meyxanəmdir, Onun qolçaqları mənim yoxsulluğumdur, Onun dedikləri halımın dayağıdır. Bu qədər! Ona bundan yaxın olan Onun qəzəbinə gələr. Sonrasına Allah kərimdir.

---

[1] Yəni özü kimi, heç bir sifət və ya əlavə olmadan.

[2] İngilis dilinə tərcümədə bu söz «şəriət» kimi verilmişdir.

VI (*f*)

## TA SİN ƏZƏLİ VƏ ŞÜBHƏ

1. Qəribə ustad alim Əbu‘l-Muğis (Allah onun ruhunu müqəddəs etsin) əks mənalı iddiaların həqiqiliyi haqqında deyir: «Yalnız İblisin və Əhmədin (ﷺ) iddiası həqiqi olub. Ancaq İblis mahiyyətdən (əvvəlcə var olduğu Həqiqət aləmindən) düşdü, Əhmədə (ﷺ) isə mahiyyətin mahiyyətindən kəşflər açıldı.

2. İblisə dedi: «Səcdə et». Əhmədə (ﷺ) dedi: «Bax!» Bu səcdə etmədi. Əhməd (ﷺ) baxmadı, baxışlarını nə sağa döndərdi, nə şimala: ﴿Göz nə ayrıldı, nə də həddini aşdı﴾ (Quran 53/17).

3. İblisə gəlincə, o dəvət etdi, lakin öz gücü geri qaytarılmadı.

4. Əhməd (ﷺ) çağırdı və öz gücü qaytarıldı.

5. «Səninlə dönürəm və Səninlə uçuram» sözlərilə, «Ey qəlbləri incələyib təftiş edən!» kəlməsilə və «Sənə olan şükrüm saysızdır» deməklə.

6. Səma əhli arasında İblis kimi bir muvahhid (Allahın bir olduğuna şəhadət verən) olmayıb.

7. İblis üçün mahiyyət dəyişdiyinə görə yoldan[1] gözünü çəkdi və məbuduna təcriddə ibadət etməyə başladı.

8. Təkliyə çatanda lənətləndi, yüksək təcrid tələb edəndə ondan [səcdə etməsi] tələb olundu.

9. Ona dedi: «Səcdə et!» Dedi: «Səndən başqasına xeyr!» Ona dedi: «Lənətim üzərinə olacaq!» Dedi: «Səndən başqasına xeyr».

10. Şeir (həzəc bəhri):

Mənim Sənə görə inkarım müqəddəsləşdirməkdir,

[1] Allaha aparan və yalnız insana məxsus olan kamilləşmə və yüksəliş yolu.

Səndə olan ağlım[1] dəlilikdir.

Sevgili məni çaşdırdı,
Ona olan baxış od saçır.

Sevgilinin dəlili işarət etdi
Ki, yaxınlıq örtünməkdir.

Adəm yalnız Sənin üçündür,
Arada olan İblisdir. [2]

11. O (İblis), qürur dənizinə düşdü, kor oldu və dedi:

– Mənim Səndən başqasına yolum yoxdur. Mən müti aşiqəm.

– Sən lovğalandın, – söylədi.

– Əgər mənim Səninlə bərabər bir anım olsaydı, təkəbbür və lovğalıq mənə layiq olardı.[3] Mən Səni əzəldən (maddi dünya var olmamışdan – K.B.) tanıyıram, □Mən ondan xeyirliyəm□ (Quran 7/12), çünki xidmətində daha əvvəldənəm və hər iki dünyada Səni məndən daha yaxşı tanıyan yoxdur. Mənim niyyətim Səndədir, Sənin niyyətin isə məndədir. Sənin məndəki niyyətin daha əvvəldir. Mənim Səndən başqasına səcdə etməyim, yaxud etməməyim üçün mənim əslimə qayıtmağım lazımdır. Çünki □Sən məni oddan yaradıbsan□ (Quran 7/12), od isə oda qayıdır. Seçim və ixtiyar Sənindir.

12. Şeir (təvil bəhri):

Mənim Sənə uzaqlığımdan başqa bir uzaqlığım
yoxdur,

---

[1] «Divan»da «zənnim» (47, s. 98).

[2] 2-ci və 3-cü beytlər «Divan»dan əlavə edilib. (47, s. 98).

[3] Yəni mən Səninlə bərabər olmamışam, Sənin xidmətində olmuşam. Bu, xristian versiyasından fərqli olaraq, İblisin Allaha deyil, insana qarşı üsyana qalxmasına dəlalət edir.

Yəqin etdim ki, uzaqlıq və yaxınlıq birdir.

Mən Səni tərk etsəm, mənim sahibim ayrılıq olar,
Necə gerçək olur ki, ayrılıq və məhəbbət birdir.

Uğurda, pak xilasda həmd Sənindir,
Uzaqlığım zillətimdir, Səndən başqasına səcdəm
yoxdur. [1]

13. Musa və İblis Turun cığırında görüşdülər. Ondan soruşdu:

– Ey İblis! Sənə səcdə etməyə nə mane oldu?

Cavab verdi:

– Mənə vahid məbud iddiası (tək Allaha səcdə istəyi) mane oldu, ona (insana) səcdə etsəydim, sənin kimi olardım. Sənə bir dəfə nida gəldi: □dağa bax□ (Quran 7/143)», sən də baxdın. Mənə min dəfə nida gəldi ki, səcdə et, mənamdakı iddiama görə etmədim.

14. Musa soruşdu:

– Sən əmrə tabe olmadın axı?

– Bu, əmr deyildi, imtahan idi.

– Günah etmədinsə, bəs sənin surətin niyə dəyişdi?[2]

– Ey Musa, bu, [zahiri] dəyişmədir. Halı o [zahiri dəyişmə] yaratmır, o, keçib gedəndir. Mə‘rifət isə şəxs dəyişsə belə, olduğu kimi doğrudur və dəyişmir, – deyə cavab verdi.

15. Musa soruşdu:

– İndi onu zikr edirsən?

– Ey Musa, fikir zikr edilmir. Mən də xatırlananam, O da, Onun zikri mənim zikrimdir, mənim zikrim Onunku. Bizi yalnız bərabər xatırlayırlar. İndi mənim xidmətim daha səmimidir (təmizdir), vaxtım [başqa şeylərdən] daha uzaqdır, zikrim daha

---

[1] «Divan»da və kitabın fars nüsxəsində bu sətir belədir: «Ağıllı qulun üçün Səndən başqasına səcdə yoxdur». (47, s. 57).

[2] Həm xristian, həm də islam rəvayətlərinə görə, İblisin gözəl surəti Allahın əmrindən çıxdığına görə kifirləşib.

pakdır, çünki mən əzəldə öz həzzim üçün Ona xidmət edirdim, indi isə Onun həzzi üçün xidmət edirəm.

16. Mənim istəyimi qadağandan, rədd etməkdən, ziyandan, faydalardan qurtardı, məni ayırdı, meydana çıxartdı, məni çaşdırdı, qovdu ki, seçilmişlərə qarışmayım; qısqanclığıma görə məni başqalarından ayırdı, heyrətimə görə məni dəyişdirdi, uzaqlaşdırıldığıma görə məni çaşdırdı, xidmətimə görə məni uzaqlaşdırdı, söhbətimə görə məni yasaq etdi, mədhimə görə məni utandırdı, tərk etdiyim üçün məni qadağan etdi, xəbərlərimə görə məni tərk etdi, vüsala çatmağım üçün mənə kəşflər etdi, məhrum olmağım üçün məni vüsala çatdırdı, arzuma mane olmaq üçün məni məhrum etdi.

17. Haqqa and olsun ki, mən tədbirimdə yanılmadım, [Allahın] yazısını rədd etmədim, təsvirin dəyişməsi məni aldatmadı, mənim bu yazılara rəğmən öz alın yazım var. Mənə öz odunda əbədiyyən əzab versə də, başqasına səcdə etmərəm, bir şəxsə və cəsədə alçalmaram, mən [Ona] zidd və ya bərabər birini tanımıram. Mənim iddiam sadiqlərin iddiasıdır. Məndə olan sadiqlərin sevgisindəndir.

18. Həllac (Allah ona rəhmət eləsin) deyir: «Əzazilin (İblisin) halları haqqında [müxtəlif] sözlər vardır. Bəziləri deyir ki, o, səmada da, yerdə də dəvətçidir. Səmada o, mələkləri yaxşı işlər görməyə çağırır, yerdə isə insanları şər işlərə dəvət edir.

19. Əşyalar öz zidləri ilə tanınırlar. Zərif ağ ipək qara işlərdən (toxunuşdan) yaranır. Mələk yaxşı işləri təklif edir və rəmzi olaraq yaxşılara deyir: «Əgər yaxşı iş görsəniz, mükafatlanarsınız». Şəri tanımayan yaxşını da tanımaz.

20. Qəribəliklər alimi Əbu Umarə Həllac deyir: «İblis və Fironla comərdlik (fütüvvət) haqqında mübahisə etdik. İblis dedi: «Əgər mən səcdə etsəydim, comərdlik adımı itirərdim». Firon dedi: «Əgər Onun rəsuluna [Musaya] inansaydım, comərdlik məqamından düşərdim».

21. Mən dedim: «Əgər iddiamdan və dediklərimdən dönsəydim, cömərdlik xalısından düşərdim».

22. İblis: □Mən ondan xeyirliyəm□ (Quran 7/12), – deyəndə ondan başqasını görmürdü. Firon: □Mən sizin üçün məndən başqa Tanrı tanımıram□ (Quran 28/38), – deyəndə öz qövmündə haqq və batili fərqləndirə biləcək başqa birini tanımırdı.

23. Mən dedim: «Onu tanımayanlar Onun izini tanısınlar. Mənəm o iz. Mən Haqqam, çünki mən əbədidən haqq olaraq Haqla varam».

24. Mənim yoldaşım və ustadım İblis və Firondur. İblis cəhənnəmlə hədələndi, ancaq öz iddiasından geri dönmədi. Firon okeanda boğuldu, ancaq iddiasından dönmədi, vasitə qəbul etmədi. O dedi: □Mən inanıram ki, İsrail övladlarının inandığından başqa ilah yoxdur□ (Quran 10/90), sən görmürsən ki, Allah-Təala, həmd olsun Ona, öz şanında Cəbrailin əksinədir? Dedi: «Niyə sən ağzını qumla doldurursan?»

25. Öldürülsəm də, [çarmıxa çəkilsəm də], əlim, ayağım kəsilsə də, iddiamdan dönməyəcəm.

26. «İblis» adı Onun adından yaranıb, dəyişdi «Əzazilə» (عزازيل). Ayn (ع) – onun qayğılarının dəyəridir, zə (ز ) – onun artmasının və çoxalmasının şiddətlənməsidir, əlif (ا) – onun ülfətinin artmasıdır, ikinci zə – onun öz mərtəbəsindəki zahidliyidir, yə (ي) – əzablarına gedən yoldur, ləm (ل) – dərdləri ilə mübarizəsidir.

27. [Allah] ona dedi:

– Ey rəzil! Səcdə etmirsən?

– Əslində, mən sevənəm. Sevən isə rəzildir. Doğrudan da, Sən mənə «rəzil» deyirsən, ey mətinli qüvvə sahibi, mənim başıma gələnləri mən aydın kitabda (Quranda) oxuyuram. Mən ona [insana] necə alçala bilərəm. Sən məni oddan yaratdın, onu palçıqdan. Bunlar iki uyğun gəlməyən ziddiyyətlərdir. Mən Sənin xidmətində daha əzəldənəm və daha böyük fəzilətdə, daha böyük elmdə və daha kamil anddayam».

28. Haqq-Təala ona dedi:

– Seçim mənimdir, sənin deyil.

– Bütün seçimlər və mənim də seçimim Sənindir. Sən artıq mənim üçün seçdin. Ey yaradan! Ona səcdə etməkdə mənə mane

olan da Sənsən. Dediklərimdə bir səhv edirəmsə, buna yol vermə, çünki Sən eşidənsən. Əgər sən mənim ona səcdə etməyimi istəyirsənsə, mən mütiyəm. Ariflər arasında Səni məndən daha yaxşı tanıyan başqa birini tanımıram.

29. Şeir (xəfif bəhri):

Mənə əzab vermə, əzab məndən uzaqdır,
Ağam, mükafatımı ver, çünki mən təkəm.

Vədədə Sənin sözün həqiqətən haqdır,
Başlanğıcda mənim əmrimin başlığı şiddətlidir.

Kim kitabı istəyirsə, bu, mənim xitabımdır,
Oxuyun, bilin ki, mən şəhidəm.

30. Ey qardaşım! Onu «Əzazil» adlandırdılar, çünki o, uzaqlaşdırıldı və ilk saflığından «təcrid edilmiş» oldu. O, əvvəlindən sonuna dönmədi, çünki sonundan çıxmadı, öz başlanğıcında bəlaya düşdü.

31. Onun çıxmaq cəhdi onun yanmaq israrı səbəbindən alınmadı. O, inad məkanı ilə özünün yüksək məqamı arasında qaldı.

32. Saf mənbə dərin bir göldür. Bolluq olan yerdə o, susuzluqdan əziyyət çəkdi, onu od yandırdığına görə öz əzabını ağladı, onun qorxusu heç nə idi, ancaq yalan idi, onun korluğu qürurudur və o, budur.

33. Ey qardaşım! Əgər anlasaydın, sən işarəti işarət olaraq düşünərdin və zənlə zənn edərdin, qəmlə dönüb, narahatlıqla fəna olardın.

34. Qövmün gözəl natiqləri onun qapısı önündə dilsizdirlər, ariflər öyrəndiklərində acizdirlər. O, səcdələrində onlardan daha çox şey öyrənir, varlığa onlardan daha yaxındır, onlardan daha çox gücünü sərf edir, əhdinə daha vəfalıdır, məbuda daha yaxındır.

35. Onlar [mələklər] Adəmə kömək üçün səcdə etdilər, İblis uzunmüddətli müşahidə üçün səcdədən imtina etdi.

36. Onun işi qarışdı, zənni pisləşdi: □Mən ondan xeyirliyəm□, – dedi və pərdə arxasında qaldı. O, torpaq haqqında tərəddüdə düşdü və cəzasını əbədiyyət boyu davam etdirdi.

/2 ∞

VII (*g*)

## TA SİN [İLAHİ] İRADƏ



1. Bu, [ilahi] iradənin təsviridir.[1] Bu, həmin ta sindir. Birinci dairə onun istəyidir, ikinci – onun hikmətidir, üçüncü – qüdrətidir, dördüncü – onun xəbərləri və əzəliyyətidir.

2. İblis dedi: «Əgər birinci dairəyə girsəydim, ikincinin bəlasına düşərdim. Əgər ikinciyə çatsaydım, üçüncünün bəlasına düşərdim. Əgər üçüncüyə daxil olsaydım, dördüncünün bəlasına düşərdim.

3. Elə isə yox, yox, yox, yox və yenə də yox! Mən birincidə qaldım və ikinciyə lənətlənmədim, üçüncüyə keçirilmədən geri döndərildim. Dördüncü məndən haralardadır?

4. Əgər bilsəydim ki, səcdə məni xilas edəcək, onda səcdə edərdim. Lakin bilirdim ki, bu dairənin arxasında da dairələr var. Öz-özümə dedim: «Belə hesab edək ki, mən bu dairədən xilas oldum. Bəs ikincidən necə xilas olacam? Bəs üçüncüdən, dördüncüdən?»

5. Beşinci əlif (üçüncü bənddəki «lə»nin (لا - yox) əlifi nəzərdə tutulur) □O, daim diri olan□[2] (Quran 2/255) Allahdır deməkdir.

/2 ∞

---

[1] Güman etmək olar ki, Həllac bu rəsmi ilə sözügedən iki yayı, onların mənasını və insanın onlara nisbətdəki məqamını təsvir etmişdir.

[2] Bu ayə həmçinin □O, haqq olan□ Allahdır kimi də verilmişdir.

VIII (*h*)

## TA SİN TÖVHİD

1. Bu, □O, daim diri olan□ Allahdır deməkdir.
2. Haqq vahiddir, təkdir, yeganədir, təklənəndir.
3. Vahid və tövhid «Onda» və «Ondan» deməkdir.
4. «Ondan» – Onun təcriddən də təcrid olmasını bildirir.

Onun mənasının surəti belədir: 

5. Tövhid elmi sadə və mücərrəddir. Tövhidin surəti



belədir:

6. Tövhid təkləyənin (yaradılmışın) sifətidir, təklənənin (Allahın) deyil.
7. Əgər desəm «mən» «O»yam, onda O, O olmur. O, «mən»dən, mən deməkdən və mənim tövhidimdən ucadır. O, «mən» deyəndə sənin üçündür, özü üçün deyil.
8. Əgər desəm «tövhid təkləyənə aiddir», tövhid məxluq deyil axı.[1]
9. Əgər desəm tövhid təklənənlədir, onda təkləyən tövhidlə necə əlaqəli olar? (təkləyənin sifəti necə olar?)
10. Əgər desəm «təkləyəndən təklənənə doğru», onda ona (tövhidə) hədd qoymuş olaram.[2]

/2 ∞

---

[1] Yəni Haqq məhdud deyil, lakin hər şeyin son və ya başlanğıc həddidir.

[2] Əgər desəm təkləyən təklənəndir, (tövhidə) hədd qoymuş olaram.

IX (*i*)

## TA SİN TÖVHİD HAQQINDA SİRLƏR[1]

1. Tövhidin sirrinin ta sininin sifəti belədir:



[2]. Ondan (tövhiddən) olan sirlər – qorxudur, ona yönələn – iddiadır, çünki O, verəndir, Ona [bir şey] lazım deyil.

2. Tövhidin incəliyi Onun [yaratdıqlarının] sirləridir. Mən – sirrəm. Ancaq sirdə, könüldə və vicdanlarda Onun «hə»si (ه) yoxdur.[3]

3. Əgər «Ona and olsun!» – desən, onlar «O»durmu? – deyərlər.

4. Rənglər, növlər və işarətlər nöqsanlara [dəlalət edir], aldatmır.[4]

5. □Sanki onlar nizamlı (möhkəm) binadır□ (Quran 61/4). O, həddir. Onun əhədiyyəti həddi istisna etmir. Hədd həddir. Həddin keyfiyyətləri məhduddur, təklənən isə məhdud deyil[5].

6. «Haqq» Haqq deyil, Haqqın məkanıdır.

---

[1] A.Tarjumana bunu «Tövhiddə özünüdərk» kimi tərcümə etmişdir (26).

[2] Əlif – tövhiddir, biri yuxarıda, biri isə aşağıda olan həmzələr (ء) – sirlər, hər iki tərəfdəki aynlar (ع) – varlıqlardır (26).

[3] الله kəlməsində hər hansı bir hərf götürüləndə məna dəyişməz qalır: لله – Allah üçün, له – Onun üçün, ه – O, yəni ه (hə hərfi) Onun mahiyyətinə, Onun məxluqlarında olmayan zatına işarə edən bir hərfdir.

[4] Bunlardan hər biri Zata əlavədir, ikincidir, lakin Onun haqqında doğru məlumat verəndir.

[5] Tövhid – tək olmaq bir təsvir və ifadə olaraq məxluqa xasdır, bir keyfiyyət, sifət olaraq ancaq Allaha aid ola bilər.

7. Tövhid demə, çünki söz və həqiqət xəlq üçün gerçək deyil, Haqq üçün necə gerçək ola bilər?[1]

8. Əgər desəm ki, tövhid Ondan gəlir, Zata iki zat şamil edərəm. Hər nə yaranıbsa, Sənin zatındandır, Zat – zat olmayan zatdır.[2]

9. Desəm ki, O, aşkarlanandan sonra gizləndi, harada gizləndi ki, «hara» yoxdur? Nə «nə», nə «o» onu əhatə edə bilər.

10. Çünki «o» da Onun yaratdığıdır, «hara» da Onun yaratdığıdır.

11. Araz (aksidensiya) cövhərin (substansiyanın) dəstəyi olmadan var olmaz. Cisimdən ayrılmayan cisimsiz olmadığı kimi, ruhdan ayrılmayan da ruhsuz var ola bilməz. Qovuşma (assimilyasiya) ruhanidir.

12. Biz içdə [batində] olana qayıdaq və onu tərkibdən, qovuşmadan, sözdən, parçalardan və yüklərdən təcrid edək.

13. [Növbəti sxemdə] birinci [dairə] – Onun əməlləridir, ikinci – hər iki dünyanın dairələrinin qanunlarıdır.

14. Nöqtə tövhidin mənasıdır, ancaq tövhidin özü deyil. Əgər deyilsə, o ayrılan dairə nədir?

/2 ∞

---

[1] Yəni tövhid bir söz kimi mahiyyəti tam olaraq əks etdirmir.

[2] Allahın Zatının hər bir şeyin fövqündə olmasına işarədir.

X (*c*)

## TA SİN TƏNZİH (AYRILMA)



1. Bu, həmin dairəyə bir misaldır və onun təsviridir.

2. Bu, bütün dini qrup, dəstə, nəzarət və təriqət əhlinin dediklərinin hamısıdır.

3. Birinci (yuxarıdakı dairələr nəzərdə tutulur) – onun [tövhidin] zahiridir. İkinci – onun batinidir, üçüncü – onun işarətidir.

4. Bu, bütün yaradılanların, yaradılışın, qütbün, yolların, gecə söhbətlərinin, inkarların, yanılmaların, nəfəs qaralmalarının hamısıdır.

5. İçlərdə (batinlərdə) dönən, yırğalanan, tərəddüdlü, yıxılan, dolaşan, kinli, yetişən ürəklər var.

6. Bunlar hamısı yaradılanlar, rənglərdir. Haqq bu əfsanədən uzaqdır.

7. Əgər desəm ki, O, «O»dur, bu, tövhid demək deyil.

8. Əgər desəm ki, Haqqın tövhidi doğrudur, deyərlər: «Düzdür!»

9. Əgər desəm ki, «zamansızdır», deyərlər ki, «tövhidin mənası təşbihdir (bənzətmədir)?» Haqqın vəsfi üçün bənzətmə layiq deyil. Tövhid nə Haqqa nisbət edilər, nə xəlqə, çünki ədəd məhduddur. Əgər tövhiddə artım varsa, hadisədir, hadisə isə Haq-

qın sifəti deyil. Zat vahiddir. Haqq və batil Zatın mahiyyətindən gəlmir.

10. Əgər desəm ki, «tövhid kəlamdır», kəlam – zatın sifətidir.

11. Əgər desəm ki, «bu, Onun vahid olmaq istəyidir», iradə – zati sifətdir, istək – xəlqi sifətdir.[1]

12. Əgər desəm ki, «Allah – zatın tövhididir», zat tövhid olur.

13. Əgər desəm ki, «o (tövhid), zat deyil», mən onu məxluq etmiş oluram.

14. Əgər desəm ki, «ad və adlanan vahiddir», bəs onda tövhidin mənası nədir?

15. Əgər desəm ki, «Allah Allahdır», onda Allah mahiyyətin mahiyyətidir, o isə odur.

16. Bu, bütün səbəbləri inkar edən ta sinin məkanıdır. Bu ləm əliflə (لا – yox, inkar) olan dairələr onun (tövhidin) surətidir.



17. Birinci – əzəliyyətdir, ikinci – məfhumlardır, üçüncü – cəhətlərdir, dördüncü – məlumatlardır.

18. Zat sifətsiz deyil.

19. Birinci [arayan adam] «elm»in qapısından girdi və görmədi, ikinci «saflıq» qapısından girdi və görmədi, üçüncü «fəhm»in qapısından girdi və görmədi, dördüncü «məna»nın qapısından girdi və görmədi. O nə zatla, nə şeylə, nə sözlə, nə mahiyyətlədir.

20. Qüdrət öz qüdsiyyəti ilə mə‘rifət əhlinin yolunu və kəşf əhlinin idrakını saflaşdıran Allahındır.

---

[1] Yəni fikir dolaşıqlığı yaranır.

21. Bu, isbatı inkar edən ta sinin məkanıdır və bu, onun surətidir:



22. Birinci formul avamların düşüncəsidir, ikinci xüsusilərin düşüncəsidir və dairə Haqqın elmidir. Dairənin ortasındakı ləm əliflər bütün səbəblərin inkarıdır. İki «ha» (ح) tövhidi iki tərəfindən saxlayan sütun kimidir və onun (düşüncənin) fövqündə baş verən hadisələrdir.

23. Avamların düşüncəsi zənn dənizində üzür, seçilmişlərin düşüncəsi isə fəhmlər dənizində. Hər iki dəniz quruyur, onlara gedən yollar köhnəlir. Hər iki fikir itir. Hər iki sütun məhv olur. Hər iki varlıq yox olur. Dəlillər lazımsızlaşır, irfan (batini bilik) dağılır.

24. O, hadisələrdən təcrid olunaraq rəhmanın ilahiyyətinin yanında dayandı. Sübhan olsun o Tanrıya ki, bütün dəlillərdən uzaqdır, Onun sübutu qüvvətlidir, səltənəti qüdrətlidir, ucadır, əzəmətlidir, uludur. O, bir ədədi ilə sayılmır. Bir deyil, çünki «bir» məhdud və sayılandır. Yolunun başlanğıcı və sonu bilinmir. Bənzərsiz varlıqdır, varlığın fövqündədir. Ondan başqa Onu [həqiqətən] tanıyan yoxdur, əzəmətli və şərəflidir, ruhların və bədənlərin yaradıcısıdır.

/2 ∞

XI (*k*)

## MƏ‘RİFƏT BAĞÇASI

1. Alim, qəribə ustad Əbu Umarə Hüseyn b. Mənsur Həllac (Allah onun ruhunu müqəddəs etsin) deyir:

Məchulun içindəki mə‘rifət gizlidir, mə‘rifətin içindəki məchul da gizlidir. Məchulluq arifin sifətidir [və zinətidir, cəhalət onun surətidir. Mə‘rifətin surəti idrakdan uzaqdır, gizlidir və geri dönəndir. Onu necə tanıyar ki, necəsi yoxdur], onu harada tanıyar ki, «hara» yoxdur, ona necə çatar ki, [vasitə yoxdur], necə ayrılsın ki, [ara yoxdur]. Mə‘rifət heç bir məhdud üçün tam deyil, o hesablanmır, tükənmir, bitmir.

2. Mə‘rifət üstün fövqündədir, müddətin fövqündədir, məqsədin fövqündədir, sirlərin fövqündədir, xəbərlərin fövqündədir, idrakın fövqündədir. Bunların hamısı əvvəl yox idilər, sonra var oldular. Yalnız məkanda meydana gəldilər. O, cəhətlərdən (səbəb və vasitələrdən) qabaq olub, hələ də var. Onu cəhətlər necə ehtiva edə bilər, sonlar onu necə əhatə edə bilər?

3. Kim desə ki, «özümü itirməklə Onu tanıdım», itmiş var olanı necə tanıya bilər?

4. Kim desə ki, «öz varlığımla Onu tanıdım», iki əzəli var ola bilməz.

5. Kim desə ki, «Onu cahil olmaqla tanıdım», cəhalət pərdədir, mə‘rifət pərdənin arxasındadır, [deyilənlərdə] bir həqiqət yoxdur.

6. Kim desə ki, «Onu adla tanıdım», ad adlanandan fərqli deyil, O isə məxluq deyil.

7. Kim desə ki, «Onu Onunla tanıdım», iki tanınana işarə edir.

8. Kim desə ki, «Onu sənəti ilə tanıdım», sənətkarsız sənətlə kifayətlənir.

9. Kim desə ki, «Onu tanımağın acizliyi ilə tanıdım», aciz [yerində] dayanandır. Dayanan tanınanı necə dərk edə bilər?

10. Kim desə ki, «mənə özünü tanıtması ilə tanıdım», o, elmə işarə edir, məlum olana qayıdır, məlum olan isə Zatdan uzaqdır[1]. Zatdan fərqlənən Zatı necə dərk edə bilər.

11. Kim desə ki, «Onu özünü tanıtdığı kimi tanıdım», əsər olmadan [yalnız] xəbərlə kifayətlənir[2].

12. Kim desə ki, «Onu iki hədlə tanıdım», Tanınan vahiddir, uzaqlaşmır, hissələrə ayrılmır.

13. Kim desə ki, «Tanınan özünü tanıyır», israr edir ki, arif arada [olan məsafədə] Onunla yüklənir, çünki Tanınan özünü tanımaqda hələ də davam edir.

14. Qəribədir! Bədənində bir tükün necə qara və ya ağ olduğunu bilməyən əşyaları yaradanı necə tanıyar? Konkreti və müfəssəli, əvvəli və sonu, dəyişiklikləri və səbəbləri, həqiqətləri və yolları tanımayan şəxsə əzəli olanın [Allahın] mə‘rifətindən pay düşməz.

15. Onları ad, şəkil və əlamətlərlə pərdələyənə sübhan olsun! O, onları deyim və halla, kamal və camalla əzəli və əbədi olandan pərdələyib. Ürək daxili orqandır, mə‘rifət orada yerləşə bilməz, çünki o, rəbbanidir.

16. Fəhmin uzunluğu və eni var. Saleh əməllərin sünnələri və fərz olanı var. Xəlqin hamısı səma və yerdədir.

17. Mə‘rifətin nə eni var, nə uzunu. Nə səmada yerləşir, nə yerdə. O, sünnələr və fərzlər kimi nə zahirlərdə qərarlaşıb, nə batinlərdə.

18. Kim desə ki, «Onu həqiqətlə tanıdım», öz varlığını Tanınanın varlığından daha böyük etmiş olur, çünki kim bir şeyi həqiqətlə öyrənərsə, tanıyandan sonra tanıdığından daha güclü olur.

---

[1] Həllac təzahürün mahiyyəti tam əks etdirməməsinə işarə edir.

[2] Bunu həqiqət yolunda yalnız nəzəriyyənin kifayət etməməsi kimi də şərh etmək olar.

19. Ey insan! Varlıqda zərrədən kiçiyi yoxdur. Sən onu dərk etmirsən. Zərrəni [onun nə olduğunu] tanımayan ondan daha dəqiq olanı tam həqiqəti ilə necə tanıya bilər? Arif – görəndir, mə‘rifət – əbədi olanladır [Allahladır]. Mə‘rifət ifadə baxımından sabitdir və onda xüsusi bir şey vardır, göz bəbəyi kimi.

20. Bir tərəfdən keçici və məhdud, digər tərəfdən zati elm. Onun (mə‘rifətin - معرفة) «ayn»ı (ع)[1] «mim»ində (م) gizlənib[2], öz huvıyyəsi (mahiyyəti) ilə aralıdır, onun haqqında olan düşüncələr uzaqdır, qarışıqdır, onu istəyən onun rahibidir, onun rahibi ondan ayrılandır. Onun batdığı yer doğulduğu yerdir, doğulduğu yer batdığı yerdir. Ondan üstdə daha alisi yoxdur, ondan altda daha yaxın biri yoxdur.

21. Yaradılanlar haqqında olan mə‘rifət arasıkəsilmədən davam etməsi ilə aşkardır, onun yolları qapalıdır, ona yol yoxdur. Onun mənaları aydındır, onların dəlili yoxdur, onları hisslər dərk etmir, insanların təsvirləri onu əhatə etmir.

22. [Onun sahibi vahiddir], ondan çıxan yolunu azandır, [ona çox bağlanan kül olandır], ona yapışan (ayrılmayan) itirəndir, onun parıltısı kəsilmir, onun zərbəsi (bəlası) azadlıqdır, onun oxları səssizdir, ondan qorxan zahiddir, onun mübaliğəsi onun səbəbləridir.

23. Sanki o [mə‘rifət], onun kimidir[3], sanki o, Onun (Allah) kimidir, sanki O, Onun kimidir. Sanki o, onun kimidir, sanki O, Onun kimidir. Sanki O, onun kimidir, sanki O, Onun kimidir, sanki o, onun kimidir.[4] Onun [mə‘rifətin] yaranışı (onun əslidir və

---

[1] عين hərfin adı olmaqla yanaşı, həmçinin mənbə mənasındadır və burada, güman ki, ikinci nəzərdə tutulmuşdur.

[2] Nəzərə alsaq ki, Həllac bəzən mim hərfi ilə Məhəmməd peyğəmbərə (□) işarə etmişdir, onda belə izah etmək mümkündür ki, bu kəlmələrlə o, mə‘rifətin əsl mənasının məhz ona (□) mənsub olduğunu vurğulamışdır. Eyni zamanda bunu həm də mahiyyətin müəyyən bir zahiri formaya malik olması və məhz bu şəkildə tanınması kimi də şərh etmək olar.

[3] Yəni mə‘rifət bənzərsiz bir şeydir və yalnız özü ilə müqayisə edilə bilər.

[4] Bu özünəməxsus «sillogizmlə» Həllac mə‘rifəti Allahdan gələn bir şey olsa da, Allahla eyni olmadığını, Allahın Allah, mə‘rifətin isə mə‘rifət olduğunu göstərir.

əsli yaradılışıdır, onun sahibləri onunla Onun yaratdıqlarıdır) Onunla Onun üçündür. O, O deyil, nə də O, o deyil (o yoxdur, ancaq O [var]), Ondan başqa O yoxdur.

24. Beləliklə, arif – görəndir, mə‘rifət – əbədi olanladır [Allahladır]. Arif öz irfanı ilədir, çünki o, öz irfanıdır, irfanı da odur. Mə‘rifət isə bunun arxasındadır, Məruf (tanınan, Allah) isə bunun arxasındadır.

25. Hekayət hekayət danışanla qaldı, mə‘rifət – seçilmişlərlə, zəhmət – şəxslərlə, nitq – vəsvəsə əhli ilə, fikir – ümid qırıqlığına uğrayanlarla, qəflət – uzaq qalanlarla.

26. Haqq Haqdır, xəlq xəlqdir, vəssalam.

# *FƏQİRLƏRİN*

# *TAVUSU*

***S.Tusi şəxsiyyəti qədim mənbələrdə.***

Əbu Nəsr Abdullah b. Əli b. Məhəmməd b. Yəhya Sərrac Tusi Nişapuri (? – 378/988) Tus şəhərindən olmuşdur. Onun doğum tarixi haqqında nəzərdən keçirilən mənbələrdə heç bir məlumata rast gəlmədik. Alimin həyatı haqqında materiallar çox azdır. Belə ki, uzun müddət sufizm tarixi kitablarında, görkəmli sufilərin həyatından bəhs edən traktatlarda etibarlı mənbə kimi S.Tusinin «əl-Lümə‘» əsərindən çoxsaylı sitatlar gətirilsə də, həmin əsərlərdə onun özünün şəxsiyyətinə yer ayrılmamışdır.

Tədqiqatımıza görə, ilk dəfə *Əbu Bəkr Kəlabazi* (380/990) «Təərrüf li məzhəbi əhl ət-təsəvvüf» («Təsəvvüf əhlinin məzhəbi haqqında araşdırma») Sərrac Tusinin əsərindən (ola bilsin, söhbətlərindən) iqtibas gətirmişdir [16, s. 145]. Tusinin müasiri olmuş bu şəxsin əsərində onun şəxsiyyətinə yer ayırmaması təbii görünə bilər. «əl-Lümə‘»dən göstərdiyi nümunələr isə Sərracın hələ öz dövründə müəyyən nüfuz sahibi olmasına dəlalət edir.

*Əbu Əbdürrəhman Sülərni* (412/1021) özünün «Tabaqat əs-sufiyyə» («Sufilərin təbəqələri») əsərində 30-a yaxın yerdə Abdullah b. Əli Əbu Nəsr Sərrac Tusidən sitat gətirmişdir, lakin sufilər arasında ona yer ayırmamışdır. Bundan başqa, Süləmi əsərində tez-tez «Tusidən eşitdim» ifadəsini işlədir və bundan belə bir nəticə çıxarmaq mümkündür ki, o, Tusinin şagirdi olmuş, yaxud onun söhbətlərində iştirak etmişdir. Bu faktı türk alimi Nürəddin Şəribə də vurğulayır və Süləminin Sərrac Tusiyə bu «etinasızlığını» qəribə hadisə kimi qiymətləndirir [23, s. IX]. Süləminin «Tabaqat …»ını (Leyden, E.C.Brill, 1960) nəşr etdirən alman alimi Cohannes Pedersen əsərin qaynaqları arasında ilk

növbədə Sərrac Tusinin «əl-Lümə‘» əsərinin adını çəkmişdir. Lakin ola bilsin ki, Süləmi sonralar öz səhvini başqa bir əsərində düzəltmiş və S.Tusi barədə məlumat vermişdir. Belə ki, Zəhəbi «Tarix əl-islam» («İslam tarixi») əsərində S.Tusi haqqında məlumatları Süləminin itmiş hesab edilən «Tarix əs-sufiyyə» («Sufizmin tarixi») kitabına istinadən verir.

Maraqlı faktlardan biri də odur ki, Əbu Əbdürrəhman Süləmi Sərrac Tusinin «əl-Lümə‘» əsərinin «Sufilərin səhvləri» adlı sonuncu bölümünü xırda düzəlişlərlə öz əsəri kimi təqdim etmişdir. Bu fakt A.Arberi, Əbdürrəhman Bədəvi və Əbdülfəttah Əhməd əl-Favi kimi görkəmli tədqiqatçı alimlər tərəfindən vurğulanmışdır [23, s. XVI].

«Risalə»sində səksən üç zahid və sufinin tərcümeyi-halından bəhs edən *Əbu'l-Qasim Əbdülkərim Qüşeyri* (465/1072) də Sərrac Tusini diqqətdən kənar qoymuş və yalnız «əl-Lümə‘»dən sitatlar gətirməklə kifayətlənmişdir. Onu da qeyd etmək lazımdır ki, türk şərqşünası Kamil Yılmaz öz tədqiqatında yazır ki, Əbu əl-Qasim Qüşeyri Sərrac Tusinin adını başqa heç bir yerdə rast gəlmədiyimiz Abdullah b. Əli ət-Teymi nisbəsi ilə xatırladır [23, s. IX], lakin «Risalə» ilə tanışlıqda biz belə bir faktla rastlaşmadıq. Bunu ya Kamil Yılmazın Tusi sözünü yanlış oxuması, yaxud «Risalə»nin bizə məlum olmayan başqa bir nüsxəsindən istifadəsi ilə izah etmək mümkündür.

*Əbu Həsən Əli b. Osman Cüllabi Hücviri* (465/1072) özünün «Kəşf əl-məhcub» («Gizlinin açıqlanması») əsərinin orucluq bəhsində Sərrac Tusinin həyatından bir hadisə nəql edir ki, bu, Tusinin şəxsiyyəti ilə bağlı ilk məlumat hesab edilə bilər. Burada Hücviri onu «Fəqirlərin tavusu» adı ilə məşhur, yüksək məqama çatmış, dərin mə‘rifət və savad sahibi, əhali arasında böyük nüfuz və hörmətə layiq görülmüş bir sufi şeyxi kimi təqdim edir. Yeri gəlmişkən qeyd edək ki, S.Tusinin həyatına dair məlumatlar çox az olduğundan mütəfəkkirin şəxsiyyəti haqqında daha dolğun təsəvvür yaratmaq üçün onun barəsindəki rəvayətləri bütünlüklə verməyi qərara aldıq.

…Rəvayətə görə, Sərrac Tusi Ramazan ayında Bağdada gəlir və Şuniziyyə məscidində ona ayrıca bir hücrə ayırıb dərvişlərin imamlığını ona həvalə edirlər. Bayrama kimi imamlıq edən şeyx bu müddət ərzində gecələr uzunu (təravih namazlarında) Quran oxuyur və beş dəfə onu xətm edir (bitirir). Hər gecə qulluqçu ona bir parça çörək gətirirmiş. Orucluq bitəndən və məscidi tərk edəndən sonra şeyxin döşəkçəsinin altından 30 parça çörək tapırlar [13, s. 465]. Onu da qeyd edək ki, orucluq vaxtı sufilər arasında belə hərəkətə tez-tez rast gəlmək mümkündür və Sərrac Tusi də öz əsərində oxşar hadisəni Əbu Übeyd Busri adlı bir sufi haqqında söyləyir [52, s. 218].

Bundan başqa, Hücviri əsərinin ədəb haqqında söhbət bölümündə də «əl-Lümə‘»nin müəllifi Əbu Nəsrə müraciət edir və onun kitabından nümunə göstərir [13, s. 487-488].

Məhəmməd b. Münəvvərin (VI/XII əsr) farsca Əbu Səid b. Əbu əl-Xeyr haqqındakı «Əsrar ət-tövhid fi maqamat əş-şeyx Əbu Səid» («Şeyx Əbu Səidin məqamlarında tövhidin sirləri») əsərində verilən məlumatlara görə, Sərrac Tusinin müridi şeyx Əbu əl-Fəzl Həsən Saraxs şeyx Əbu Səidin şeyxi olmuşdur. Deməli, Əbu Nəsr Əbu Səidin ustadının ustadı olmuşdur. Kitabda Əbu Səidin özünün tərtib etdiyi silsilə də təqdim edilir: «Məhəmməd peyğəmbər – Hz. Əli (43/661) – Həsən Bəsri (110/728) – Həbib Əcəmi (119/737) – Davud Tai (165/781) – Məruf Kərhi (200/815) – Səri Səqati (257/867) – Cüneyd Bağdadi (297/909) – Mürtəiş Bağdadi (328/939) – Əbu Nəsr Tusi (378/988) – Əbu əl-Fəzl Həsən Saraxs – Əbu Səid b. Əbu əl-Xeyr» [28, s. 10]. Bundan başqa, əsərdə Sərrac Tusinin «Fəqirlərin tavusu» ləqəbi ilə anıldığı, Tusda yaşayıb qəbrinin də orada olduğu deyilir. Bir başqa bölümdə isə Əbu Səid b. Əbu əl-Xeyrin Tusa gedəndə qonaq qaldığı ustad Əbu Əhmədin xanəgahının əslində Əbu Nəsrin məkanı olduğu deyilir [23, s. XI].

Sərrac Tusi haqqında ilk geniş məlumat fars sufi mütəfəkkiri *Fəridəddin Əttarın* (627/1230) «Təzkirat əl-övliya» («Övliyaların xatırlanması») əsərində verilmişdir. Hücvirinin verdiyi

məlumatları təkrarlamaqla bərabər, Fəridəddin Əttar yazır: «O, arif alim, gizli hakim, kübarlar zümrəsinin əmiri, fəqirlər üzüyünün qaşı, zəmanəsinin dahi və dolğun şeyxi, haqq olan imam olmuşdur, zəmanəsində tək olan, təmkinli və «fəqirlərin tavusu»dur. Onun tərif və vəsfi qələm və bəyandan, yaxud ibarə və zamandan daha ucadır. Elmi fənlərdə kamil idi. Təcrübə və əməllərində uca şana sahib idi. Hal, qal (söhbət, kəlam) və təhqiq elmində bir nişanə idi. «əl-Lümə‘» kitabını o yaratmışdır. Şeyx Sərini (Səri Səqatini), Səhli (Səhl Tüstərini) və başqa böyük şeyxləri görmüşdür. Tusdan idi [56, s. 391]. Müəllif Sərrac Tusinin həm də yüksək vəcd sahibi olduğunu bildirir və «Kəşf əl-məhcub»da ədəblə bağlı hissə daha geniş rəvayət şəklində nəql edilir: «Bir qış gecəsi ocaq ətrafında oturub mə‘rifətdən söhbət gedən zaman S.Tusi vəcd halına gəlir və üzünü qarşısındakı ocağın düz ortasına qoyaraq atəşin içində Allah-Təalaya səcdə edir. Müridləri onun üzünün yanmasından qorxub təlaşa düşürlər. Lakin səcdədən qalxan Şeyxin bircə tükünün belə qarsalanmadığını görüb çox təəccüb edirlər. Şeyx onlara deyir: «O kəs ki, bu dərgahda üzünün suyunu töküb, atəş onun üzünü yandıra bilməz. Eşq elə bir atəşdir ki, o, aşiqlərin köksündə və ürəyindədir. O, Allahdan savayı hər şeyi yandırar, külünü qırağa atar. İbn Salimdən eşitdim ki, niyyət Allahadır, Allahdandır və Allah üçündür. Namazda baş verən müsibətlər də niyyətdəndir. Niyyət təkcə Allaha olmasa, onu müvazinə etmək olmaz. Ya Allah üçün olan niyyət, ya Allaha olan niyyət. Xalq ədəb və əməllər baxımından üç hissəyə bölünür: biri dünya əhlidir ki, onlar üçün ədəb düzgün nitq, bəlağət, elm və qaydaları öyrənməkdir. Onun səmərəsi idarəetmə və şeirdir. Digər bir qismi din əhlidir ki, onlara görə, ədəb ürək paklığı, sirr qoruma, bədənin tərbiyəsi, həddi qoruyub şəhvəti tərk etmə, nəfsin itaətidir. Son qisim isə xüsusi əhldir ki, onlar üçün ədəb ömrün hədər keçməməsi, əhdə vəfa, iltifat, arzuları azaltmaq, Allahın tələb etdiyi və Onun hüzurunda, Ona yaxınlıq zamanı olan yaxşı ədəbi yerinə yetirməkdir» [56, s. 391-392].

Azərbaycanın görkəmli sufi mütəfəkkiri, sufizm tarixində həm özünün parlaq şəxsiyyəti, həm də «Avarif əl-məarif» kimi

sanballı traktatı ilə əhəmiyyətli yer tutan *Əbu Həfs Sührəvərdinin* də əsərinin başlıca mənbələrindən biri «əl-Lümə‘» hesab edilə bilər. O, səma‘, sufilərin ibadətlərində və onların ədəblərinə dair digər bölümlərdə həm Sərrac Tusinin özünün kəlamlarından, həm də əsərindən istifadə etmiş, sitatlar gətirmişdir [50, s. 282, 308, 321 və s.].

*Şəmsəddin Zəhəbi* (748/1347) həm «Tarix əl-islam» («İslam tarixi»), həm də «əl-İbər fi xəbər mən qabər» («Qəbirdəkilərin xəbərlərinə dair ibarələr») əsərlərində Əbu Nəsrdən danışır. Zəhəbi «Tarix əl-islam»da yazır: «Sufi Abdullah b. Əli b. Məhəmməd b. Yəhya Əbu Nəsr Sərrac Tusi təsəvvüf haqqında «əl-Lümə‘» kitabının müəllifidir. O, Cəfər Xuldini, Əbu Bəkr Məhəmməd b. Davud Duqqini və Əhməd b. Məhəmməd Saihini (Nikolson bunun İbn Salim olduğunu da istisna etmir, çünki əsərdə bu adda sufidən bəhs edilmir [30, s. 30]) dinləmişdir. Əbu Səid b. Əli Nəqqaş və Əbdürrəhman b. Məhəmməd Sərrac və başqaları onun haqqında danışmışlar. Əbu Əbdürrəhman Süləmi demişdir: «Əbu Nəsr zahid ailəsindən olmuşdur. Fütüvvət və sufi ədəbiyyatı üzrə ərazisinin qabaqcıllarından idi. Şəriət elminə bağlı bir sufi idi. Təsəvvüf şeyxlərinin günümüzdəki nüfuzlarından biri idi. Rəcəb (378, miladi oktyabr/noyabr 988-ci ildə) ayında vəfat etmişdir. Atası səcdə vaxtı ölmüşdür» [46, s. 625-626; 30, s. 30].

Sərrac Tusiyə öz əsərində geniş yer ayıran mütəfəkkirlərdən biri də *Əbdürrəhman Cami* (898/1492) olmuşdur. Cami fars mənbələrindəki məlumatları «Nəfəhət əl-üns» («Ünsiyyətin yelləri») əsərində təkrarlayır və əlavə olaraq yazır: «Sərrac Tusi «əl-Lümə‘»nin sahibidir, çoxlu əsərləri vardır. …elmi təriqətdə və elmi həqiqətdə kəlamları vardır. Məskəni Tus olmuş, qəbri də oradadır. Əbu Məhəmməd Mürtəişin müridi idi, Səri Səqatini və Səhl Tüstərini görmüşdür» [12, s. 324].

Yeri gəlmişkən, həm Fəridəddin Əttarın, həm də Əbdürrəhman Caminin Sərrac Tusinin Səri Səqatini və Səhl Tüstərini görməsi haqqında verdikləri məlumatları R.Nikolson yanlış hesab edir. «Onun Əbu Məhəmməd Mürtəiş Nişapurinin

(328/939) müridi olması faktı da əsərdə göstərilməmişdir. Caminin yazdıqlarına görə, Sərrac Tusinin başqa əsərləri, yaxud «əl-Lümə‘»yə yazdığı əlavələri olmuş, lakin itib-batmış, dövrümüzə gəlib çatmamışdır. Güman ki, bu adlar həmin əlavələrdə verilmişdir» [30, s. IV].

Əbu Fəlah Əbdülhayy b. əl-İmad əl-Əkəri Hənbəlinin (902/1496) «Şəzərat əz-zəhəb» («Qızıl dənələri») kitabında Zəhəbinin Səxavidən söylədiyi bir rəvayəti təkrarlamışdır: «Səxavi söyləyir ki, o (Tusi), sünnə təriqətində idi. Mən Əbu Abdullah Rüzbari ilə çıxdım və bir əlində sur (şeypur) olan bir rahiblə rastlaşdıq. Biz onun hücrəsinə yaxınlaşdıq və soruşduq: «Səni burada həbs edən nədir?» Dedi: «Məni əsir edən insanların mənə «Ey rahib!» deməsinin şirinliyidir». O, rəcəb ayında vəfat etdi» [45, c. 3, s. 91].

Göründüyü kimi, Sərrac Tusi haqqında məlumatlar təkrarlanmış, bəzi mənbələr isə onun adını, vəfat ilini, əsərinin adını çəkməklə kifayətlənmişlər. Bu cür qısa məlumat verən kitablardan *Xeyr əd-Din Ziriklinin* «əl-Əlam qamusu təracim…» («Məşhur adamların tərcümeyi-hallarının ensiklopediyası») [49, c. 4, s. 118], *Səlahəddin Səfədinin* (768/1366) «əl-Vafi bi əl-vəfəyat» («Vəfatlar haqqında geniş məlumat»), *Əbu Məhəmməd Abdullah Yafiinin* (768/1366) «Mirət əl-cinan» («Cənnətin güzgüsü»), *Əbu əl-Məhasinin* «Nücum», («Ulduzlar»), *Dara Şikuhun* «Səfinət əl-övliya» («Övliyaların gəmisi»), *Katib Çələbinin* (1067/1656) «Kəşf əz-zünun» («Zənlərin açıqlanması») [43, c. 2, s. 362], *Ömər Rza Kəhalənin* «Mucəm əl-arifin» («Ariflərin ensiklopediyası») [54, c. 2, s. 261], *Bağdadlı İsmail Paşanın* (1339/1920) «Hədiyyət əl-arifin» («Ariflərin hədiyyəsi») və «İzah əl-məknun» («Gizlinin izahı») əsərlərini göstərmək olar. Maraqlı faktlardan biri də budur ki, Əbu Məhəmməd Abdullah Yafii Sərrac Tusinin əsərinin adını «Kitab əl-milh» kimi verib. Bu məlumatı sonralar İsmail Paşa da təkrarlamışdır. Lakin heç bir başqa mənbədə Tusinin bu adda başqa bir əsərinin olmasına rast gəlmədik. Ola bilsin, bu, «əl-Lümə‘» kəlməsinin təhrif olunmuş formasıdır [23, s. XIII].

Bundan başqa, K. Brokkelmanın «Ərəb ədəbiyyatı tarixi»ndə də S.Tusinin özünə və əsərinə dair qısa məlumat verilmiş, onun adını çəkmiş mənbələrin siyahısı təqdim edilmişdir [31, c. 1, s. 359; c. 3, s. 755; s. 950].

Diqqət çəkən faktlardan biri də Sərrac Tusinin vəfatı ilə bağlıdır. Belə ki, Əbu əl-Məhasin «Nücum»da onun Nişapurda dua edərkən [30, s. IV], başqa mənbələr isə onun Tusda hicri 378-ci ilin (miladi 988-ci il oktyabr/noyabr) rəcəb ayında öldüyünü bildirir. Həm Əttarın, həm Caminin kitabında göstərilir ki, «rəvayətə görə, Sərrac Tusi öləndə vəsiyyət edir: şəhərdə ölən hər kəsin cənazəsini mənim qəbrimin önündə tutandan sonra dəfn etsəniz, onun bütün günahları bağışlanar. Deyilənə görə, Tus əhli uzun müddət bu vəsiyyətin hökmünü həyata keçirmişdir [56, s. 391; 12, s. 324].

***«əl-Lümə‘»ni tədqiq edən əsərlər*.**

Mənbələrdən belə aydın olur ki, Sərrac Tusi elmində şəriətə istinad etmiş, mistik teologiyanı dərindən öyrənmiş sufi şeyxi və sufilər tərəfindən onların doktrinlərinin nüfuzlu şərhçisi kimi qəbul edilmişdir. Lakin əsər tədqiqatçıların nəzərini yalnız XX əsrin əvvəllərində cəlb etmişdir və ilk dəfə 1914-cü ildə ingilis şərqşünası *Reynold Nikolson* əsərin həm ərəb, həm də ixtisarla ingilis dilinə tərcüməsini nəşr etdirmişdir. Alim kitabın girişində əsər və müəllifi haqqında geniş məlumat verərək onun sufizm tarixində rolunu yüksək qiymətləndirmişdir, onu «həm tarixi, həm elmi mənbə, həm də zövqverici bir kitab» [30, s. IV] adlandırmışdır. O yazır: «Bu, sufizm tarixində ən uca və sadiq məktəbdir. «əl-Lümə‘» kitabında hər cümlə bir məna daşıyır» [30, s. IV]. Sufizm tarixinin sufi mütəfəkkirlərin öz əsərlərindən öyrənilməsinin sufizmin əsl mahiyyətinin anlaşılmasında nə qədər əhəmiyyətli rol oynamasını göstərərək yazır: «Kaş onun çağında yaşayıb, addımlarını, hal və söylədiklərini izləyib elm aləminə dalaydım. Mənə onun çağında yaşamaq fürsəti verilsəydi, sadəcə onu tanıtmaqla kifayətlənməzdim, and olsun ki, bu uca imamın həyatındakı pərdələri qaldırardım, hətta, bəlkə də, yamaqlı əba

geyinən o səmimiyyət sahibini, zahid sufiləri tanıtmaq üçün ali bir məktəb də açardım» [30, s. IV].

Əsəri tədqiq edən şərqşünas onu da bildirmişdir ki, əsərin iki əlyazması mövcuddur və hazırda nəşr olunmuş nüsxəsində beş bölmə çatmır. 1947-ci ildə digər bir Avropa şərqşünası A.Arberi «Əbu Nəsr Sərracın «əl-Lümə» kitabından səhifələr» (London, 1947) adlı kitabında Nikolson nəşrində əskik olan hissələri onun digər nüsxəsi (Bankipore, 825) ilə tamamlamışdır. Arberinin bildirdiyinə görə, bu nüsxə Nikolsonun göstərdiyi əlyazmalarından həm daha köhnə (483/1090 tarixli), həm daha oxunaqlı xətt ilə yazılmışdır. Kıtabda o, əsər və müəllifi haqqında da müfəssəl məlumat verir (87, s. XIII). A.Arberi Sərrac Tusinin şəxsiyyətinə və əsərinə özünün başqa tədqiqat əsərlərində də müraciət etmişdir. Şərqşünas yazır: «Sufizm haqqında bızə gəlib çatan ən qədim və bir çox məsələlərdə ən qiymətli məlumat verən Əbu Nəsr Sərracın (378/988) «əl-Lümə‘» kitabıdır. Xoşbəxtlikdən əlimizdə gözəl nəşri və ingilis dilində qısa tərcüməsi olan bu nəhəng və əsaslı kitab xaraktercə İbn Ə‘rabinin və Xuldinin bioqrafik yazılarından fərqlənir. O, ozünün strukturu, sufizmin doktrin və təlimlərinin təsvir və analiz etmə xüsusiyyətinə görə teoloji traktatlara daha çox oxşayır» [24, s. 67].

Şərqdə Sərrac Tusi və əsəri ilk dəfə Misir alimləri *Əbdülhəlim Mahmud* və *Tahə Əbdülbaqı Sürur* tərəfindən tədqiq edilmiş və 1960-cı ildə bu əsər müəllif və əsər haqqında qısa məlumatla, əsərdə istifadə olunmuş hədislərin mənbələrinin siyahısı və sufilərin adlarının indeksi ilə bərabər nəşr edilmişdir (Qahirə, 1960). Müəlliflər əsəri hansı əlyazma əsasında tərtib etdiklərini göstərmədiklərinə baxmayaraq, bu, əsərin ilk dəfə tam nəşri hesab edilə bilər və elə həmin ildə o, xırda düzəlişlərlə Bagdadda da təkrar nəşr olunmuşdur. Yeri gəlmişkən, bizim tədqiqatımız da bu nəşr əsasında aparılmışdır.

1990-cı ildə alman şərqşünası Riçard Qramliç (Richard Gramlich) «Schlaglich uber das Sufitum, the Kitab al-Luma» adı ilə bir təbqiqat işi yazmış və əsərin almanca tərcüməsini nəşr etmişdir (Ştutqart, 1990) [23, s. XIV].

1994-cü ildə isə «əl-Lümə‘» əsərini *Pir Məhəmməd Həsən* urdu dilinə tərcümə edib nəşr etdirmişdir (Pakistan, 1994) [23, s. XIV].

Türk dilində ilk məlumatı 1993-cü ildə *Əhməd Sübhi Firat* «İslami əbədiyyat» jurnalında «Təsəvvüf ədəbiyyatında bir qaynaq – bir əsər. «əl-Lümə‘ fi ət-təsəvvüf» məqaləsində vermişdir. 1996-cı ildə isə professor *Kamil Yılmaz* əsəri türk dilinə tərcümə edib «Təsəvvüflə əlaqəli sorğular» adlı böyük bir əlavə ilə nəşr etmişdir [23].

Böyük həcmli tədqiqat işlərindən əlavə, XX əsrdə S.Tusi və əsəri haqqında məqalələr dərc olunmuş, ona elmi ensiklopediyalarda yer ayrılmışdır. Belə ki, 1982-ci ildə Əbdülkərim Zühur «Dəməşqdə çıxan ərəb dilində jurnal» («Məcəllə əl-lüğəti-ərəbiyyə bi-diməşq») toplusunda (Dəməşq, 1982, cild 57, cüz 1-2, s. 35-91) «Əbu Nəsr Sərrac və kitabu əl-Lümə» adlı məqalədə Sərracı və əsərini bütün klassik və çağdaş qaynaqlar əsasında müqayisəli təhlillə vermişdir [23, s. XIV].

Bundan başqa, «İslam mədəniyyəti ensiklopediyası»nda («Mövsuat əl-hədəratı əl-islamiyyə») (Əmman, 1993) Əbdülhəmid Mədkurun «Əbu Nəsr Sərrac Sufi», «İslam ensiklopediyası»nda (The Encyclopaedia of Islam. Leiden. 1995. IX) R.Lorinin «əs-Sərrac» adlı məqalələrində də Sərrac Tusi haqqında məlumat verilmişdir [23, s. XIV].

Qeyd etmək lazımdır ki, əsrin əvvəllərindən başlamış sufizm problemi haqqında hər bir sanballı tədqiqat işində Sərrac Tusinin və onun əsərinin adı çəkilir. Məsələn, M.A.Cabiri «Arap islam kültürünün akıl yapısı» əsərində yazır: «Sərrac da çağdaşı Kəlabazi kimi, təsəvvüfün tarixini yazan, hətta təsəvvüfün tarixi inkişafının sünnə xarakterini saxlayacaq tərzdə yeniləyən ilk sufilərdəndir» [11, s. 379]. F.Rouzentalın «Biliyin təntənəsi» əsərində «Bilik – nurdur» bölməsində sufizmdə qnoseoloji məsələlərin açıqlanmasında ən çox istinad olunan «əl-Lümə‘» kitabıdır. Rouzental S.Tusinin digər mənbələrlə (məsələn,

Qüşeyri) müqayisədə az şöhrət tapmasını materialların sistemsiz təqdim edilməsində görür [39, s. 182].

Bu cür ədəbiyyatların və onlardan sitatların sayını çox uzatmaq olar. Ancaq, zənnimizcə, bu qısa məlumat da Sərrac Tusinin tədqiqat əsərlərində hansı yer tutduğunu yetərincə əks etdirir.

Azərbaycanda da bu əsər diqqətdən kənar qalmamış və etibarlı mənbə kimi ona istinad edilmişdir. Məsələn, *Z.Quluzadə* özünün «Qasimi Ənvarın dünyagörüşü» kitabında yazır: «Sufizmin erkən nəzəriyyəçilərindən biri Sərrac (988) olmuşdur. O, «əl-Lümə‘» traktatında həqiqi sufi alimlər və içində sufizmdən ciddi və qiymətli heç nə olmayan 1-2 kitab yazıb özlərini sufi hesab edən cahil yalançı sufilər arasında fərqdən yazmışdır» [35, s. 34].

S.Rzaquluzadə və Z.Məmmədov da öz tədqiqatlarında Sərrac Tusinin əsərinə bir neçə dəfə müraciət etmişlər [7, s. 120; 38, s. 34].

Nəhayət, Sərrac Tusinin «əl-Lümə‘» əsəri ayrıca tədqiqat obyekti olaraq tərəfimizdən geniş şəkildə araşdırılmış və bəzi hissələrinin tərcüməsi ilə bərabər, 2003-cü ildə «Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «əl-Lümə‘» əsəri» adı altında monoqrafiya kimi nəşr edilmişdir.

***«əl-Lümə‘»nin sufi ədəbiyyatında yeri və rolu.***

Təsəvvüf tarixində əhəmiyyətli rol oynamış Bağdad sufi məktəbində X əsrin sonunda Əbu Nəsr Sərrac Tusi Nişapuri yeni bir ənənənin başlanğıcını qoydu. Belə ki, yalnız sufi prinsipləri yazıb şəhr etməklə kifayətlənən bu məktəb onun əsəri ilə sufizmə dair kitabları, risalələri izah etməyə, sufi mütəfəkkirlərin fikir və müddəalarını gələcək nəsillərə çatdırmaq üçün toplayıb ümumi traktat halına salmağa başladı [52, s. 6]. Məktəbin bu şərəfli ənənəsi uzun müddət davam etmiş və nəticədə ilk sufi mütəfəkkirlərin əlyazmaları, kitabları, məktubları, şeirləri, aforizmləri müasir dövrə qədər qiymətli miras kimi çatdırılmışdır.

Bu məktəbin ilk dəyərli bəhrəsi Əbu Nəsr Sərrac Tusinin «əl-Lümə‘» əsəridir. Misir alimləri onu «haqlı olaraq sufi

müəlliflərin ən böyüyü, istisnasız olaraq özündən sonrakıların ustadı» [52, s. 7] adlandırmışlar.

Tusidən sonra bu ənənə Əbu Bəkr Kəlabazi, Əbu Talib Məkki, Əbu Əbdürrəhman Süləmi, Əbu Həsən Əli Hücviri, Əbu'l-Qasim Qüşeyri və s. sufi mütəfəkkirlər tərəfindən davam etdirilmişdir. R.Nikolson yazır: «Elə sufi qanunları var ki, onları ancaq sufilərin özləri hərtərəfli izah edə bilərlər» [30, s. XIX]. Buna görə də sufizmin həm zahirini, həm batinini olduğu kimi çatdırmağı bacarmış bu müəlliflərin əsərləri sufizm tədqiqatçıları üçün əvəzedilməz mənbə sayıla bilər.

***IX-X əsrlərdə yazıb-yaratmış sufi mütəfəkkirlər və əsərləri.***

*Haris b. Əsəd Mühasibi* (243/837) dini şüur, ruhun ucalması haqqında 30-a yaxın irili-xırdalı əsər yazmışdır.* Onlardan «Riayə li hüquqi-l-lah» («Allah hüquqlarına riayət»), «Kitab ət-təvəhhüm» («Təxəyyül kitabı»), «Kitab əl-vəsayə» («Vəsiyyətlər kitabı») və b. əsərlərinin adını çəkmək mümkündür. Onun mötəzililərin nəzəriyyə və görüşlərini tənqid edən əsərləri də olmuş, lakin çoxu itib-batmışdır [10, s. 24].

*Səhl b. Abdullah Tüstəri* (283/896) nəfs və şəhvət məsələlərini ilk dəfə tədqiq edən sufidir. O həmçinin təvəkkül və vəlilik məsələlərinə də toxunmuşdur. Onun dövrümüzə qədər çatan «Təfsir əl-Quran əl-azım» [15, s. 182] («Quranın təfsiri») adlı əsəri Quranın ən qədim sufi təfsirlərindən hesab edilir. Cüneyd Bağdadi onun «Misak» («Əhd») adlı risaləsinin olduğunu da bildirir [48, s. 43].

*Hakim Tirmizinin* (285/898) vəlilik (vəlayət) məsələlərinə dair «Xətm əl-vəlayə» («Vəlayətin sonu») [9, s. 94; 15, s. 182], «ən-Nəhc» («Aydın yol»), «Nəvadir əl-üsul» («Üsulun

* Xətib Bağdadi onun əsərlərinin sayının 200-dən çox olduğunu bildirir [81, s. 14; 92, c. 8, s. 211]. Biz yalnız əldə olan, yaxud ədəbiyyatlarda adları çəkilən əsərlərin sayını göstərmişik.

nadirləri»), «Bəyən ədəb əl-müridin» («Müridlərin ədəblərinin bəyanı») [13, s. 244] və s. əsərləri olmuşdur.

Cüneydin yaxın dostu *Əbu Hüseyn Nuri* (295/907) «Məqamat əl-qulub» «(Qəlblərin məqamları») [15, s. 183] adlı əsərində comərdlik və əliaçıqlıq məsələlərini açıqlamışdır.

*Əbu Fəvaris Şah b. Şüca Kirmaninin* (IX əsrin sonu) təsəvvüfə dair məşhur risalələri olmuşdur. Bunlardan «Mirət əl-hükəma»nın («Hakimlərin güzgüsü») **[13**, s. 240] adı məlumdur.

*Əbu'l-Qasim Cüneyd Bağdadinin* (298/910) əsərlərinin əksəriyyəti dövrümüzə gəlib çatmasa da, mənbələrdən onun əsərlərinin adı və bəzilərinin bir qismi müxtəlif kitablarda öz əksini tapmışdır. Mənbələrdə onun «Münacat», «Kitab əmsal əl-Quran» («Quran misalları (hikmətli sözləri) kitabı»), «Səbir əl-ənbiya» («Nəbilərin səbri») və s. (cəmi beş əsər) əsərlərinin olması barədə məlumat vardır. Bundan başqa, onun sufi yoldaşlarına yazdığı bir neçə məktubu da aşkar edilmişdir. Bunlardan məlum olur ki, Cüneydin əsərlərinin mövzusu fəna-bəqa, tövhid, mə'rifət, ifratçılıq kimi məsələlər olmuşdur.

*Əbu Məhəmməd Rüveym b. Əhməd Bağdadinin* (303/915) ədəbiyyatlarda səma' haqqında əsərləri olduğu bildirilir və onlardan «Ğələt əl-vacidin» («Vəcdə gələnlərin səhvi») [13, s. 237] kitabının adı xüsusi ilə çəkilir.

*Əbu Səid b. Ə'rabinin* (341/952) mənbələrdə müxtəlif sufi məsələlərini işıqlandıran on bir əsərinin adı məlumdur. Onun «Kitab tabaqat ən-nussak» («Zahidlərin təbəqələrinin kitabı») adlı kitabı isə sufizm tarixini əks etdirməyə cəhd göstərən ilk əsər hesab edilə bilər.*

Bu qəbildən olan *Əbu Bəkr Məhəmməd b. Davud Zahid Duqqinin* (342/953) zahidlərin həyatını, hallarını əks etdirən «Əxlaq əs-sufiyyə» («Sufi xəbərlər»), *İbn Küteybənin* «Məarif və uyun əl-əxbər» («Xəbərlərin mə'rifət və mənbələri»), *Əmr b. Bəhr Cahizin* «əl-Bəyan va ət-təbyin» («Bəyan və açıqlama»), Nüveyrinin «Nihayət əl-irəb» («Ləyaqətlilərin sonu») və

---

* Bu barədə daha ətraflı bax əsərlərin müqayisə bölümündə.

dövrünün çox hörmətli və sayılan kitablarından olan *Cəfər Xuldinin* (348/959) (Hekayət əl-övliya) («Övliyaların hekayətləri») adlı əsərlərini də göstərmək olar [22, s. 8].

Onu da əlavə edək ki, sufi şeyxlərinin çoxu şeir yazmış və onların şeir divanlarından günümüzə qədər saxlananlar var. Bunlardan Hüseyn b. Mənsur Həllacın, Əbu Bəkr Şiblinin divanlarını göstərmək olar. L.Massinyonun XX əsrin əvvəllərində tərtib və nəşr etdirdiyi «Əxbar əl-Həllac» («Həllacın xəbərləri») və Həllacın öz əsəri hesab edilən «Kitab ət-təvasin» («Təvasin kitabı») kitabları da o dövrün qiymətli incilərindəndir.

Təəssüflə qeyd etmək lazımdır ki, bir çox əsərlərin mənbələrdə ancaq adı, yaxud əsərlərdən kiçik parçalar qalmışdır. Lakin onlar da sufizmin tarixi mahiyyətinin açıqlanmasında çox dəyərli və əhəmiyyətli rol oynayırlar.

Göstərilən adlar və kitablar təkcə Bağdad sufi məktəbinin nümayəndələrinə məxsusdur. Digər məktəblərdən də bu cür nümunələr göstərmək mümkündür. Bütün bu əsərlər sufizmin sistemli təməl nəzəriyyəsinin yaranmasına xidmət edirdi və hər bir mütəfəkkir bu əzəmətli «tikili»də öz «kərpicini, daşını» qoyurdu. Bu dövrdə sufizmin müxtəlif prinsip və müddəaları hər hansı bir görkəmli mütəfəkkir tərəfindən işlənib şərh edilirdi. Beləliklə, «IX-X əsrin sonunda sufizmin ümumi cəhətlərini sxematik təyin edərək (tədqiqat əsərləri və həmin dövr sufilərinin kəlamları əsasında – S.R.) belə qənaətə gəlmək olar ki, bu dövr təkcə sufi zahidliyinin əhəmiyyətli dərəcədə yayılması yox, həm də sufizmin nəzəriyyəsinin formalaşması dövrüdür» [38, s. 21].

***«əl-Lümə‘»nin özündən əvvəl yazılmış bəzi əsərlərlə müqayisəsi.***

اللمع – sözünün lüğətdə bir neçə mənası var ki, onlardan hər biri yerinə görə uyğun gələ bilər. Əvvəla o, اللمعة – (əl-lum‘a) sözünün cəm forması kimi «şeydə mövcud olan rənglərdən gizli bir rəng» deməkdir. İkincisi, اللمعة – (əl-ləm‘a) sözünün cəm forması kimi «insana yaşayışı üçün kifayət edəcək şey», eyni

zamanda «insanlardan bir qrup» [55, s. 734] deməkdir. Bundan başqa, təsəvvüf ədəbiyyatlarında tez-tez eyni kökdən olan اللوامع – (əl-ləvami‘) termini işlənir. Tərcümədə «parıltılar», «işartılar» və s. mənasında olan bu söz sufinin qəlbinə ani olaraq Allah tərəfindən gələn düşüncəni, hissi ifadə edir. Əsərin məzmunu baxımından bu mənalardan hər birini ona aid etmək mümkün olsa da, biz üstünlüyü sonuncuya veririk.

Mütəfəkkir öz əsərində sələflərinin dediyi və yazdıqlarını əhatə etməklə bərabər, müasirləri arasında baş verən elmi mübahisə və söhbətlərdən ümumi bir nəticə kimi çıxartdığı nəzəriyyə və düşüncələri əks etdirir. Sərrac Tusinin öz düşüncələrinə çox az yer ayırmasına baxmayaraq, R.Nikolson onun bu təvazökarlığını məqbul hesab etmişdir: «Bu, onun topladığı sənədlərin, materialların qiymətini daha da artırır. Onlar islam mistisizmini, ideyalarını və onun ilkin dövrdəki kritik vaxtının metodlarını çılpaqlığı ilə göstərir» [30, s. VIII].

«əl-Lümə‘»nin əhəmiyyətini özündən əvvəl yazılmış əsərlərlə müqayisədə daha aydın şəkildə göstərmək mümkündür. Müqayisə üçün ədəbiyyat az olsa da, hansısa bir müəyyənləşdirmədən ötrü, zənnimizcə, kifayət edər.

İlk müqayisəni heç bir əsəri haqqında məlumat olmayan, yalnız müxtəlif mənbələrdə bir neçə şeir nümunəsi və hikmətli kəlamları qalmış, sufizmə ilk dəfə ilahi eşq, Allaha təmənnasız sevgi məfhumunu gətirmiş, sufizm tarixində əhəmiyyətli yer tutan *Rabiə əl-Ədəviyyədən* (180/792) (Rabiənin müxtəlif mənbələrdə göstərilmiş ölüm tarixi bir-birindən fərqlidir) başlamaq istərdik. Rabiənin adı «əl-Lümə‘»də ancaq kəramət sahibi kimi çəkilir. Bu, ola bilsin ki, Sərrac Tusi ilə onun məhəbbət haqqında mülahizələrinin fərqli olmasından irəli gəlmişdir.

Rabiə əl-Ədəviyyə yazır:

«Mən Səni ürəyimin həmdəmi etdim,
Ancaq bədənim onunla ünsiyyət axtaranındır.

Bədənim öz qonaqlarına mehribandır,

Könlümün sevdiyi isə – ruhumun qonağıdır» [33, s.17]

Xüsusi vurğulayaq ki, bu şeirdə bəzi alimlərin sübut etmək istədikləri şəhvani, cismani məhəbbətdən söz getmir [33, s. 17]. S.Tusinin özü, eləcə də sufilərin hamısı zahirlərinin xəlq, batinlərinin Allah üçün olduğunu bildirirlər. Sufi ona aşkar olmuş sirləri hər kəsə bəyan etməklə ətrafdakıları çaşqınlığa salar, özünün isə hörmətini zay edə bilər.

Rabiə başqa bir şeirində yazır:

«Mənim sənə məhəbbətim iki cürdür:
Özümə sevgim və Sənə layiq sevgi.

Özümü sevəndə sevincimi Səndə tapıram,
Bu zaman mən hər kəsə, hər şeyə gözüyumulu, kor oluram.

Sənə layiq sevgimdə
Pərdə qalxır, mən Sənə baxa bilirəm.

Ancaq həm bunda, həm onda şöhrət mənim deyil,
Bunun da, onun da şöhrəti bir tək Sənindir»
[33, s. 17]

Sevginin iki cür, yəni birinin vasitəli (vasitə burada «mən»dir), digərinin vasitəsiz olduğunu söyləyən Rabiədən o qədər də fərqlənməyən S.Tusi Allah yaratdığı üçün sevginin ancaq Ona aid olduğunu deyir. Allaha olan bu sevgidən başqa yaradılanlara da pay düşür, yəni Allahın yaratdığını sevməyin özü də Allahı sevməkdir və Allahı ancaq Allahla, Onun verdiyi sevgi ilə, Allah üçün (sevilən yalnız Allahdır) sevmək mümkündür. Allahın yaratdıqlarını sevmək də onların yaradanını sevməkdir,

lakin bu, vasitəli, çox vaxt əsl məqsəddən uzaqlaşdıran bir sevgidir. Allaha layiq olan isə qeyd-şərtsiz, arada heç bir vasitənin olmadığı məhəbbətdir. Rabiə öz şeirlərində məhz bu eşqi tərənnüm edir.

Sərrac Tusi yaxınlıq və şövq halı arasında olan məhəbbət halını qorxu ilə paralel götürür, yəni yaxınlıq halından asılı olaraq, bəndənin ürəyində ya sonsuz qorxu, ya da sonsuz məhəbbət yarana bilər və bunlar çox vaxt bir ipin iki ucu kimi əlaqəli olurlar. Qorxunun şiddətini azaldan hər iki halla əlaqəli olan ümid halıdır. Yalnız Allahın sevgisinə, rəhminə ümid edən bəndə yoluna davam edib nə isə qazanmaq iqtidarındadır. Rabiə isə qorxunu tamamilə inkar edir, hətta bunu bəndəni öz sevgisindən yayındıran bir hiss kimi qəbul edir.

Əflakinin (754/1353) «Ariflərin üstünlükləri» əsərində belə bir rəvayət nəql edilir: «Bir gün Rabiənin bir əlində su, bir əlində od qaçdığını görürlər və ondan soruşurlar: «Ey axirətin xanımı, hara, nə üçün qaçırsan?» Rabiə: «Gedirəm cənnəti yandırıb, cəhənnəmi söndürəm ki, bu yolu bağlayan iki pərdə aradan qalxsın, məqsəd görünsün, Tanrının qulları Ona ümid və qorxusuz qulluq etsinlər. Əgər cənnət ümidi, cəhənnəm qorxusu olmasaydı, heç kim Tanrıya baş əyib, itaət etməzdi», – dedi» [22, s. 38-39].

Lakin Rabiə qorxunu rədd etsə də, ümidi rədd etmir. O yazır:

«Ey könüllər sultanı, bənzəri olmayan,
Bağışla günahkar qulunu.

Ümidim, dincliyim, güvəncim,
Səndən başqasını könül necə sevsin?» [22, s. 39].

Deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Rabiəyə yaxınlıq halından sonra məhəbbət halı qismət olmuş və bu hal onu ömrünün sonuna qədər buraxmamışdır, o, həqiqətin zirvəsinə də bu halla çatmışdır. S.Tusi isə, ümumiyyətlə, sufilərin hallarını xarakterizə etmiş və təbii ki, həm qorxu, həm ümid, həm də

məhəbbət hallarını onları yaşamış şəxslərin dili ilə qələmə almışdır.

Bağdad sufi məktəbinin yaradıcılarından biri, Səri Səqatinin yaxın dostu, Cüneyd Bağdadinin ustadı, *Haris Mühasibi* (165/781 – 243/837) çox məhsuldar bir mütəfəkkir olmuş və əsərlərindən çoxu dövrümüzə gəlib çatmışdır. Onu da qeyd edək ki, tədqiqat əsərlərinin bir çoxunda Haris Mühasibi ilk mistik-yazıçı kimi təqdim edilir [32, s.115]. O həm də Əbu Hamid Qəzalinin müraciət etdiyi sufi mütəfəkkirlərdən biri olmuşdur. Bu faktı hələ XIX əsrin əvvəllərində ingilis şərqşünası D.B.Makdonald da vurğulamışdır [27, s. 176-177]. Bəzən Haris Mühasibinin təsəvvüf tarixində rolu o qədər böyüdülmüş ki, hətta ona «sufiliyin banisi» belə demişlər [3, s. 26; 5, s. 89]. Təbii ki, bununla Mühasibinin rolu böyüdüldüyü qədər təsəvvüfün mahiyyəti və tarixi də bir o qədər daraldılır.

Biz onun ən məşhur və böyük əsəri sayılan «Riayə li hüquqi-l-lah» («Allah hüquqlarına riayət») və «Kitab ət-təvəhhüm» («Təxəyyül kitabı») əsərlərinin türkcə tərcüməsini əldə edə bilmişik. Bundan başqa, türk alimi Hüseyn Aydının «Mühasibinin təsəvvüf fəlsəfəsi» və digər tədqiqat əsərləri də mütəfəkkirin dünyagörüşü ilə tanış olmağa kömək etmişdir.

İslam psixologiyasının banisi hesab edilən tanınmış sufi mütəfəkkiri Haris Mühasibi əsərlərində dini şüuru, onun ədəb və hərəkətlərdə əks olunmasını tədqiq etmiş və öz mülahizələrini ilk dəfə Quran və sünnə ilə sübut edənlərdən olmuşdur. Böyük mütəfəkkir Əbu Hamid Qəzali özü Haris Mühasibinin kitablarına tez-tez müraciət etmiş, əsərlərində ondan yararlanmışdır [8, s. 23].

S.Tusi də sufi ədəblərinə dair fəsildə Mühasibidən sitatlar gətirsə də, onun məşhur əsəri sayılan «Riayə li hüquqi-l-lah»ın* adını çəkməmiş, onun ruhi yüksəliş, dini şüurun inkişafı haqqında fikirlərinə toxunmamışdır. Onu da əlavə edək ki, adı çəkilən əsər sufilərin ədəb və əxlaqlarına dair böyük həcmli bir kitabdır və

* Türk dilində o, «Kalb hayatı. Riayə» kimi tərcümə edilmişdir.

orada mütəfəkkirin təqdim etdiyi sufi prinsiplər yalnız etik baxımdan dəyərləndirilmişdir.

Haris Mühasibi öz yaradıcılığında həmişə üstünlüyü əxlaq qaydalarına və onları tənzimləyən mənəviyyatın təmizlənməsinə, nəfsin tərbiyə edilməsinə vermişdir. O qeyd edir ki, insan həmişə öz nəfsini hesaba çəkməlidir. Nəfs həm əməli etməzdən, həm də sonra gündəlik, aylıq, illik hesabat verməlidir ki, diqqəti və qayğısı cəmlənib dağınıqlıqdan uzaq olsun. Təbii ki, bunun üçün nəfs müəyyən bir təcrübə yolu keçməlidir və bu yolu müvəffəqiyyətlə başa vurmağı bacarmaq üçün insan bu əməllərə riayət etməlidir: nə doğru, nə də yalan yerə and içməmək; ona zülm etsələr belə, heç kimə lənət etməmək; vəfalı olmaq var ikən, vəfasızlıq edib əhdindən dönməmək; etdiyi yaxşılıq üçün əvəz gözləməmək; Allahın xatirinə səbirli olmaq; Allahın qəzəbindən uzaq olmaq üçün ən uyğun yolu tutub xalqa qarşı mərhəmətli olmaq; nə içdən, nə zahirdən əsla günah işlətməyə can atmamaq; heç kimi incitməmək; istər az olsun, istər çox və ya ehtiyacı oldu-olmadı, heç vaxt öz yükünü kimsəyə yükləməmək; insanlardan heç nə gözləməmək və onların sahib olduqları heç bir şeyə göz dikməmək; dünya və axirətin yüksək məqam və izzəti Allahın mərhəmətindən asılıdır, özünü heç bir kəsdən üstün bilməmək [19, s. 31].

Mühasibinin qısa şəkildə qeyd etdiyi bu ədəb qaydaları Sərrac Tusi tərəfindən fərqli formada olsa da, daha əhatəli, müəyyən sufilərin həyatından nümunələr göstərilməklə ifadə edilmişdir.

Mühasibi bilik əldə etmə yollarının üzərində çox ciddi bir məsələ kimi dayanır. O, bədən orqanlarının ilkin bilik əldə etmək üçün, qəlbin isə ilahi elmi – mə‘rifəti qəbul etmək üçün olduğunu bildirir, yəni hissi idrakı ilahi vəhy tamamlayır. «Mühasibi orqanları qəlb üçün bilik əldə etmək vasitəsi kimi görür. Ancaq Allah ürəyə vasitəsiz olaraq bu üç məsələni verir: 1) imana gəlib küfrdən uzaqlaşmaq; 2) sünnəti mənimsəyib bidətdən qaçmaq; 3) itaət etmək və Allahın xoş buyurmadığı şeylərə yaxın getməmək.

Mühasibiyə görə, işlərin mahiyyətinə ancaq qəlb ilə varılır, yüksək dəyərlər də ancaq qəlb ilə duyulur» [21, s. 46].

Sərrac Tusi isə biliyi əldə etmək yolu barədə əsərində heç bir məlumat verməmiş, ancaq onun zəruriliyi, növləri barədə yazmışdır. O, insan üçün zəruri olan elmlərə işarə etsə də, onlar barədə geniş məlumat verməmişdir.

Mühasibi sufilərin şəthiyyatlarını, ümumiyyətlə, hər bir ifratçılığı inkar etmişdir. Ruhun sərxoşluğunu, hər şeyin mahiyyətində Allahı görənləri qəbul etməyən Mühasibidən fərqli olaraq, S.Tusi bu cür kəlamları qəbul etmiş, onları düzgün mənalandırmağa çalışmışdır və bunu onun özünün də oxşar hal sahibi olması ilə izah etmək mümkündür. Buna misal olaraq Fəridəddin Əttarın «Təskirə»sində Sərrac Tusinin vəcdi barədə nəql olunan rəvayəti göstərmək olar [56, s. 391-392].

Həm Haris Mühasibi, həm Sərrac Qurana və sünnəyə çox sıx bağlı olan mütəfəkkirlərdir. Tusi müəyyən məsələ ilə bağlı göstərilən ayə, yaxud hədisə ya özünün, ya da hər hansı bir sufi mütəfəkkirin təfsirini verib əsl mənasını açıqlamağa çalışmışdır. Mühasibi öz təfsirlərində daha irəli getmişdir. Məsələn o, ölüm, axirət, cənnət və cəhənnəmlə bağlı ayələri nəinki izah etmiş, həm də təxəyyülünün gücü ilə onlar barədə daha geniş bir təsəvvür yaratmağa çalışmışdır. Onun «Kitab ət-təvəhhüm» («Təxəyyül kitabı»)* əsəri buna gözəl nümunədir. Qeyd etmək lazımdır ki, kitab tərcümədə belə güclü psixoloji təsirə malikdir. Artıq təsvir səhnələrinin olmadığı «əl-Lümə‘»dən fərqli olaraq, Mühasibi ölüm səhnəsindən tutmuş cənnətdəki quşlara kimi o qədər canlı, rəngarəng təsvirlər vermişdir ki, bunun adi yazıçı təxəyyülünün məhsulu olması təəccüb doğurur.

Tusi sufinin məqsədinin yalnız Haqq olduğunu bildirir, Mühasibi isə insanın məqsədi barədə belə yazır: «Allah bizi imtahan və təcrübə üçün yaratmış, cənnəti və cəhənnəmi bizim üçün yaratmışdır. Bu işin ciddi və önümüzdəki təhlükənin böyük

---

* Türk dilinə o, «Axirət pərdəsini aralayarkən» kimi tərcümə edilmişdir.

olduğunu bildirmişdir. Ağlı olan və düşünən adam gedəcəyi yerin hara və aqibətinin nə olacağını öyrənənə kimi könlü qırıq olmalıdır» [19, s. 37]. Həqiqətə çatmış bəndənin hər şeyi, hətta özünü belə unutmasını və heç bir hissin onu bu haldan ayıra bilməyəcəyini söyləyən və belə söyləyənləri qəbul edən Tusidən fərqli olaraq, Mühasibi cəhənnəm qorxusunun özündən başqa hər şeyi unutdurduğunu bildirir və Məhəmməd peyğəmbərdən (ﷺ) bu hədisi söyləyir: «Canım qüdrətinin əlində olan Allaha and olsun ki, bu üç vəziyyətdə adam özündən başqa heç kimi xatırlamaz: tərəzilər qurulub insanların əməlləri çəkildiyi vaxt, yaxşılıq gözünün yüngülmü, ağırmı gəldiyini öyrənənə qədər; əməl səhifələri paylandığı zaman kağızın sağ əlinəmi (cənnətə getmək əlaməti), yoxsa sol əlinəmi (cəhənnəmə getmək əlaməti) verilməsini öyrənənə qədər; bir də Sirat körpüsü yanında» [ 19, s. 62-63].

Tusi sufilərin hər işlərinin, sözlərinin mahiyyətində Allah olduğundan onların ancaq yaxşı işlər görüb, halal zəhmətin bəhrəsini yediyini söylədiyi zaman Mühasibi yazır: «Mücahidin belə dediyi rəvayət edilir: Qiyamət günü bəndə bu dört şey haqqında sorğuya çəkilməyənə qədər Allahın hüzurundan addımını belə ata bilməz: ömrünü harada tükətdiyini, elmi ilə nə əməl etdiyini, bədənini harada yorduğunu, malını haradan qazanıb haraya sərf etdiyini» [19, s. 70].

Mühasibi başqa sufi mütəfəkkirlərdən fərqli olaraq, yazıda rəmziliyi, hər hansı bir sirrin gizlin saxlanması fikrini bəyənməmiş və hər kəsin anlaya biləcəyi açıq bir dillə yazmış, danışmış, o zaman müzakirəsinə icazə verilməyən bir çox məsələləri tədqiq edib açıq müzakirə mövzusuna çevirmişdir. Təbii ki, bu, şəriət alimləri tərəfindən birmənalı qarşılanmamış və narazılıqlara səbəb olmuşdur. Məsələn, Əhməd b. Hənbəl onu kafir adlandırmışdır. İbn Zürə isə onun əsərləri haqqında: «O kitablardan uzaq ol, çünki onlar bidətlərlə doludur və insanı zəlalətə sövq edir», – demişdir [8, s. 25].

Ondan fərqli olaraq, Sərrac Tusi təsəvvüfdə rəmzlərə böyük əhəmiyyət vermişdir. O, işarətlərlə zəngin, gizli mənalı kəlamların

yalnız sufilər üçün, bu elmi dərk edənlər üçün olduğunu dönə-dönə vurğulamışdır.

*Cüneyd Bağdadi* (210/822 – 298/909) Bağdad sufi məktəbinin ən görkəmli nümayəndəsi, Səri Səqatinin bacısı oğlu və müridi olmuşdur. Dövrünün ən tanınmış sufi şeyxlərinin – Məhəmməd b. Əli Qəssabın, İbn Kəranbinin, Haris Mühasibinin söhbətlərində iştirak etmiş, təkcə Bağdadın deyil, başqa şəhərlərin də sufiləri ilə sıx əlaqədə olmuş, məktublaşmışdır. Cüneyd Mühasibi qədər məhsuldar bir mütəfəkkir olmasa da, mənbələrdə onun beş əsərinin adı çəkilir. Təəssüf ki, onlardan heç biri tam şəkildə əlimizdə deyil, yalnız müxtəlif sufi traktatlarında onların bəzi hissələri qorunub saxlanmışdır. Bu, onun ölərkən bütün kitablarının özü ilə dəfn edilməsini vəsiyyət etməsi ilə əlaqədardır. Bunun səbəbini soruşanda o: «Allahın elçisinin (ﷺ) elmi mövcud ikən, mən özümə aid bir şeyi qoyub Allahın yanına getmək istəmirəm» [8, s. 63], – deyə cavab vermişdir.

Hazırda əlimizdə Cüneydin bircə «Məktubları» var ki, o da İstanbul Şəhid Əli Paşa kitabxanasında 1374 nömrəsi ilə saxlanılır. 1962-ci ildə misirli alim prof. Əli Həsən Əbdülqədir onu ingiliscəyə, 1969-cu ildə isə türkiyəli alim, prof. Süleyman Ataş türkcəyə tərcümə edib ərəb mətnləri ilə bir yerdə nəşr etdirmişdir.[*]

Bu məktublardan əlavə, Cüneyd Bağdadinin «əl-Lümə‘»də Bistaminin şəthiyyatlarına yazdığı şərhlər, bir neçə məktubu, «Hilyə əl övliya»da «Ruhların dəvası» adlı risaləsi[**] və yenə bir neçə məktubu, nəhayət, Berlin kitabxanasında 7542 sayla saxlanan «Sufi qəsidəsi» adlı əsəri vardır [8, s. 78].

---

[*] Türkiyəli alim, Ərciyəz Universitetinin professoru Seyfullah Sevimin yaxından köməyi nəticəsində biz həmin məktubların fotosurətlərini əldə edib bu tədqiqatda istifadə edə bilmişik və bunun üçün çox hörmətli həmkarımıza öz dərin təşəkkürümüzü bildiririk.

[**] Bu əsər Qahirədə var və 1937-ci ildə A.Arberi onu ingilis dilində nəşr etdirmişdir [8, s. 63].

Əvvəlcədən qeyd etmək lazımdır ki, S.Tusinin öz əsərində ən çox istinad etdiyi müəlliflərdən biri Cüneyd olduğuna görə onların arasında hər hansı bir müqayisə aparmaq çətindir. «əl-Lümə‘» əsərinin qaynaqları arasında Cüneydin iki əsərinin – «Münacat» və «Bistaminin şəthiyyatlarının izahı» – adı çəkilir. Təsadüfi deyil ki, Əbu Səid onu Sərrac Tusinin mənəvi müəllimi, ustadı hesab etmişdir.

«əl-Lümə‘»də bir sufinin belə dediyi nəql edilir: «Kim bizim şeyxlərimizin rəmzlərinə vaqif olmaq istəsə, onların bir-birinə göndərdikləri məktublara baxsın. Çünki onların rəmzləri əsərlərində deyil, o məktublarındadır» [24, s. 414]. Həqiqətən, özünün çətin üslubu ilə tanınan Cüneyd Bağdadinin məktubları onun sufi dünyagörüşü haqqında müəyyən təsəvvür yaratmaq üçün kifayət qədər əhatəli bir mənbə sayıla bilər. Onu da qeyd edək ki, Cüneyd Bağdadi məktub yazmağın o qədər də tərəfdarı olmamışdır. O, bunun səbəbini Əbu Bəkr Kisaiyə yazdığı məktubda belə açıqlayır: «... Mənim sənə məktub yazmağıma mane olan şey məktubumda yazdıqlarımın sənin elminə vaqif olmayan birinin əlinə keçə bilməsi əndişəsidir. Çünki bir az qabaq İsfahan camaatından bir qrupuna məktub yazmışdım, yolda məktubum açılmış, üzü köçürülmüş, orada yazılan bəzi şeylər onlara yad gəlmişdir. Onların xilas olması (yazdıqlarımın əsl mahiyyətini anlatmaq) məni xeyli yordu. Onlara belə yük olmaq və onları şübhəyə salmaq əndişəsi mənə bu işdə (məktub yazmaqda) mane olur» [48, s. 77; 52, s. 7].

Böyük təmkini, dərin düşüncəsi ilə fərqlənən, ancaq öz üzərində təcrübədən keçirtdiyini, özünün yaşadığını, hiss etdiyini danışıb izah etməyə çalışan Cüneyd Bağdadi bu günə kimi sufizmin ən böyük şeyxi, ustadı hesab edilir. İlk dəfə sufizm müddəalarının özünəməxsus sistemini qurmağa çalışan və müəyyən mənada buna müvəffəq olan Cüneyd Bağdadinin xidmətini fiqhdə İmam Şafiinin xidmətinə bərabər tuturlar [8, s. 6], yəni o, yeni bir şey söyləməmiş, sadəcə həqiqətdə olub, çoxları üçün gizlin olanları sistem halına salıb sufizmin əsas mahiyyətini açıqlamışdır. Qeyd etmək lazımdır ki, Cüneydin sufi sisteminin

əsasını tövhid və sahv (ayıq) nəzəriyyələri təşkil edir. O, bunlardan çıxış edərək fəna, mə‘rifət, misak (əhd) prinsiplərini işləmişdir. Onun iman, zikr və əməl barədə də bəzi fikirləri vardır. Sonralar bu sistem S.Tusi tərəfindən genişləndirilmiş, o, ədəb, hal və məqamlar, vəcd, kəramət və vəlayət, səma‘ və sufizmin mənşəyi haqqında fikirləri də əlavə etmişdir (Cüneyd Bağdadi onları xatırlatmış, lakin onların üzərində dayanmamışdır). Bundan başqa, Quranın sufizmdə yeri, sufilərin ona yazdıqları təsirləri barədə məlumatlar, sufi terminlərinin (istilahlarının) izahı, sufizm tarixində müəyyən yanlış təsəvvürlərin yaranmasına səbəb olmuş anlaşılmazlıqların aradan qaldırılması məsələlərinə də «əl-Lümə‘»də yer ayrılmışdır.

Göstərildiyi kimi C.Bağdadinin sufi sisteminin özəyini tövhid nəzəriyyəsi təşkil edir. İmanın dərəcələrə bölünməsinin qəti əleyhinə olan mütəkəllimlərdən fərqli olaraq, Cüneyd nəinki onu dərəcələrə bölmüş, həm də ona psixoloji və əxlaqi yöndən yanaşmış və onun insanın iç aləmindən, yaşadığı, keçdiyi təcrübə yolundan birbaşa asılı olması fikrini irəli sürmüşdür. Deməli, avam bir şəxsin imanı ilə möminin və ya sufi şeyxinin imanı eyni ola bilməz. Cüneyd yazır: «Bil ki, insanlar üç cürdür: axtarıb yönələn; çatıb dayanan; daxil olub duran. Allahı axtaran zahiri elmin dəlilləri ilə istiqamətlənib Allahın zahiri işarətlərinə uyar. Qapının önünə çatıb dayanan şəxs batinini paklaşdırar, ürəyinə gələn ilhamlarla öz yolunu tutar, Allaha ürəkdən itaət edər. Bütün varlığı ilə Allahın hüzuruna gəlib Onun qarşısında duran isə Allahdan başqasını görməz, Allahın ona verəcəyi əmri gözləyər və dərhal yerinə yetirər. Allahı əsl tövhid edənin sifəti budur» [48, s. 58]. O, tövhidə aid başqa bir məktubunda yazır: «Bil ki, sən özünlə özündə pərdələnibsən və sən özünlə Ona (Allaha) yetişə bilməzsən. Sən Ona Onunla qovuşa bilərsən. Çünki O ancaq sənə izhar etsə, səni Özünə yönəlməyə dəvət etsə, sən Ona yönələ bilərsən» [48, s. 57].

Cüneydin bu düşüncələri, ümumiyyətlə, sufizmdə tövhidin özək xəttini təşkil edir və sonrakı dövr mütəfəkkirləri (Sərrac

Tusi, Əbu Hamid Qəzali və b.) də tövhidi bu baxımdan işləyib izah etmiş, tərifini vermiş, daha da genişləndirmişlər və Tusinin bu barədə fikirləri «Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusinin «əl-Lümə‘» əsəri» adlı monoqrafiyanın «Varlıq problemi» bölümündə geniş şəkildə şərh olunmuşdur.

Cüneyd Bağdadinin tövhid nəzəriyyəsi misak və fəna nəzəriyyələrinə əsaslanır. Ərəb dilindən tərcümədə «əhd», «iman», «vəfa» mənasında olan «misak» sufizmdə insanın əvvəlini və sonunu, əsl mahiyyətini göstərən bir məfhumdur. «əl-Lümə‘» də bu məsələlərə müxtəlif yöndən toxunulsa da, konkret olaraq «misak» termini işlənməmişdir və Cüneyddə olduğu kimi, insan varlığı ardıcıl surətdə tədqiq edilməmişdir. Əvvəlcədən qeyd etdiyimiz kimi, Cüneyddən başqa, Səhl b. Abdullahın da «Misak» adlı əsəri olmuşdur [48, s. 43].

Cüneyd bu məsələni Rəbbim Adəm oğullarının zürriyyətlərini bellərindən aldı və onları özünə şəhadət etdirdi: Mən sizin Rəbbiniz deyiləmmi? (Quran 7/172) ayəsinin təfsiri vasitəsilə izah etmişdir. «Uca Allah xəbər verdi ki, O, insanlara ancaq onlar Onun varlığı ilə mövcud ikən xitab etdi, onların vücudları özləri üçün deyil, Onun özündən başqa heç kimin bilmədiyi, özündən savayı heç kimin tapmadığı məna ilə mövcud idi» [48, s. 44]. Deməli, tövhid Allahın əbədiliyinin əzəliliyinin, mütləqliyinin, Ondan başqa hər şeyin yalnız Onun maddilik qazanmış bir əmri, istəyi olmasının dərkidir.

Sərrac Tusi bu nəzəriyyəni qısa şəkildə tövhidin əsl mahiyyəti kimi Cüneydin bu kəlamlarını şərh etməklə təqdim etmişdir: «Bu mərtəbədə olan qul Allahın önündə fərdiyyətsiz bir varlıq, bir xəyaldır. Allahla öz arasında üçüncü bir şey yoxdur... Allah ondan nə istəsə, onu da edər. Bundakı elm budur ki, qulun sonu əvvəlinə (ilk varlığına) dönər. Olmamışdan qabaq olduğu kimi olar» [48, s. 59].

Cüneyd Bağdadinin tövhid nəzəriyyəsində üzərində dayandığı məsələlərdən biri də fəna anlamıdır. Onun məktubları arasında «Fəna kitabı» adlı bir yazısı da mövcuddur. Cüneyd fəna nəzəriyyəsini də misak kimi tövhidin bir hissəsi, ona aparan bir

yol kimi işləmişdir. Misak əgər Allaha qovuşmağı, bəşəri varlığın heç olduğunu, yalnız Allahın var olduğunu dərk etməkdirsə, fəna bu qovuşmanın yolunu, üsulunu açıqlayır. Mütəfəkkir fənanın üç mərhələsinin olduğunu qeyd edir [48, s. 58]. Birinci mərhələ əməli, ikinci – zehni və subyektiv fənadır. Üçüncü mərhələ tam yox olub Allahın varlığında var olmaqdır, yəni bəqadır. Əslində, bəqa elə fənadır, daha doğrusu, fənanın fənası, yəni yoxluq hissinin də yox olması. «Mənim fənam bəqamdır. Həqiqətdir ki, fənamda Allah məni bəqamdan da, fənamdan da yox edər. Fənanın həqiqətində mən bəqasız və fənasız oluram. Mənim fəna və bəqam fəna və bəqanın varlığı üçündür. Fənamla mən məndən başqa bir varlıq (Allah) üçün oluram» [48, s. 56].

Cüneydin sonuncu cümləsində onun fəna nəzəriyyəsinin bir incəliyi durur: bəqa halında da insan Allahdan ayrı qalır, Onunla nə qarışır, nə eyniləşir. Bu haldan sonra Allah insanı yenidən xəlq arasına döndərir, həqiqət yolunun bələdçisi, ən yüksək iman və fəzilət sahibi nümunəsi kimi «Allahın nuru onlardan doğaraq ariflərin qəlblərinə düşər. Onlar bəhcət səmasında nurları parlayan ulduzlar, günəşlər, aylardır. Onlar Allahın hidayət yolunun işarətləridir. Məxluqata ən çox onların faydası dəyir. Onlar xalqa gələn zərərləri dəf edirlər. Quru və dənizin qaranlıqlarında yolçulara yol göstərən ulduzlardan daha xeyirlidir. Çünki ulduzların bələdçiliyi ilə mallar və bədənlər xilas olur, halbuki alimlərin bələdçiliyi ilə dinlər qurtulur. Dinini qurtaranla dünyasını və bədənini qurtaran arasında nə qədər fərq var!» [48, s. 75].

Sərrac Tusi fəna məsələsinə kitabında ayrıca yer ayırmamış, ona ancaq xüsusi tövhid çərçivəsində toxunmuşdur. Sufi istilahlarının mənaları bölümündə «fəna-bəqa» məfhumlarını belə izah edir: «Fəna – nəfsi keyfiyyətin itməsi (fəna olması), [bəndənin] çatdığı hala tabe olub ona mane olmamasıdır. Bəqa qulun bunlarla qalmasıdır. Həmçinin fəna qulun Allahın onun üçün etdiyi əməlləri öz əməlləri kimi bilməkdən uzaqlaşmasıdır. Bəqa qulun Allahla, Allah üçün olmasından qabaq (hələ «ideya»

şəklində olarkən – K.B.)) onun Allah üçün olması naminə Allahın onu var etməsi görüntüsünün qalmasıdır» [52, s. 417].

Bu tərifin ilk iki cümləsi sözlərin lüğəvi mənasına aiddir. Qalanlar isə onların sufi mənasını izah edir, yəni fəna bu dünyaya aid əməllərdən, sifətlərdən uzaqlaşıb Allahla olan, insanı əsl məqsədinə götürən əməllərlə məşğul olmaqdır. İnsanı Allahın hüzuruna çatdıran Allah onu öz varlığı ilə var edir, bu, Allah üçündür, çünki məqsəd Allahdır. Bütün bunlar Allahla Allah üçün var olmaqdır, yəni fənanın və bəqanın fənası, hər şeyin yoxluğu, heçliyi bircə Allahın var olmasının sübutudur.

S.Tusi fənanı yanlış anlayanlar barədə yazır: «Bəzi bağdadlılar insanın öz keyfiyyətlərindən uzaqlaşıb Allahın keyfiyyətinə daxil olmaq məsələsində xəta etmişlər. Bu xəta onları hülul və ya xristianlığın Məsih inamına aparıb çıxarır… Bundan xəta edənlər gizli bir mənanı anlaya bilməmişlər. Haqqın sifətlərini Haqq sanıblar ki, bu da küfrdür. Çünki Allah qəlbə girməz, qəlbə girən Ona imandır, tövhiddir, Ona itaətin zikridir» [52, s. 552].

Yenə S.Tusi fənanı yanlış anlayıb buna çatmaq üçün öz bədənlərini məhv etməyə başlayan, bunun üçün də yeməyib-içməyib özlərinə fiziki əziyyət verənləri xatırladıb bildirir ki, onlar «bəşər və bəşərin əxlaqı arasında fərq qoymaqda səhv edirlər, çünki qara rəng qaralıqdan, ağ rəng ağlıqdan uzaq ola bilmədiyi kimi, bəşər də bəşərilikdən uzaq ola bilməz. Lakin bəşərin əxlaqı həqiqət nurlarının Sultanının təsiri altında dəyişir. Bəşərin sifətləri bəşərin eyni deyil. Fənadan bəhs edənlər insanın öz hərəkətlərinin və əməllərinin Allahın onda (onun vasitəsi ilə) etdiyini görməklə baqi olmağı nəzərdə tuturlar» [52, s. 543].

Cüneyd Bağdadinin sufi sisteminin digər sütunu sahv (ayıqlıq) nəzəriyyəsidir. Təmkini ilə fərqlənən Cüneyd ifratçılığın qəti əleyhinə olmuşdur və ancaq sufilərin anlaya bildiyi elmi xəlqdən gizli tutmağı tövsiyə etmişdir. Onun bu fikri ilə S.Tusi də razıdır. Cüneyd yazır: «Bu insanlara acımaq lazımdır. İnsanlara bilmədiklərini söyləmək və onlara anlamadıqları ilə müraciət etmək onlara acımaq deyil. Bəzən bu, istəmədiyin, qəsd etmədiyin

halda yenə olur. Allah sənə bundan qorunmaq üçün bir qalxan versin və bizi də, səni də bundan qorusun. O halda, Allah sənə rəhm etsin, dilini saxlamalı, zamanın əhlini tanımalısan. İnsanlara bildikləri ilə müraciət et, bilmədiklərini söyləmə. Çünki bilmədiyinə düşmən olan çox azdır. …Sən xalqın halına uyğun bir halınla onların arasına çıx və onların dərəcələrinə görə onlarla danış» [48, s. 77; 52, s. 311-312]. Haqqa çatmış, özünün fəna-bəqa halını yaşamış insan yenidən xalqın arasına qayıtmalı, zahirən onlardan biri olmalıdır, «çünki cənabi Haqqın onu cəmiyyətə döndərməkdə bir muradı vardır. Bunun üçün onun üzərindəki nemətlərini bəyan edib göstərərək onu cəmiyyətə çıxardır. Xalqı onun cazibəsinə salmaq, onu xalqa sevdirmək, qəbul etdirmək üçün ona bəşəri sifətlərini geri verərək lütflərinin nurunu onun üzərində parladır» [48, s. 57].

Həmin halda qalanda insan həm Haqq yolunu başa vurmur, həm də ancaq seçilmişlərə bəyan edilən sirri hamıya açıqlamaqla onları çaşqınlığa salır və xeyirdən çox ziyan verir.

Bütün bu fikirlərin əksini müəyyən mənada «əl-Lümə‘»də görmək mümkündür. Lakin Bistaminin müəyyən bir şəthiyyatını izah edəndə yalnız onun halını, məqamını şərh etməklə kifayətlənən C.Bağdadidən fərqli olaraq, S.Tusi bu ifadələrdəki hər bir sözün həqiqi mənasını açıqlamağa, oxucu üçün heç bir qaranlıq məsələ qoymamağa çalışmış, Cüneydin izahlarının özünün də izaha ehtiyacı olduğunu söyləyib, onların da mənasını şərh etmişdir.

Bunu onunla izah etmək olar ki, Cüneyd yazdıqlarını yalnız təsəvvüf əhli üçün nəzərdə tutmuşdur, S.Tusi isə bu kəlamları anlamayıb onlardan yanlış məna çıxaranlar üçün də müəyyən şərh verir. Ümumiyyətlə, Cüneyddən fərqli olaraq, S.Tusi öz kitabını təsəvvüf barədə məlumat almaq istəyən hər kəs üçün yazmışdır.

Cüneyd Bağdadinin nəzəriyyəsinə əsasən, ali səviyyəyə yüksəlmiş şəxs cəmiyyətə faydalı olmalı, özünün işi, dərsi, gündəlik qayğıları ilə məşğul olmalıdır. Lakin o, heç bir zaman ilahi sirdən agah olduğunu unutmamalıdır. Sufilər arasında bu

yolun sonuna çıxıb, Haqqı dərk etdikdən sonra özünün batinini, mənəvi həyatını zahirindən, gündəlik həyatından bu qədər uzaq tutmağı bacaran bir sufi kimi Cüneyd Bağdadi özü gözəl nümunədir. Onun müridləri arasından tanınmış şəxsiyyətlər çıxmış, sonralar sufilərdən hər biri öz əsərlərində mütləq ona istinad etmişdir. Sərrac Tusi də bu məsələdə kənarda qalmamışdır.

Sərrac Tusinin «əl-Lümə‘»də çox müraciət etdiyi sufi mütəfəkkirlərdən biri də X əsrin görkəmli sufi şeyxi *Əbu Yəzid Bistamidir*. Xorasan sufi məktəbinin yaradıcısı, ilk dəfə şəthiyyat söyləyənlərdən biri, bəlkə də, birincisi olan Əbu Yəzidin dövrümüzə heç bir əsəri gəlib çatmamışdır. Yalnız müxtəlif mənbələrdə, o cümlədən «əl-Lümə‘»də onun şəthiyyatları və bəzi sufi məsələlərlə bağlı fikirləri qorunub saxlanmış, onlara əsaslanaraq Bistaminin dünyagörüşü müəyyən edilmiş və onu təsəvvüfün «sərxoş» (səkr) qoluna mənsub etmişlər. Sonralar bu qol ifrat sufizm kimi tanınmışdır. Qeyd etmək lazımdır ki, Cüneyd Bağdadi Bistami haqqında çox yüksək fikirdə olmuş və: «Əbu Yəzidin bizim aramızda yeri Cəbrailin başqa mələklər arasında yeri kimidir» [8, s. 32], – demişdir. Lakin onun ifratçılığını, söylədiyi kəlamları bəyənməmiş və bunun hələ yolun başlanğıcında olan müridlərə layiq olduğunu söyləmişdir. Onun bu mənfi münasibəti Əbu Yəzidin şəthiyyatlarına yazdığı şərhlərində də özünü büruzə verir. Cüneyd yazır: «Əbu Yəzidin halının böyüklüyünə və işarətinin ucalığına baxmayaraq, o, başlanğıc halından çıxa bilməmişdir. Ondan kamala və nəhayətə (sona) dəlalət edən heç bir söz eşitmədim» [52, s. 479]. Lakin Cüneyd onu da vurğulayır ki, Əbu Yəzidin dediklərinin mənasını ancaq onu dərk edən, o halı yaşayan bilər, bilməyən isə rədd edər.

Bəzi mənbələrə görə, Cüneyd nə Əbu Yəzidlə görüşmüş, nə də onunla məktublaşmışdır, onun əsərlərini isə Yəhya b. Müazın vasitəsi ilə əldə etmişdir [8, s. 7]. Mövlanə Cəlaləddin Ruminin «Fihi mə fihi» («Onda olan ondadır») əsərindən bəlli olur ki, Əbu Yəzid Cüneydlə görüşmüş və onun elminə, biliyinə, savadına heyran olduğunu və bunun əsl «fiqhu-l-lah» (Allahın elmi) olduğunu bildirmişdir [18, s. 135]. Ancaq güman etmək olar ki, o,

bu sözləri onunla görüşmədən, yalnız əsərləri ilə tanış olduqdan sonra da söyləyə bilərdi.

Tədqiqat zamanı Füzuli adına Əlyazmalar İnstitutunda müxtəlif şeir cünglərində fars dilində Əbu Yəzidə mənsub bir neçə şeir və beyt, bir də özünün tərtib etdiyi aylıq təqvim aşkar etdik. B 2298 sayla saxlanan «Bəyan ğurrat əl-hiləl» («Hilalın çıxmasının bəyanı») [41] adlı cüngün 22a-25a səhifələrindəki bu aylıq təqvim ayın günlərinin qeydidir ki, buna əsasən hər ayın hilalının hansı gündə, ayın neçəsində çıxmasını təyin etmək mümkündür. S.Tusi də əsərində sufilərin başqa elmlərlə bərabər, astrologiyanı (nücum – ulduzlar elmini) da bilməsini vacib hesab etmişdir. Çünki ulduzları oxumağı bacaran şəxs Kəbənin yerini düzğün təyin edər, namazın vaxtını dəqiq bilər, orucunu vaxtlı-vaxtında tutar, ümumiyyətlə, hər bir ibadətini öz vaxtında, düzgün edə bilər.

Tapılan şeirlər arasında Bistaminin Məhəmməd peyğəmbərə (ﷺ) yazdığı bir mədhiyyə də var və bu şeirdə o, Peyğəmbərin (ﷺ) şəxsiyyətini deyil, onun (ﷺ) məqamını, Allah yanında tutduğu mövqeyini mədh edir:

«Heç bir kəsin sənin zatına yetişən nəsəbi yoxdur,
Sən tək, ali bir aləmdənsən, adəmlərdən ali
nəsəblisən» [58].

Bistami Məhəmməd peyğəmbəri (ﷺ) sufilər üçün bir örnək, nümunə, sufilərin hər birinin can atdığı ali mərtəbə sahibi hesab edir.

«Bizim hamımızın susuzluqdan dodağımız
quruyub, abi – həyat (həyat suyu) sənsən,
Lütf elə, bu təşnə (susuzluq yanğısı) artıq həddini aşıb.

Ey ağam, sən mənim həbibim (sevgilim), qəlbimin
təbibisən,

Aləm paklıq dərmanı üçün sənə üz tutur» [58].

Bistami başqa bir şeirində sufinin əsl simasını bu cür ifadə edir:

«Bu kişilərin himməti meydanda çarx* kimidir,
Özü kəsməz, kəsəni (tiyəni) itiləyər» [57].

Başqa bir beytdə isə:

«Əgər istəsən Allaha yaxın olasan,
Ürəklə get, adamların arxasına da, üzünə də
yaxşı ol.

Əgər istəsən sübh çağı olasan,
Ürəyini düz elə, günəş tək ol, hamıya eyni
işıq sal» [58].

S.Tusi Bistaminin şeirlərindən heç bir nümunə göstərməmişdir, yalnız şəthiyyatlarını və bəzi kəlamlarını şərh etməklə onun məqamının ucalığını, halının aliliyini və həqiqi bir müsəlman olmasını, şəriətdən kənar heç bir söz və hərəkət etmədiyini sübut etməyə çalışmışdır. Onun haqqında yaranan bəzi mənfi münasibətlərin isə söylədiklərinin düzgün anlaşılmaması və başqalarının müəyyən bir ifadəni kontekstdən ayıraraq istədikləri kimi yazmaqları ilə izah etmişdir. Təəssüf ki, bu «ənənə» bu günə qədər davam etməkdədir. Onu da qeyd etmək lazımdır ki, bəzi tədqiqatçıların dediyi kimi, Əbu Yəzid Bistami öz düşüncələrinə görə edam edilməmiş [37, s. 51], öz əcəli ilə ölmüşdür [52, s. 280].

Sərrac Tusi özünün əsəri boyunca tez-tez dərin düşüncəli, getdiyi yola sadiq, yüksək məqama çatmış bir şəxs kimi Əbu Bəkr Şibliyə müraciət etmiş, şeirlərindən, kəlamlarından sitatlar

* Çarx – bülöv; bıçaq, qılınc və s. itiləmək üçün alət, daş.

gətirmiş, şəthiyyat bölümündə isə ona xüsusi yer ayırmış, mübahisələrə səbəb olmuş kəlamlarının əsl mahiyyətini açıqlamağa çalışmışdır. Cüneyd Bağdadi sevimli dostu və müridi, sufizm tarixində özünəməxsus yeri və rolu olmuş bu sufi mütəfəkkiri çox yüksək qiymətləndirərək demişdir: «Hər qövmün öz tacı olur, bu qövmün tacı Şiblidir» və ya tələbələrinə onun haqqında belə dediyi məlumdur: «Şibliyə bir-birinizə baxdığınız kimi baxmayın, həqiqətən, o, Allahın gözlərindən biridir» [51, s. 47]. Onun tövhid elminə dair bir əsəri barədə məlumat olsa da, dövrümüzə yalnız onun şeirləri və bir neçə şəthiyyatı gəlib çatmışdır. Bağdad Universitetinin professoru Kamil Mustafa Şeybi Şiblinin 20-dən çox mənbədən müxtəlif həcmli şeirlərini toplayıb, 1968-ci ildə həyatı və yaradıcılığını əhatə edən müqəddimə ilə nəşr etdirmişdir. Bu mənbələr arasında Sərrac Tusinin «əl-Lümə‘»si, Süləminin «Tabaqat»ı, Qüşeyrinin «Risalə»si və b. mötəbər əsərləri göstərmək olar. Şeybinin tərtib etdiyi bu divanda Şiblinin özünə məxsus 73 şeir nümunəsi ilə bərabər, onun adına çıxılan, lakin ona mənsub olmayan 15 və Şibliyə həsr edilmiş 21 şeir vardır. Kitabda Şeybinin sübut etməyə çalışdığı maraqlı faktlardan biri də Şiblinin əslən Orta Asiya (Fərqanə) türklərindən olmasıdır. Şeybi onun valideynlərinin xəlifə Mütəvəkkilin zamanında (232/847 – 247/861) Fərqanədən Samirə şəhərinə köçürüldüyünü və islamı qəbul etdikdən sonra Düləf b. Cəhdər adının Əbu Bəkr Cəfər b. Yunis əş-Şibliyə* dəyişdiyini bildirir [51, s. 24].

Şibli sufi təriqətinə daxil olmazdan əvvəl dövlət məmuru işləmiş və bu dövrdə mövzusu mədh, təbiət, qəm, hüzn və s. bu kimi şeylər olan şeirlər yazmışdır [51, s. 39]. Divanında onun yalnız sufi şeirləri toplanmışdır və bunlar Şiblinin hallarını, məqamını, sufi yolçuluğunu əks etdirən şeirlərdir:

---

* Şiblinin adı barədə çoxlu ziddiyyətli fikirlər mövcuddur. Göstərilən onun Əbu Hənifənin Əzmiyyədəki məqbərəsindəki qəbrinin başdaşında yazılan addır [51, s. 60].

«Mənim Haqqa şahid olmağım
Vücudun (varlığın) şahidliyini inkar edir»
[51, s. 100].

Yəni Haqqın mütləqliyinin şahidi olmaqla o, bütün yaradılanların varlığının nisbiliyini dərk edir.

Şibli şeirlərində ilahi məhəbbət, tövhid və təqvaya (Allah qorxusuna) da toxunmuşdur:

«Dostum sordu: Onlara necə səbir edirsən?
Dedim: Necəliyi sormaq səbirdəndir?»
[51, s. 112].

Onun daha çox şəxsi hiss, hal və düşüncələrinin əksi olan şeirləri S.Tusinin geniş, çoxtərəfli sufi sisteminin yalnız bir bölümünü təşkil edə bilər. Bu heç də Şiblinin nüfuzunun, yazdıqlarının əhəmiyyətinin azaldılması demək deyil. Şibli sufizmi yaşayıb və yaşadıqlarını nəzmlə ifadə etməklə kifayətlənmişdir. Məsələn, «Təzkirə əl-övliya»da Şiblinin belə dediyi nəql edilir: «30 il fiqh və hədis oxudum, nəhayət, günəşim öz içimdə doğdu. Sonra ustadlarımın yanına getdim və dedim: «Gəlin bir az Allahın fiqh və elmindən söhbət edək». Amma heç kim bilmədi nə desin» [56, s. 646]. Bununla belə, onun söylədikləri, şeirləri ayrılıqda sufi poeziyasının gözəl nümunəsi, hiss və halların obrazlı ifadəsi kimi maraqlı tədqiqat obyekti hesab edilə bilər.

Bu tədqiqat işində müraciət edilməyə layiq şəxslərdən biri də sufizm tarixində əhəmiyyətli rolu və yeri olan, heç bir sufi müəllifinin, təsəvvüf tədqiqatçısının yan keçə bilmədiyi, özünün ziddiyyətli kəlamlarına görə çoxsaylı hücumlara məruz qalan, din məmurları tərəfindən kafir elan edilərək amansızcasına edam edilən Hüseyn b. Mənsur Həllacdır. Mənbələrdə Həllacın bir neçə əsərinin adı çəkilsə də, hazırda onun şeir divanı, fransız şərqşünası L.Massinyon tərəfindən tərtib və nəşr edilmiş «Kitab ət-təvasin»i

və mütəfəkkirin müasirləri və tələbələrinin onun həyatı, kəlamları, haqqında danışılan qısa hekayətlər toplusu olan və Həllacın şəxsiyyəti və dünyagörüşü haqqında doğru təsəvvür yaratmaq üçün etibarlı mənbələrdən biri hesab edilə bilən «Əxbar əl-Həllac» kitabları məlumdur.

Bu mənbələrdən belə məlum olur ki, Həllacın ən çox müraciət etdiyi mövzu tövhiddir. Onu da qeyd edək ki, əsərlərin heç bir yerində Həllacın Allah ilə insanı eyni hesab etməsi [5, s. 75; 7, s. 33] faktına rast gəlinmir. O, hər zaman Allahı Allah, insanı insan kimi tanımışdır: «Arif  öz irfanı ilədir, çünki o, öz irfanıdır, irfanı da odur. Mə‘rifət isə bunun arxasındadır, Məruf (tanınan, Allah – K.B.) isə bunun arxasındadır. O yalnız Odur, Haqq Haqdır, məxluq məxluqdur» [44, s. 78]. Yaxud: «Allah özü zatı üzərində dayanan vahid Zatdır. O, başqalarından öz əbədiliyi ilə seçilir. Ona heç nə birləşmir, Ona başqası qarışmır, O, məkana sığmır, Onu zaman dərk etməz, Onu təfəkkür bəlli etməz, baxış dərk etməz, zaman kəsiyi Onu əhatə edə bilməz» [40, s. 29]. Həllac bir arif, yüksək hal sahibi, ağıllı bir şəxs, ustad kimi sufilər tərəfindən böyük hörmət və diqqətə layiq görülmüşdür. Onunla yaxın münasibətdə olan Əbu Bəkr Şibli yazır: «Mən və Həllac eyni şeyik, ancaq o, car çəkdi, mən gizlətdim» [51, s. 52].

Hücviridə isə bu, bir qədər fərqli verilmişdir: «Mən və Həllac eyni şey idik, məni dəliliyim xilas etdi. Onu isə ağlı məhv etdi» [13, s. 254].

«əl-Lümə‘»də təsəvvüfün «sərxoş» (səkr) qoluna mənsub sufilərə (şəthiyyat sahiblərinə) geniş yer verilsə də, Həllaca çox az müraciət edilmişdir. S.Tusinin Həllaca bu qədər az yer verməsi, onu diqqətdən kənar qoyması onun Həllacın elminə, mə‘rifətinə münasibətindən irəli gəlməmişdir, çünki o, oxşar dünyagörüşlü Bistamiyə, Şibliyə və başqalarına çox müsbət münasibətdə olmuşdur. S.Tusi Həllacı unikal, ağıllı bir şəxs hesab etsə də (bunu onun Həllaca müraciət etdiyi məsələlərdən də bilmək olar), onunla bəzi məsələlərdə razılaşmamışdır. Bunu Həllaca Cüneydin mənfi münasibəti ilə də yozmaq olar, çünki Tusinin əsərindən

onun Cüneyd məktəbinin yetirməsi olduğu və Cüneyd Bağdadiyə böyük ehtiram bəslədiyi aydındır. R.Nikolson bildirir ki, salimilərdən heç kəsin adı «əl-Lümə‘»də çəkilmir. İngilis şərqşünası bunun onların fikirlərindəki müxtəliflikdən irəli gəldiyini bildirir. Çünki əgər S.Tusi ruhun bədənlə öldüyünü bildirirsə, salimilər bunun əksini sübut etməyə çalışmışlar [30, s. X-XI]. Bununla belə, S.Tusi Həllacın müdafiəçilərindən və fikirlərinin tərəfdarı olanlardan İbn Salimlə yaxın əlaqədə olmuş və öz əsərində tez-tez ondan sitatlar gətirmişdir.

Onu da əlavə edim ki, «əl-Lümə‘»də sufilər arasında baş verən narazılıqlar qələmə alınsa da, Həllacın yalnız Əmr b. Osman Məkki ilə münaqişəsinə toxunulmuşdur [52, s. 499]. Qeyd edək ki, bu narazılıq barədə «Bağdad tarixində [42, s. 8, s. 121], «Kəşf əl-məhcub»da [13, s. 254] və «Əxbar əl-Həllac»da [40, s. 62] bir-birindən fərqlənən məlumatlar verilmişdir. Ümumiyyətlə, Həllacın şəxsiyyəti və dünyagörüşü barədə tarixdə çox müxtəlif məlumatlar vardır [14, c. 1, s. 385].

Bəzi əsərlərdə sufizm tarixinin ilk mənbəyi kimi Əbu Səid b. Ə‘rabinin (341/952) «Tabaqat ən-nussak» («Zahidlərin təbəqələri») əsəri göstərilir [24, s. 67]. İngilis şərqşünası Arberi bildirir ki, Cüneydin tələbəsi, fəqih və hədisçi olan İbn Ə‘rabinin adı çəkilən əsərində «şairlər, alimlər, dilçilər və o dövrün başqa məşhur filoloq alimlərinin, böyük sufi şeyxlərinin həyat və dünyagörüşləri geniş əks olunmuşdur» [24, s. 67]. Başqa bir məlumata görə, Əbu Nüeym İsfəhani özünün «Hilyə əl-övliya» («Övliyaların bəzəyi») əsərində bu kitabdan istifadə etmişdir [22, s. 8]. Əbu Talib Məkki «Qut əl-qulub» kitabında yazır: «İbn Ə‘rabi belə hesab edir ki, Cüneyd sufilərin sonuncu şeyxidir, ondan sonra gələnlər ancaq xəcalət hissi ilə xatırlana bilər» [8, s. 50]. Adam Mets isə «Müsəlman renessansı» kitabında bildirir: «Bu ordenin elə ilk tarixçisi (341/952) (İbn Ə‘rabi nəzərdə tutulur) onun bütün tarixini təhrif etdi, bütün faktları qarışdırdı» [36, s. 236].

İbn Ə‘rabinin bu kitabı barədə hər hansı bir obyektiv fikri yalnız onun haqqında deyilənlərdən bir nəticə çıxararaq söyləmək olar və əlbəttə, yenə də səhv etmək təhlükəsi var. Yalnız bunu

deyə bilərik ki, İbn Ə‘rabi bu əsərində sufizmin bəzi nümayəndələrindən yazsa da, üstünlüyü zahidlərə vermiş və bu əsər daha çox şəxsiyyətlərin həyatını əks etdirmişdir. Onların dünyagörüşlərini ayrı-ayrılıqda təqdim etmiş müəllif, bir növ, ensiklopedik məlumat versə də, sufizmin ümumi əsasları, prinsip və problemlərinə, həmin dövrdəki yeri və roluna toxunmamışdır.

S.Tusi öz əsərində bu kitab haqqında heç bir məlumat verməmişdir, ancaq kitabın vəcd bölümündə İbn Ə‘rabinin «Vəcd kitabı» adlı əsərindən istifadə etmiş, hətta ondan müəyyən bir hissəni olduğu kimi vermişdir.

Tədqiqat işinin bu başlığında Sərrac Tusinin «əl-Lümə‘» əsərini özündən əvvəl yazılmış və əldə edə bildiyimiz çox az sayda müxtəlif məzmunlu kitablarla qısa müqayisəsini etməyə çalışdıq. Təbii ki, bunda məqsəd S.Tusinin əməyinin düzgün qiymətini verməkdir. S.Tusi özü kitabının müqəddiməsində yazır: «Bu gün sufilərin elmlərinə dair söz deyənlər çoxaldı. Sufilərə bənzəmək istəyənlər, təsəvvüf məsələlərində işarətlə danışanlar çox artdı. Bunlardan hər birinin ibarələrlə yazılmış əsərləri vardır, amma bunların hamısını gözəl saymaq olmaz» [52, s. 19-20].

«əl-Lümə‘» təsəvvüfün çətin, məşəqqətli yolları ilə keçib onun zirvəsinə çatmış həqiqi sufi şeyxlərinin – Zu‘n-Nun Misri, Əbu Yəzid Bistami, Cüneyd Bağdadi və başqalarının sufizmi olduğu kimi, bütün yad təsir və əlavələrdən uzaq şəkildə təqdim edən irsini tarixdən keçirərək elm və mə‘rifət üçün əvəzsiz nümunə kimi nəsillərə çatdırmışdır.

S.Tusi öz əsərində 200-ə yaxın sufinin adını çəkmiş, onların kəlamlarından nümunələr göstərmişdir. R.Nikolsonun qeyd etdiyinə görə, onların bəziləri bir sıra ərəb və fars mənbələrində (məsələn: «Təzkirə əl-övliya»da) xatırlansa da, çoxu heç bir mənbədə göstərilməyib [30, s. XXII].

Əsərlə tanışlıqdan belə məlum oldu ki, müəllif həm sələflərinin, həm də müasirlərinin kitablarından, məktublarından, şeirlərindən, dualarından, şifahi deyimlərindən faydalanmışdır. Sərrac Tusinin ilkin mənbə kimi istifadə etdiyi müəlliflərin sayı

40-a yaxındır. R.Nikolson bildirir ki, onların hamısı sufi olub, İbn Xalavahdan başqa. O isə dilçi olmuşdur [30, s. XII]. R.Nikolsonun bu mənbələr arasından seçib tərtib etdiyi «əl-Lümə‘»nin qaynaqlarının adları bunlardır:

1. «Məkkənin tarixi». Güman ki, Əzraqinindir;
2. «Müşahidələr kitabı». Əmr b. Osman Məkki;
3. «Sünnələr (qanunlar) kitabı». Əbu Davud Sicistani;
4. «Dua (ibadət) qaydaları kitabı». Əbu Səid Xərraz;
5. Əbu Turab Nəxşəbinin adı çəkilməyən kitabı;
6. «Münacat kitabı». Cüneyd Bağdadi;
7. «Vəcd kitabı». Əbu Səid b. Ə‘rabi;
8. «Mə‘rifətlərin mə‘rifəti kitabı» İbrahim Xəvvas;
9. Cüneyd Bağdadinin Əbu Yəzid Bistaminin şəthiyyatlarına yazdığı şərhlər.

Bundan əlavə, S.Tusi əsərində Buxari, Müslim, Tirmizi və başqa ən mötəbər hədis alimlərinin kitablarından da istifadə etmişdir ki, bu, onun əsərinin etibarını daha da artırmış olur.

***«əl-Lümə‘»nin əsas mövzuları.***

Həcm və mövzu etibarı ilə «əl-Lümə‘» çox əhatəli bir əsərdir. O, müəllifin özü tərəfindən yazılmış müqəddimə və 15 fəsildən ibarətdir. Hər fəsil özü də ayrı-ayrı başlıqlardan ibarətdir. Kitabın bu cür strukturu əsərdə qarşıya qoyulmuş məqsədi xırdalıqlarına qədər açıqlamağa imkan verir.

Müqəddimədə müəllif kitabın yazılma səbəblərini, özünün məramını bildirir və qeyd edir ki, «mən Allahdan xeyir-dua istəyib, təsəvvüf əhlinin can atdığı və ilk şeyxlərin elmlərinin, üsullarının əsası, məzhəblərinin, xəbərlərinin, məsələlərinin, cavablarının, məqam və hallarının mənbəyinin mənası barədə danışdıqlarını, onları fərqləndirən incə işarətlərini, bəlağətli ibarələrini, onların hiss və qərarlarını təsdiqləyən çətin kəlmələrini başlıqlarda topladım» [52, s. 18]. Sonra yazır: «Bizim əsrimizdə aqil adam bu tayfanın (sufilərin) üsullarını, onların məqsədlərini,

həqiqət və fəzilət əhlinin yolundan bəzi incə şeyləri bilməlidir ki, onlarla onlara oxşayanları, onların paltarını geyinib, onların adları ilə adlananları fərqləndirə bilsin, səhv etməsin, yanlış addım atmasın» [52, s. 18].

Əsərin 18 babdan (başlıqdan) ibarət birinci fəslində mütəfəkkir əvvəlcə sufizmin etimologiyası, təşəkkülü barədə məlumat verir. O, «sufi» və «təsəvvüf» terminlərini həm leksik, həm də elmi baxımdan araşdırıb, bu barədə müxtəlif fikirləri təqdim etməklə bərabər, həm də mübahisəli mülahizələrə toxunur, onlara müəyyən aydınlıq gətirir. Bundan başqa, o, «Sufizmin mahiyyəti nədir?», «Sufi kimdir?» kimi suallara da ətraflı cavablar verir.

Bu fəsildə təsəvvüfü bir elm kimi təqdim edən Sərrac Tusi onun yerini digər dini elmlər arasında təyinləşdirməyə çalışır. Təsəvvüfün mə‘rifət, tövhid, iman kimi vacib prinsiplərinin şərhi də bu fəsildə verilir.

İkinci fəsil hal və məqamların şərhinə həsr edilir. Yeddi məqam və on haldan söz açan mütəfəkkir onların hər birini geniş şəkildə araşdırır, onların təsəvvüfdə yerini və əhəmiyyətini göstərir. Mütəfəkkir hal və məqamları ayrı-ayrılıqda şərh etsə də, onların idrak prosesində tutduqları yerin ardıcıllığını saxlamış, aralarındakı əlaqə zəncirini qırmamışdır.

Sərrac Tusi əsəri boyu Quran ayələrindən və Məhəmməd peyğəmbərin (ﷺ) sünnələrindən faydalanmaqla yanaşı, onlara ayrıca fəsillər də ayırmışdır. Belə ki, Quranın anlamına və mahiyyətinə dair doqquz, Məhəmməd peyğəmbərin (ﷺ) həyat tərzi və sünnələrinə aid dörd, Quranın və sünnənin sufi təfsirlərinə aid beş, raşidi xəlifələrin və digər Peyğəmbər (ﷺ) əshabələrinin müdrik kəlamlarına, həyat təcrübələrinə dair isə yeddi babdan ibarət fəsillərdə mütəfəkkir məsələləri ətraflı şərh edir.

Yeri gəlmişkən, maraqlı faktlardan biri də odur ki, sufilərin Məhəmməd peyğəmbərin (ﷺ) şəxsiyyətinə, onun (ﷺ) kəlamlarına və həyat tərzinə müraciət etmələri təsadüfi

olmamışdır. Belə ki, Allahın elçisi və seçilmiş bəndəsi olmaqla bərabər, o (ﷺ) həm də mənəvi zənginliyini maddi kasıblıqdan qat-qat üstün bilən, hər anı, hər sözü Allahla olan, Allahın qəzəbindən qorunmaq üçün yenə Allaha müraciət edən, mistik düşüncəyə malik bir şəxs olmuşdur. Sufi mütəfəkkirlərin düşüncələrində, yaradıcılığında Məhəmməd peyğəmbərin (ﷺ) həmişə xüsusi yeri olmuşdur, o cümlədən Sərrac Tusinin «əl-Lümə‘» əsərində də. Onu da qeyd edim ki, Peyğəmbərin (ﷺ) mistik baxışları təkcə sufiləri yox, tədqiqatçıları da maraqlandırmış və bu barədə maraqlı araşdırmalar aparılmışdır [25].

Sufi mütəfəkkirlər öz əsərlərində ədəb qaydalarına, davranış tərzlərinə xüsusi yer ayırmışlar, hətta buna ayrıca əsərlər də həsr etmişlər. Bunlardan bir neçəsinin adını yuxarıda çəkmişdik. Sərrac Tusi də bu ənənələrdən kənarda qalmamış və «əl-Lümə‘» 27 babdan ibarət böyük bir fəsildə sufilərin ibadət qaydalarından tutmuş ölüm yatağındakı davranışlarına qədər təsvir və tədqiq etmişdir.

Növbəti fəsil təsəvvüfün vacib prinsiplərindən birinə – vəcdə həsr edilmişdir. Müəllif bu kateqoriyanı təsəvvüfdə idrak prosesinin vacib mərhələsi kimi açıqlamışdır. Bu kateqoriyanın tədqiqində Sərrac Tusi İbn Ə‘rabinin kitabından kiçik bir hissəni olduğu kimi vermişdir.

Sərrac Tusi sufizmdə geniş yayılmış və müəyyən ziddiyyətli fikirlərin yaranmasına səbəb olan kəramətlər üzərində də ayrıca dayanmış, yeddi bab çərçivəsində bu prinsipi açıqlamış, onun mahiyyətini şərh etmişdir. O, peyğəmbər və övliyalar arasında müqayisə apararaq onların hər birinə xas xüsusiyyətlərin fərqli cəhətlərini göstərmişdir.

Bir sufi deyir: «Kim bizim şeyxlərimizin rəmzlərinə vaqif olmaq istəsə, onların göndərdikləri məktublara baxsın. Çünki onların rəmzləri əsərlərində deyil, o məktublarındadır» [52, s. 414]. Bunu nəzərdə tutan Sərrac Tusi sufilərin məktub, dua, şeir və nəsihətlərinə də əsərində ayrıca fəsil əlavə etmişdir.

Sərrac Tusinin əsərində qarşısına qoyduğu məsələlərdən biri də təsəvvüfdə müəmmalı prinsip və müddəalara açıqlıq gətirmək,

onların əsl mahiyyətini göstərmək və bununla da sufizm barədə yaranmış mübahisəli fikirlərə cavab verməkdir. Buna görə də mütəfəkkir öz əsərində belə məsələlərdən heç birini nəzərdən qaçırmamağa çalışmışdır. Əvvəlcə o, 12 babdan ibarət bir fəsildə səma‘nın mahiyyətini şərh edir, onu təkcə rəqs etmək, şeir, nəğmə oxumaq, musiqi dinləmək ritualı kimi deyil, həm də təsəvvüfdə vəcd yaratma üsulu, Quran və müdrik kəlamlar dinləyib hikmət öyrənmək vasitəsi kimi təqdim edir.

Bu qəbildən olan digər bir fəsil isə sufilərin şəthiyyatlarına həsr edilmişdir. Sərrac Tusi onlar barədə müəyyən məlumat verəndən sonra bəzi görkəmli sufi şeyxlərin, o cümlədən Əbu Yəzid Bistaminin, Əbu Bəkr Şiblinin, Əbu Hüseyn Nurinin və başqalarının şəthiyyatlarından nümunələr göstərmiş, onların mənalarına dair geniş şərhlər vermişdir. Bu işdə o, öz mülahizələri ilə bərabər, digər sufi mütəfəkkirlərin də izahlarından istifadə etmişdir.

Bunlardan əlavə, mütəfəkkir müxtəlif sufi məsələlər barədə sufilərin fərqli cavab və mülahizələrinə də ayrıca fəsil ayırmış, fikir müxtəlifliyinin nədən irəli gəldiyini və bu fərqlərin yalnız zahirdə, deyiliş tərzində olduğunu, mahiyyətdə isə dəyişməz qaldığını göstərmişdir.

Bu məsələyə sonra yenə qayıdan Sərrac Tusi digər bir fəsildə sufi termin və kateqoriyalarının siyahısını və onların qısa şərhlərini də vermişdir.

Əsərin sonuncu fəsli sufilərin öz nəzəriyyə və təcrübələrində etdikləri səhvlərə həsr edilmişdir.* Sufilər barəsində yanlış və ziddiyyətli rəylərin yaranmasının bir səbəbini də bu səhvlərdə görən Sərrac Tusi bu fəsildə öz mülahizələrinə daha çox yer ayırmışdır.

Müəllif əsərində ilk tanınmış şeyxlərin dediklərindən, onlar haqqında rəvayətlərdən istifadə etmiş, müəyyən məsələ ilə bağlı onlardan sitatlar gətirmişdir. O, bir problemlə bağlı 10-dan çox

---

* Əbdürrəhman Süləmi «əl-Lümə‘»nin bu hissəsini öz adından ayrıca əsər kimi təqdim etmişdir [87, s. XVI].

sufinin cavabını vermiş və ya bu məsələni daha mükəmməl təsvir etmiş bir alimi nümunə göstərmişdir.

Sərrac yazır: «Bu kitabda mən isnadların çoxusunu gizlətmiş, xəbər, rəvayət və hədislərin mətnini qısaltmışam…» [52, s. 17]. R. Nikolson buna görə müəllifə irad tutur: «Müəllif bizim bütün tələblərimizə cavab verəcək bir əsər yazsaydı, daha əhəmiyyətli olardı» [30, s. VIII]. Lakin tədqiqatçı alim onu da qeyd edir ki, bu cür qısa stil əsərin geniş əhatəli olmasına mane olmur və orada mistik doktrinlər sistematik və mükəmməl bir şəkildə öyrənilib analiz edilmişdir.

Misir alimləri Sərrac Tusini «qədim və müasir dövrün ən böyük sufi tarixçisi» [52, s. 4], əsərini isə «tarix kitabı, elm məktəbi, zövq yolu, saliklərin (sufi yolçuların) bələdçisi, alimləri öyrədən işıq» adlandırmışlar [52, s. 10].

Sərrac Tusinin «əl-Lümə‘» əsəri təsəvvüf fəlsəfə tarixinin inkişaf mərhələsinin əvvəlini əhatə edir. Onun öz əsərində qarşısına qoyduğu məqsəd təsəvvüfün islam dini zəminində yaranmış və inkişaf etmiş saf təfəkkür kimi aydın və mükəmməl təsvirini yaratmaq olmuşdur. Bunun nə dərəcədə ağır bir iş olduğunu anlayan müəllif öz düşüncələrinin dayaq nöqtəsini ilk əvvəl Quran və sünnədə, sonra isə görkəmli sufi mütəfəkkirlərin fikir və mülahizələrində tapmışdır. Müəllif yazır: «Bütün məlum elm və məfhumlar Allah-Təalanın kitabında, Peyğəmbərin () dediklərində var, ya da onlar Allahın övliyalarının ürəklərinə endirilmişdir. Bu bəyanı rədd edən həlak olar, yaşadan yaşayar. Həqiqətən, Allah eşidəndir, biləndir» [52, s. 17]. O, kitabda etibarlı, düzgün mənbələrdən götürülmüş təqribən 380-ə yaxın hədisdən istifadə etmişdir. Bu və başqa arqumentlərlə mütəfəkkir təsəvvüfün islam dininə əsaslandığını göstərməyə çalışmışdır.

Əsərində müxtəlif sufi prinsip və kateqoriyaların şərhində digər mütəfəkkirlərin yanında kölgədə dayanan Sərrac Tusi təsəvvüfün müəmmalı, mürəkkəb ziddiyyətlərə səbəb olan məsələlərində ön plana keçir, öz fikirlərini daha açıq, qabarıq şəkildə bildirir. Məsələ burasındadır ki, Sərrac Tusiyə qədər təsəvvüfün görkəmli nümayəndələri tərəfindən sufizmin prinsipial

məsələləri, müddəaları hərtərəfli şərh edilmiş, bu barədə əsərlər yazılmış, məktublaşmalar olmuşdur. Bağdad sufi məktəbinin layiqli bir nümayəndəsi kimi Sərrac Tusi bu məsələlərin həllində öz sələflərinin mülahizələrinə üstünlük verərək özü yalnız müəyyən əlavə və izahlarla kifayətlənmişdir.

Mübahisəli, müəmmalı müddəalarda isə vəziyyət başqa idi. Belə ki, təsəvvüfün özünü, mənasını, həqiqətini, yaxud şəxsi hal və hisslərini şərh edən sufi mütəfəkkirləri yazdıqlarının oxucu üçün aydın olub-olmaması maraqlandırmırdı. Onlar təsəvvüf barədə yanlış məlumatların yayılması, yaxud sufi yolçuluğunda baş verə biləcək səhv addım və bu addımın nəticəsi üzərində ciddi dayanmırdılar. Bir sözlə, onlar öz mülahizələrini hər kəsdən gizli saxlamağa çalışır, yazdıqlarını həmkarları, yəni bu yolu anlayıb duyanlar üçün yazırdılar. Lakin yalnız sufilər üçün nəzərdə tutulmuş əsərlər hər kəs tərəfindən oxunurdu və bunun nəticəsi sufilər üçün xoş olmurdu. Bundan əlavə, artıq X əsrdə elmdən, şəriətdən uzaq yalançı sufilər hədsiz dərəcədə artmışdı və onlar sufi müddəalarını öz bilik səviyyələrinə uyğun yozub xalqa çatdırır və bununla da təsəvvüf barədə, həqiqətən, çox uzaq təsəvvür yaradırdılar. Sərrac Tusi öz əsərini bu təhlükənin qarşısını almaq, anlaşılmazlıqları mümkün qədər həll etmək üçün yazmışdır. Mütəfəkkir təsəvvüfün mahiyyətini açıqlamaqla, bu barədə görkəmli sufi şəxsiyyətləri «danışdırmaqla» bərabər, təsəvvüfün üzərini almış təhlükənin mahiyyətini, vura biləcəyi zərbələri izah etmişdir. Onun sufi termin və rəmzlərini sistemə salıb, onların tərif və şərhlərini verməsi də bu məqsədə xidmət edir.

Sufi prinsip və müddəalarının şərhi «əl-Lümə‘»də ayrı-ayrılıqda verilsə də, onlar arasında görünməz bir əlaqə mövcuddur. Bu əlaqəni sezən oxucu əsərdə təqdim edilən təsəvvüf fəlsəfəsinin aydın sistemini görə bilər. Belə ki, Sərrac Tusi sadədən mürəkkəbə, zahirdən batinə doğru istiqamətlənən idrak prosesinin «ilm əl-yəqin» və «ayn əl-yəqin» mərhələlərinin kateqoriyalarını, hər mərhələdə açılan həqiqətləri, mə‘rifətin qatlarını izah edərək bu prosesin zirvəsinə – «haqq əl-yəqin»ə çatır. Onu da qeyd edək

ki, mütəfəkkir biliyin, həqiqətin transendent səviyyəsi kimi sonuncu mərhələnin mahiyyətinə toxunmamışdır.

«əl-Lümə‘»də varlıq nəzəriyyəsi məhz bu təfəkkürdən qaynaqlanan bir nəzəriyyə kimi təqdim edilmişdir. Sərrac Tusi burada da prinsipinə sadiq qalaraq öz mülahizələrini qısaltmışdır. Lakin bu problemin hüluliyyə, ruh, fəna-bəqa və s. kateqoriyaları mütəfəkkirin özünün fikir yürütdüyü məsələlərdəndir. Bu, həmin müddəaların o dövrdə də mübahisəli olduğundan xəbər verir. Nəzəriyyənin özəyi, əsas təməl nöqtəsi olan tövhid problemi isə əsər boyu müxtəlif yönlərdən izah edilir. Bu, həmin məsələdə sufilər arasında bir fikir birliyinin olmasına dəlalət edir.

Fəlsəfi sistemin üçüncü böyük problemi olan əxlaq nəzəriyyəsi də «əl-Lümə‘»də öz əksini tapmışdır. Öz sələfləri kimi o da əsərində ədəb qaydalarının sufi yolçuluğunda hansı rol oynadığını göstərmək üçün onlara xüsusi yer ayırır və onların da məhz saf bir təfəkkürdən qaynaqlandığını, xeyirin və şərin insanın öz niyyətindən irəli gəldiyini vurğulayır.

Əlbəttə, bu, bir həqiqətdir ki, Sərrac Tusinin əsərində hələ rüşeym halında olan, sadə dillə (sufizm üçün bu nə dərəcədə mümkündürsə) şərh edilən prinsiplər sonralar sufi mütəfəkkirlər tərəfindən daha da dərinləşdirilib, kamil sistem halına salınmışdır. Lakin «əl-Lümə‘» əsərinin bu kamillik binasının təməl daşlarından olması da bir danılmaz həqiqətdir. Buna o həm başlanğıcını qoyduğu ənənə ilə, həm də əsərində qarşısına qoyduğu məqsədi layiqincə yerinə yetirə bilməsi ilə haqq qazanmışdır.

*SƏRRAC TUSİ*

# ƏL-LÜMƏ‘

♦ 1 ♥

الطوسي ابو نصر السراج

اللمع

***(Ərəbcə mətnin tərcüməsi)***

## *«Biz əvvəllər bu adı eşitməmişik, bu, yeni addır», – deyənlərə cavab.*

Biri soruşur: «Biz Peyğəmbərin (ﷺ) əshabələrinə sufi deyildiyini eşitməmişik. Biz ancaq abid, zahid, səyyah, fəqir adlarını bilirik. Peyğəmbər (ﷺ) əshabələrindən heç birinə sufi deməyiblər».

Allah bilən yaxşıdır. Biz deyirik: Peyğəmbərlə (ﷺ) söhbət etmək və onun söhbətlərində iştirak etmək xüsusi hörmətdir. Onlar üçün dost adından daha şərəfli ad yoxdur. Bu, Peyğəmbərə (ﷺ) də şərəf və hörmətdir. Görmürsənmi onlar zahid, abid, mütəvəkkil, fəqir, razılar, sabirlər və sairdirlər? Onlar nail olduqlarının hamısına Peygəmbərlə (ﷺ) söhbətin bərəkəti sayəsində çatıblar. Onlar halların ən ucası olan söhbətə aid edilirlər, çünki halların ən şərəflisi olan söhbətdən başqa bir fəzilətlə fərqləndirilə bilməzlər.

Bəziləri: «Bu, bağdadlıların uydurduğu addır», – deyirlər. Bu da mümkün deyil, çünki Həsən Bəsrinin zamanında bu ad artıq tanınırdı. Həsən əshabələrdən bəziləri ilə görüşmüşdür. Onun belə dediyi rəvayət edilir: «Kəbəni tavaf edən* bir sufi gördüm, ona bir şey vermək istədim, almadı. Dedi: «Mənim dörd dirhəmim** var, məndəki mənə bəsdir». Süfyan Səvrinin isə belə dediyi nəql edilir: «Əbu Həşim Sufi olmasaydı, mən riyanı*** dəqiqliklə tanımazdım». «Məkkə xəbərləri» kitabında Məhəmməd b. İshaq b. Yəsardan və başqalarından belə bir rəvayət edilir: «İslamdan qabaq Məkkə boş idi. Hətta Beyti [Kəbəni] dolanacaq adam belə yox idi. Uzaq ölkədən bir sufi gələr, Beyti dolanar, gedərdi». Əgər

---

* Tavaf – Kəbənin ətrafına dolanmaq.

** Dirhəm – dəmir pul. Bunu dörd səmavi kitab kimi yozanlar da var.

*** Burada sufinin daxili aləmini, ilahi sirrini ətrafdakılardan, cəmiyyətdən gizli saxlaya bilmək bacarığı nəzərdə tutulur.

bu, düzdürsə, bu, onu göstərir ki, islamdan qabaq bu ad tanınırdı və o, fəzilətli saleh şəxsə verilirdi.

### *Sufi adı barədə açıqlama. Niyə bu adla adlandırılıb, bu geyimlə səciyyələndirilirlər.*

Şeyx deyir: Biri soruşsa ki, hədis sahiblərini hədisə, fəqihləri fiqhə aid etdin, bəs nə üçün sufiləri elmə yox, [hər hansı bir] hala aid edirsən? Niyə zahidlər zahidliyə, mütəvəkkillər təvəkkülə, sabirlər səbrə aid edildiyi kimi, sufilər də bir hala aid edilmirlər?

Onun cavabı budur: Çünki sufilər bir elmlə fərqləndirilməzlər. Onlar hal və məqamın hər hansı bir növü ilə səciyyələnməzlər, onlarda əvvəldə və axırda mövcud olan bütün elmlərin mənbəyi, bütün fəzilətli halların, şərəfli əxlaqın yeri var. Onlar Allahla [bərabər] haldan-hala keçir və daha üstününə can atırlar. Onlar, həqiqətən, belə olduqlarına görə bir adla kifayətlənməzlər. Buna görə də mən onları hər hansı bir halla, elmlə təsvir etmirəm. Əgər mən hər dəfə onları olduqları hal, əxlaq, elm, əməllə adlandırsam, gərək hər dəfə başqa ad qoyam, hər dəfə onları içində olduqları ən üstün hala aid edəm. Belə mümkün olmadığına görə onları zahiri geyimləri ilə səciyyələndirdim, çünki suf (yun geyim) peyğəmbərlərin adəti, övliya və saf şəxslərin şüarıdır. Bu barədə çoxlu rəvayət və hekayətlər var. Onlara geyimlərinə uyğun verdiyim ad bütün elmləri, əməlləri, əxlaqı, şərəf və ləyaqətli halları özündə birləşdirir. Görmürsənmi Allah İsanın əshabələrindən seçdiklərinə geyimlərinə görə ad verir? □Əgər həvarilər desə□ (Quran 5/112)? Onlar da ağ paltar geyinmişlər, buna görə də Allah-Təala bu adı vermiş, onları elmə, əmələ, halın növünə aid etməmişdir. Sufilər də həmçinin. Allah bilən yaxşıdır, amma onlara da hallarının növlərinə görə yox, geyimlərinə görə bu ad verilib, çunki suf (yun) peyğəmbərlərin ənənəvi geyimi, kasıbların şüarıdır.

## *Sufilərin fəqihlərə etirazları. Dində fiqhin izahı və dəlilləri haqqında.*

Şeyx [Əbu Nəsr] deyir: Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Allah xeyir vermək istədiyi şəxsi dində fəqih edir». Mənə Həsən Bəsri barədə belə bir rəvayət çatıb: «Ona deyirlər ki, filan fəqihdir!» Cavab verir: «Sən heç fəqih görübsən? Fəqih dünyada zahid, axirəti çox istəyən, dininin əmrlərini anlayandır. Allah da buyurur: Dini dəqiqliklə öyrənmələri üçün (Quran 9/122) o [fəqih], bütün hökümlərin hamısını zahirən və batinən ehtiva edəndir».

Qeyd olunan bu halların hökmlərini, bu məqamların mənasını anlamağın əhəmiyyəti boşanma, kölə azad etmə, zihar*, qisas, şər‘i hüdudlar, miras qanunlarından az deyil. Çünki belə hadisələr həyatda, ola bilsin ki, heç baş verməsin və onu bilməyə də heç ehtiyac olmasın. Belə bir şey olanda isə onu bu işin bilicisindən soruşur, fəqihlərdən birinin dediyini qəbul edir və başqa bir hadisəyə qədər sakitləşirlər.

Hal, məqam, mücahidə sufilərin anladıqları və həqiqətləri barədə danışdıqlarıdır. Möminlərin buna ehtiyacı var və bunu bilmək vacibdir. Bunun üçün xüsusi vaxt ayrılmır. O, sidq, səmimiyyət, zikr, qəflətdən uzaq olmaq və başqa belə şeylər kimidir, ona müəyyən vaxt lazım deyil, ancaq bəndə hər bir anda, düşüncədə özünün məqsədini, iradəsini, fikirlərini bilməlidir. Əgər hüquqlardan biri onun üçün vacib olarsa, onu etməli, həzlərdən biri vacib olarsa, ondan uzaqlaşmalıdır. Allah öz Peyğəmbərinə (ﷺ) buyurur: Qəlbini bizi anmaqdan bağladığımız, öz istəklərinə uymuş, işində ifrata varanlardan olma (Quran 18/28).

---

* Qadınlara əziyyət vermək üçün bir vasitə: qadın boşanmış sayılsa da, bir başqasına ərə gedə bilməz.

Bu hallardan birini tərk edən yalnız qəlbində qəflətə qalib gələndir. Bil ki, sufilərin bu elmlərin mənasını, onların incəlikləri-ni, həqiqətlərini öyrənməyə dair çıxartdıqları hökmlər fəqihlərin zahiri hökmlərin mənası barədə çıxartdıqları hökmlərdən çoxdur, çünki bu elmin sonu yoxdur, çünki o, əta [bəxş] dənizindən öz əhlinin anladığı işarətlər, işartılar, düşüncələr, ətalar, ilhamlardır. Qalan elmlər məhdud çərçivəlidir, bütün elmlər təsəvvüf elminə aparıb çıxarır, təsəvvüf elmi də ancaq təsəvvüf elmindən bir növə aparır və onun sonu yoxdur. Çünki Məqsudun (məqsəd olanın) sonu yoxdur. O, Allahın öz övliyalarının ürəklərinə Onun kəlamlarının anlamına dair, xitablarından hökm çıxarmaq üçün istədiyi şeyi istədiyi kimi açdığı kəşf elmidir.

Allah Peyğəmbərinə (ﷺ) buyurur: □De ki, dəniz Rəbbimin sözlərini yazmaq üçün mürəkkəb olsa, bir o qədər də əlavə etsək, Rəbbimin sözləri tükənmədən o tükənər□ (Quran 18/109). Deyir: □Şükür etsəniz, sizin üçün artıraram□ (Quran 14/7). Allahın [öz nemətlərini] artırmasının sonu yoxdur. Şükür sonsuz artırmanı vacib edən şükrü vacib edən nemətdir.

Müvəffəqiyyət Allahladır.

### *Mə‘rifət haqqında deyilənlər.*
### *Arifin sifəti və onun həqiqətlərinin izahı.*

Əbu Səid Xərraz mə‘rifət haqqında verilən suala belə cavab verir: «Mə‘rifət iki yerdən gəlir: Allahın kərəmi ilə və qulun[*] öz cəhdi ilə».

Əbu Turab Nəxşəbi arifin sifətinə dair belə söyləyir: «Onu heç nə kirlətmir, onunla hər şey saflaşır».

Əhməd b. Əta deyir: «Mə‘rifət iki cürdür: Haqqın mə‘rifəti və Həqiqətin mə‘rifəti. Haqqın mə‘rifəti – Onun vahidliyinin tanınması, Onun xəlq üçün aşkar etdiyi ad və sifətlərinə görə tanınmasıdır. Həqiqətin mə‘rifətinə isə [Allahın] əzəli və ilahi olması səbəbindən yol yoxdur. □Onu elmlə əhatə edə bilməzlər□ (Quran 20/110)».

Əbu Nəsr deyir: «Ona yol yoxdur»un mənası Onu olduğu kimi tanımaq deməkdir, bu, o deməkdir ki, Allah öz yaratdıqlarına onların anlaya biləcəyi qədər özünün ad və sifətlərini açır, çünki Onun mə‘rifətinin həqiqətinin bir zərrəsi belə xəlq üçün ağırdır, kainat içindəkilərlə Onun əzəmətinin şiddətinin təzahürünün ilk zərrəsindən məhv olar. Buna görə də deyirlər: «Onu Ondan başqa tanıyan, Ondan başqa sevən yoxdur, çünki səmədiyyət əhatə və idrakolunmazdır. Allah buyurur: □Onun elmindən heç bir şeyi əhatə edə bilməzlər□ (Quran 2/255)».

Bu mənada Əbu Bəkr Sıddıqın belə dediyini söyləyirlər: «Xəlq üçün tanınmasına tanımağın acizliyindən başqa yol qoymayana sübhan olsun».

Şiblidən soruşurlar: «Arif nə zaman Haqqın müşahidə yeri olur?» Cavab verir: «Şahid təzahür edərsə və şahidlər məhv

---

[*] Tərcümə zamanı عبد (abd) sözünü bir çox yerdə bəndə deyil, qul kimi tərcümə etmişik və bununla həmin sözün mənasında olan Allaha itaətkarlığı, Onun qarşısında acizliyi nəzərə çatdırmağa çalışmışıq.

olarsa, hisslər gedər, duyğular itər». Yenə soruşurlar: «Bu işin əvvəli nədir, sonu nə?» Deyir: «Əvvəli Onun tanınması, sonu Onun tövhididir». Sonra əlavə edir: «Mə‘rifətin əlamətləri özünü Ucalığın ovcunda görməkdir. Onun əlaməti məhəbbətdir, çünki Onu tanıyan Onu sevər».

Əbu Yəzid Tayfur b. İsa Bistamidən arifin sifəti barədə soruşanda belə cavab verir: «Suyun rəngi qabının rənginə görədir. Su ağ qabda olarsa, rəngi ağ, qara qabda olarsa, qara, sarı qabda – sarı, qırmızı qabda – qırmızı və s. olar. Arif və vəlilər də belədirlər. Hal nədirsə, sufi də odur. Hallar dəyişir, halların sahibi Onun yaxınıdır».

Şeyx deyir: Allah bilir, amma bunun mənası budur ki, su öz keyfiyyətinin imkanına görə öz qabının rəngində olur. Qabının rəngi onun sifətini və halını dəyişə bilməz. Ona baxan ağ, yaxud qara zənn edər və qabı ilə mənaca eyni bilər. Arif də belədir. Onun qadir və qüdrətli Allahla olan sifəti hallarına görə dəyişir, Allah-Təala ilə olan sirri isə mənaca birdir.

Cüneyddən ariflərin düşündükləri barədə soruşanda belə cavab verir: «[Ariflər] təsvir edənlərin təsvirindən uzaqdırlar».

Birisi mə‘rifət barədə suala belə cavab verdi: «Allahı tanımanın incəlikləri məsələsində ürəklərin Onun təkliyinin incəliklərinə varmasıdır».

Cüneyddən soruşurlar: «Ey Əbu‘l-Qasim, ariflərin Allahdan istədikləri nədir?» Deyir: «Onların ehtiyacı Onadır: onları müdafiə və mühafizə etməsinədir».

Məhəmməd b. Müfəddəl Səmərqəndi isə belə deyir: «Onun nə onların özünə, nə seçiminə ehtiyacı var. Onlar nail olduqlarına ehtiyac və seçimsiz çatıblar, çünki ariflərin var olmaqları, bəqa və fənaları onları var edənlə bərabərdir».

Yenə Məhəmməd b. Müfəddəldən soruşurlar: «Ariflərin ehtiyacı nəyədir?» Bildirir: «Onların ehtiyacı gözəlliklərin hamısını kamilləşdirən, itirilməsi ilə bütün rəzalətləri meydana çıxaran bir xasiyyətədir və bu, səmimiyyətdir».

Yəhya b. Müaz arifin sifəti barədə söyləyir: «Onlar insanların arasında, amma onlardan aralıdırlar». Növbəti dəfə ariflər barədə suala isə belə cavab verir: «Var olan və aşkarlanan quldur».

Əbu Hüseyn Nuriyə deyirlər: «Necə olur ki, əql Onu dərk edə bilmir, amma O ancaq əqllə tanınır». «Müddəti olan müddətsizi necə dərk etsin, naqis olan nöqsansızı, sağlamı necə dərk etsin; keyfiyyəti keyfiyyətləndirən necə keyfiyyətlənə bilər, vəziyyətləri nizamlayan necə nizamlana bilər? Məkana ad verən, ilkə ilk, sona son adını verən, onları ilk və son adlandıran Odur. O, əvvəlin əvvəli, sonun sonu olmasaydı, əvvəl və son nədir bilinməzdi», – söyləyir.

Sonra əlavə edir: «Həqiqətdə əzəliyyət sadəcə əbədiyyətdir. Onlar arasında fərq yoxdur. Həmçinin əvvəl elə axırdır, axır elə əvvəl. Zahir və batin də eləcə. Lakin o gah səndən pərdələnər, gah da zövqü artırıb bəndəliyi göstərmək üçün zühur edər; Onu xilqətlə tanıyan Onu vasitəsiz tanımır, çünki xilqət Onun «Ol» deməyinin mənasına bağlıdır, vasitəsizlik isə müqəddəsliyin izharıdır. Mən deyirəm ki, vasitəsizlik yəqinin vasitəsizliyi və qəlbin qeybə imanının həqiqətlərini müşahidə etməsidir».

Şeyx deyir: «Allah bilər, amma məna budur ki, o, işarə edir ki, «Zamanla təyin etmək və sözlə ifadə etmək Allah üçün qəbul deyil. O olduğu kimi var, elə də olacaq. Onun üçün ən uzaq ən yaxındır, ən yaxın isə ən uzaq. Həqiqətən, bu fərqlər xəlq üçün xəlqilik baxımındandır, yaxınlıq və uzaqlıq, qəzəb və razılıq fərqləri xəlq üçün olan sifətlərdir, onlar Haqqın sifətləri deyil. Allah bilən yaxşıdır».

Əhməd b. Əta mə‘rifətin mənasına dair söyləyir (bu sözləri Əbu Bəkr Vasitiyə də aid edirlər, əslində, onları İbn Əta söyləyib) «Qəbahətlər Onun pərdələnməsi, yaxınlıqlar Onun təcəllisi ilə olur. Hər ikisi əbədiyyətə aid edilən sifətlərdir. [O], qəbul yaxud rədd edilənlər üzərində iz qoyar. Rədd olunanlar üzərində Onun pərdələnməsinin şahidləri bütün zülməti ilə təcəlli etdiyi kimi, qəbul olunanlar üzərində də işığı ilə edər. Bundan sonra nə sarı rəng, nə də qısalıq fayda verər!»

İbn Ətanın sözlərinin mənası Əbu Süleyman Əbdürrəhman b. Əhməd Dəraninin dediklərinə yaxındır: «Xəlqin əməlləri Onun qəzəblənməsindən, yaxud razı qalmasından asılı deyil. O bir qövmdən razı qalanda razılıq əhlinin, qövmə qəzəbləndə isə qəzəb əhlinin əməllərini onlara etdirər».

İbn Ətanın söylədiklərinin mənası belədir: «Qəbahətlər Onun pərdələnməsindəndir, yəni O, buna (qəbahətə) imkan verir. Yaxşılıqlar isə Onun təcəllisindən irəli gəlir, yəni onlara razılıq verib, qəbul edir».

Bu da onların mənasına aiddir: «Rəsul əlində iki kitab çıxır. Biri sağ əlində, biri sol. «Bu kitabda cənnət əhlinin və onların atalarının adları var, bunda isə cəhənnəm əhlinin», – söyləyir».

Əbu Bəkr Vasiti deyir: «O, özünü seçilmişlərə tanıdanda onların nəfsləri yanır, onlara həzlərin dəlillərini açan İlk olanın dəlilləri ilə yalnızlığın şahidi olmazlar. Bu mənanı anlayan hər kəs də beləcə olur».

Allah bilir, amma bu sözün mənası belədir: «Məbudun özünü tanıtdığı dəlillə ilkin şahidi olan **[**şəxs**]** Onun mə‘rifəti ilə Ondan savayı olan şeylərlə yalnızlıq hiss etməz, onlarla ünsiyyət istəməz».

### *Zahir əhlinin kəraməti inkar etməsinin dəlilləri haqqında və övliya üçün bunun mümkünlüyünün isbatı. Övliya və peyğəmbərlər arasındakı fərqə dair.*

Şeyx dedi: Zahir əhli deyir: «Kəramətlərin varlığı peyğəmbərlərdən başqası üçün qəbul deyil, çünki peyğəmbərlər bununla seçilirlər. Ayətlər, möcüzələr, kəramətlər eyni şeydir. Onlar möcüzə adlandırılır, çünki oxşar şeyi etməkdə xəlq acizdir. Kim bunu Peyğəmbərdən (ﷺ) başqasında sübut etməyə çalışsa, onları eyni tutmuş olur, peyğəmbərlərlə onlar arasında fərq qoymur».

Şeyx dedi: Bunu inkar edən peyğəmbərlərin möcüzəsində bir nöqsan (zəiflik) olmasından çəkinir. Bunu deyənlər səhv edir, çünki onlarla (sufilərlə) peyğəmbərlər arasında bu məsələdə fərqlər mövcuddur.

Əvvəla, peyğəmbərlər bunu (möcüzələri) xalqa göstərməli, onunla xalqı Allaha dəvət etməlidirlər. Onu gizlətməklə Allaha zidd getmiş olarlar; övliyalar isə bunu xalqdan gizlətməklə Allaha ibadət edirlər. Onlar xalqın yanında bir mövqe tutmaq üçün bir möcüzə göstərsələr, Allaha asi düşmüş olarlar.

İkincisi, peyğəmbərlər möcüzələrlə müşriklərə qarşı vuruşurlar, çünki onların (müşriklərin) qəlbi sərtləşib, uca Allaha inanmırlar. Övliyalar isə bununla öz nəfslərinə dəlil gətirir, onları sakitləşdirir, inandırır, ruzisini itirəndə iztirab çəkməyə, üsyan etməyə qoymurlar, çünki o (nəfs), pisliyi əmr edir, Allaha şərik qoşmağa çalışır, şübhəyə düşür. O əmin deyil ki, Xaliq onun ruzisini verməyi öz öhdəsinə götürmüş və buna and içmişdir.

İbn Salimdən bu barədə soruşdum: «Kəramətin mənası nədir ki, onlara verilib, onlar öz ixtiyarları ilə dünyanı tərk edirlər? Daşı qızıl etmək kəraməti necə olur? Bunun məqsədi nədir?» Dedi: «Kəramət onlara dəyərlərinə görə verilmir. Bu, onların nəfsləri Allahın onlar üçün ayırdığı ruzinin itməsindən yaranan iztirab və qorxu zamanı verilir ki, desinlər: «Görəsən, daşı qızıla çevirməyə

Qadir olanın ummadığın bir yerdən sənə ruzi göndərməyə qüdrəti çatmaz?» Onlar bununla ruzisini itirmiş nəfslərinin sübutlarını kəsirlər. Bu, onların nəfslərinin təlim və tərbiyəsi üçündür».

İbn Salim bu mənada Səhl b. Abdullahdan belə bir hekayə danışdı: «Bəsrə əhlindən biri – İshaq b. Əhməd tərki-dünya oldu (zahid oldu), tövbə etdi və Səhlin dostu oldu. Bir gün Şeyxdən soruşdu: «Ey Əbu Məhəmməd, mənim nəfsimi yeyib-içmək, arxasını, dayağını itirmək qorxusu bürüyüb, onu narazılıq, üsyan hissi tərk etmir». Səhl dedi: «Götür bu daşı, Rəbbinə dua et, onu sənə təam edər, yeyərsən». Yenə soruşdu: «Bunda mənim imamım kimdir ki, mən də edim?» Səhl belə cavab verdi: «Sənin imamın İbrahim peyğəmbərdir ki, deyib: □İbrahim Rəbbinə: «Ölüləri necə diriltdiyini göstər», – dedi. Dedi: «Yoxsa inanmırsan?» İbrahim: «Bəli (inanıram), amma qəlbimin əminliyi üçün», – söylədi□ (Quran 2/260).

Bunun mənası odur ki, nəfs ancaq gözü ilə gördüyünə inanır, çünki şəkk onun mayasındadır. İbrahim peyğəmbər dedi ki, «nəfsimin necə əmin olmasını mənə göstər, mən bununla inanaram. Nəfs ancaq gözü ilə gördüyünə inanır».

Allah-Təala övliyalara da kəramətləri öz nəfslərini tərbiyə etmək, təmizləmək, [inamlarını] artırmaq üçün verib. Bu işdə onlarla peyğəmbərlər arasında fərq var, çünki möcüzə dəvətə sübut, Allah-Təalaya dəlildir və Onun vahidliyinin təsdiqi üçün verilir.

Nəhayət, üçüncüsü, peyğəmbərlərin möcüzəsi artdıqca, onların mənəviyyatları kamilləşir, tamamlanır, ürəkləri sabitləşir. Bizim Peyğəmbərimiz (ﷺ) kimi. Ona bütün peyğəmbərlərə verilən möcüzələrin hamısı verilmişdi və onlardan heç birinə verilməyən bir şey (merac, ayı bölmək, barmaqlarından su damcılarının axması kimi şeylər) də verilmişdir.

Bunun şərhi uzundur. Demək istəyirik ki, peyğəmbərlərin möcüzələri artdıqca, mənəviyyatları, fəzilətləri kamilləşir. Övliyaların kəramətləri artanda isə onların qorxusu, hürküsü artır ki, bu, onların gizli məkrindəndir. Bu, onların Allah yanında mənzillərini aşağı endirər.

# HALLAR VƏ MƏQAMLAR

## *Məqamlar və onların həqiqətləri*

Şeyxdən məqamın mənasını soruşanda deyir: «Bu, qulun Allah qarşısında dua etməsi, ibadətlər, mücahidələr (cəhdlər, çarpışmalar), riyazət (çalışma), özünü Allaha həsr etməsidir».

Allah-Təala buyurur: ﴾Bu, məqamımdan qorxan və hədələrdən çəkinənlər üçündür﴿ (Quran 14/14), ﴾Hər birimizin məlum məqamımız var﴿ (Quran 37/164).

Əbu Bəkr Vasitidən Peyğəmbərin (ﷺ): «Ruhlar düzülmüş ordudur», – deməsi barədə soruşanda deyir: «Düzülmüş (səfərbər olunmuş) məqamları bildirir».

Məqamlar tövbə, qorxu (vəra‘), zühd, fəqirlik, səbir, razılıq, təvəkkül və başqalarıdır.

## *Halların mənası*

Şeyx deyir: Hallar zikrin saflığından ürəklərdə doğandır, yaxud ürəklərin onunla doğulmasıdır.

Cüneyd isə: «Hal ürəklərə enib, davam etmir», – söyləyir.

Həmçinin bildirirlər ki, «Hal gizli zikrdir». Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Zikrin xeyri onun gizli olmasındadır».

Hallar bizim qeyd etdiyimiz məqamlar kimi, mücahidə, ibadət, riyazət yolu ilə olmur. Onlar (hallar) müraqəbə (özünənəzarət), yaxınlıq, məhəbbət, xof, rica, şövq, üns, əminlik, müşahidə, yəqinlik və sairdir.

Əbu Süleyman Dərani deyir: «Çalışma ürəyə keçəndə əzalar dincəlir».

Bunun iki mənası var: əvvəla, o demək istəyir ki, o, ürəyini Allahın zikrinə mane olacaq düşüncələrdən sirrinə riayəti qorumaqla məşğuldursa, əzalar cəhdlərdən və böyük çalışmalardan dincəlir.

İkincisi budur ki, mücahidə, əməl, ibadət ürəkdə yerləşir və oranı özünə vətən edir və ürək bundan ləzzət alır, şirinlik tapır, yorğunluq, əvvəlki ağrılar onu tərk edir.

Bu sözləri Məhəmməd b. Vasi‘nin söylədiyi güman edilir: «İyirmi il gecələr oyaq oldum (dözdüm), iyirmi il də bundan nemətləndim».

Bir başqası, ola bilsin, Malik b. Dinar demişdir: «İyirmi il Quranı oxuyarkən çətinlik çəkdim, sonra iyirmi il bunun ləzzətini duydum».

Cüneyd deyir: «Hüquqlara riayətə ancaq ürəkləri qorumaqla çatmaq olar. Sirri olmayan inadkardır, inadın səmimiyyəti gözəl olmaz».

Şeyxlərin məqam və hallar haqqında sözləri çoxdur, lakin biz ixtisarla təqdim etdik.

Müvəffəqiyyət Allahladır.

### *Tövbə məqamı*

Əbu Yəqub b. Həmdan Susi deyir: «Allaha aparan məqamlardan birincisi tövbədir». Susidən tövbə barədə soruşanda cavab verir: «Tövbə elmin (şəriət nəzərdə tutulur) qəbul etmədiyi hər bir şeydən elmin üstün bildiyi şeyə qayıtmaqdır».

Səhl b. Abdullah: «Tövbə öz günahlarını unutmamaqdır», Cüneyd isə: «Tövbə günahlarını unutmaqdır», – söyləyir.

Şeyx deyir: Susinin verdiyi cavab müridlərin, yeni başlayanların, tələbələrin, qarşılarına məqsəd qoyanların, yəni gah elə, gah belə olan kimsələrin tövbəsi haqqındadır. Səhlin cavabı da o cümlədən. Cüneydin: «Günahlarını unutmaq», – deməyi isə həqiqət əhlinin tövbəsi haqqındadır. Onlar davamlı zikrdən, Allah əzəmətinin ürəklərinə hakim kəsilməsindən öz günahlarını xatırlamırlar. Bu, Rüveym b. Əhmədin: «Tövbədən tövbə», – dediyi kimidir.

Zu‘n-Nundan tövbə haqqında soruşanda bildirir: «Ümumi tövbə günahlardan, xüsusi tövbə isə qəflətdəndir».

Mə‘rifət və vəcd əhlinin və seçilmişlərin seçilmişlərinin dilində tövbə belədir:

Əbu Hüseyn Nuri deyir: «Tövbə Allahdan başqa hər şeydən tövbə etməkdir».

«Yaxınların (yaxınlıq halına çatanların) günahları salehlərin yaxşılıqları kimidir», – deyən Zu‘n-Nun da buna işarə edir. Bu da onun sözləridir: «Ariflərin riyası müridlərin səmimiyyətidir, çünki ariflər bununla öz məqsədlərində, yollarının başında Allah-Təalaya yaxınlaşır və [Allah tərəfindən] yaxınlığa və itaətə yönəldilirlər. Bununla sabitləşəndə onu hidayətin nurları bürüyər, qayğısı [narahatlığı] artar, riayətə çağırılar, qəlbi Rəbbinin əzəmətindən [ona rəva görülənin] şahidi olar, Yaradıcısının sənətini, Onun lütflərinin əzəliliyini düşünər, iradə və başlanğıcları zamanı əvvəlki itaət, əməl və yaxınlıqlarındakı mülahizə, rahatlıq və iltifatlardan tövbə edər, o biri zillət və qəflətdən. Bir başqası yaxşılıqların və itaətlərin görüntüsündən».

Tövbə vəra‘nı vacib edir.

## ***Vəra‘ məqamı***
## *(Allahdan qorxmaq)*

Şeyx deyir: Vəra‘ şərəfli məqamdır. Peyğəmbər (ﷺ) deyir: «Dinimizin əsası vəra‘dır».

Vəra‘ əhli üç təbəqə olur: birincisi adamı bürüyən şübhələrdən qorxmaqdır. Məlum halal və məlum haram arasında olan, mütləq halal və mütləq haram adı olmayan şeydən qorxmaqdır.

Bu, İbn Sirinin dediyi kimidir: «Mənim üçün Allah qorxusundan başqa heç nəyin əhəmiyyəti yoxdur. Məni nə isə incidəndə, narahat edəndə həmin şeyi tərk edirəm».

İkincisi ürəyi dondurub, onu şübhələrlə bürüyən şeydən qorxmaqdır. Bu yalnız könüllər sultanı və həqiqət əhlinə

məxsusdur. Peyğəmbərin (ﷺ) belə dediyini söyləyirlər: «Pislik sinənizi sıxan bir şeydir».

Əbu Səid Xərraz deyir: «Vəra‘ (Allahdan qorxmaq) xəlqin zərrə misqalı qədər pisliyindən də təmizlənmək, ürəkdən arzu etməkdir ki, heç kimin qibləsi, duası, istəyi zülmət olmasın».

Söyləyirlər ki, Haris Mühasibinin əli şübhəli şeyə uzanmazmış. Cəfər Xuldi deyir: «O (Mühasibi), əlini şübhəli bir şeyə uzadanda barmağının ucunda damar atardı».

Rəvayətə görə, Bişr Hafini bir yerə dəvət edirlər və qarşısına yemək qoyurlar. Əlini uzatmaq istəyəndə alınmır, bir də cəhd eləyir, yenə alınmır. Bu, üç dəfə təkrarlanır. Onu tanıyanlardan biri deyir: «Onun əli haram, yaxud şübhəli yeməyə uzanmır». Onu evinə cağıran adam bu dəvətdən xeyir görmür. Bu hadisəni Səhl b. Abdullah da təsdiqləyir.

Əhməd b. Məhəmməd b. Salim Bəsrəlidən eşitdim ki, Səhl b. Abdullahdan halal haqqında soruşanda belə cavab verir: «Halal – içində Allahı inkar edən heç bir şey olmayandır».

Əbu Nəsr deyir: «İçində Allahı inkar edən bir şey olan yalnız ürəyin işarəti ilə məlum olur».

«Bunun elmlə bir əlaqəsi varmı?» – sualının cavabı belədir: «Bəli, var. Peyğəmbər (ﷺ) Vabisə: «Müftilər sənə desələr də, ürəyindən soruş», – söyləyib. Sonra deyir: «Pislik sinənizi sıxan bir şeydir». Bax o da onu qəlbinin işarə edəcəyi yerə yönəldir».

Üçüncü təbəqə ariflər və vəcd sahibləridir. Əbu Süleyman Dərani deyir: «Səni Allahdan kənar edən hər şey sənin uğursuzluğundur».

Səhl b. Abdullah saf halal haqqında deyir: «Halal – içində Allahı inkar edən şey olmayandır, saf halal isə içində Allahı unutduran şey olmayandır».

İçində Allahı unutduran şeyin olmasından qorxmaq Şiblinin dediyi kimidir. Ondan soruşurlar: «Vəra‘ nədir?» Deyir: « Bu, sənin ürəyinin Allah-Təaladan bir göz qırpımı da olsa, yayınmamasıdır».

Birinci ümumilərin vəra‘sı, ondan sonrakı xüsusilərin, nəhayət, üçüncü – seçilmişlərin seçilmişinin vəra‘sıdır.

Vəra‘ zahidliyi vacib bilir.

### *Zahidlik məqamı*
### *(zühd)*

Şeyx deyir: Zahidlik şərəfli məqamdır. O, ali halların və uca mərtəbələrin əsasıdır. Bu, Allaha üz tutanların, Allah üçün hər şeydən aralananların, Allahdan razıların, Allaha təvəkkül edənlərin ilk addımıdır. [İmanının] əsasını zahidliklə sabitləşdirməyəni sonralar heç nə saflaşdırmır, çünki dünya sevgisi hər bir səhvin başıdır, dünyadan zahidlik isə hər bir xeyir və itaətin başıdır.

Deyirlər: «Bu dünyada zahidlik adı ilə adlanan kəs min şərəfli adla adlanar, bu dünyada istək adı ilə adlanan isə günahın min adı ilə çağırılar». Bu (zahidlik), Allahın öz elçisi üçün seçdiyi və onun da bu seçimi üstün bildiyidir.

Zahidlik halalda olmalıdır, haram və şübhəlini onsuz da tərk etmək vacibdir.

Zahidliyin üç təbəqəsi var: birincisi başlayanlardır ki, onlar əllərini mallarından, ürəklərini də əllərini çəkdiklərindən çəkirlər.

Cüneyd zahidlik barədə deyir: «[Bu], əllərini çəkdiklərinin dadından da qəlbini uzaqlaşdırmaqdır».

Səri Səqati də hesab edir ki, «Zahidlik – əlini çəkdiyindən qəlbini də çəkməkdir».

Digər təbəqə zahidliklə haqqa çatanlardır. Rüveym b. Əhməd bildirir: «[Zahidlik] nəfsin həzzini dünyada olan hər şeydən kəsməkdir». Bu, haqq əhlinin zühdüdür. Rahatlıqdan, tərifdən, mədh olunmaqdan, adamlar arasındakı hörmətdən zahid olmağın özündə də, bu dünyadan zahidlikdə də nəfsin həzzi var. Bu həzlərdən qəlbi ilə zahid olan öz zahidliyini gerçəkləşdirmiş olur».

Üçüncü təbəqə bilib və yəqin etsə də ki, dünya tamamilə onun halal mülküdür, axirətdə onunla bunun haqq-hesabı çəkilməyəcək və bu, onun Allah yanındakı məqamına bir naqislik gətirməyəcək, yenə Allah naminə ondan üz döndərib zahid olur. Çünki onun hər bir şeydə zahidliyi Allahın həmin şeyi yaratdığı və ona

dəyər vermədiyi vaxtdan başlayır. Əgər dünyanın Allah yanında ağcaqanadın qanadı qədər dəyəri olsaydı, kafirə bir udum su verməzdi. Buna görədir ki, o, zahidliyindən də zahid olub tövbə edir.

Şiblidən zühd barədə soruşanda belə cavab verir: «Zahidlik qəflətdir, çünki dünya heç nədir, heç nədən zahidlik isə qəflətdir».

Yəhya b. Müaz isə: «Dünya gəlin kimidir. Onu istəyən onu bəzəyir. Zahid olan ondan üz döndərib saçını yolur, paltarlarını cırır. Allahla məşğul olan arif isə onu heç görmür», – deyir.

Zahidlik fəqirliyə başlamağı vacib bilir və onu seçir.

### *Fəqirlik məqamı və fəqirlərin sifətləri*

Fəqirlik şərəfli məqamdır. Allah-Təala öz Kitabında fəqirləri belə təsvir etmişdir: □Allah yolunda diqqətlərini toplayan fəqirlər üçün□ (Quran 2/273). Peyğəmbərimiz (ﷺ) deyir: «Fəqirlik mömin bəndəyə atın yanağına tökülən yal kimi yaraşır».

İbrahim b. Əhməd Xəvvasa görə: «Fəqirlik şərəf örtüyü, elçilərin libası, salehlərin əbası, Allahdan qorxanların (təqva sahiblərinin) tacı, möminlərin zinəti, ariflərin qəniməti, müridlərin idealı, itaətkarların qalası, günahkarların zindanıdır. Pislikləri yaxşılaşdıran yaxşılıqların əzəmətlisi, dərəcələrin ən yüksəyi qayələrə çatdırandır. Cabbarın (Allahın) razılığı və sadiqlərdən olan dostlarına [verdiyi] kəramətidir. Fəqirlik salehlərin şüarı, təqva sahiblərinin (Allahdan qorxanların) yoludur».

Fəqirliyin üç təbəqəsi var: birincisi heç bir şeyə malik olmayan, birisindən nə zahirən, nə batinən bir şey istəyən, bir kimsədən nə isə gözləməyən, bir şey versələr götürməyəndir. Bu təbəqə yaxın (yaxınlıq halında) olanların məqamıdır.

Səhl b. Əli b. Səhl İsfəhani deyir: «Bizim yoldaşlarımıza kasıb deyən hər kəs günah edir, çünki onlar Allah-Təalanın ən zəngin məxluqlarıdır».

Əbu Abdullah b. Cəllai fəqirliyin həqiqəti barədə deyir: «Əllərini divara vur, (yəni əllərin boşa çıxsa da), de ki, Rəbbim Allahdır».

Əbu Əli Rüzbari nəql edir ki, Əbu Bəkr Zəqqaq məndən soruşdu: «Ey Əbu Əli, niyə fəqirlər ehtiyac vaxtı əldə etdiklərini tərk edirlər?» Dedim: «Çünki onlar Verənlə bərabər, veriləndən daha zəngindirlər». Dedi: «Elədir, lakin mən başqa şey deyirəm, çünki onlar vücudları lazımsız olan bir qövmdür. Onların ehtiyacı Allahadır, ehtiyac onlara zərər verməz, çünki Allah onların varlığıdır».

Əbu Bəkr Vəcihi Əbu Əlinin bu sözləri dediyini eşitdiyini söyləyir: «Əbu Bəkr Tusidən eşitdim ki, o, uzun müddət yoldaşlarının nə üçün fəqirliyi başqa şeylərdən üstün bilmələrinin mənasını axtardı, heç kim ona qane edəcək cavabı vermirdi. Nəsr b. Həmmamdan da soruşdu: «Çünki o, tövhid mənzillərindən birincisidir», – dedi və bu cavabdan qane oldu».

İkincilər bir şeyə malik olmayan, kimsədən bir şey istəməyən, soruşmayan, istəmədən bir şey veriləndə isə götürənlərdir.

Cüneyd deyir: «Həqiqi fəqirliyin əlaməti heç nə istəməmək, heç nəyə mane olmamaq, ona mane olanda susmaqdır».

Səhl b. Abdullahdan həqiqi fəqirlik barədə soruşanda cavab verir: «İstəməyən, rədd etməyən, saxlamayandır». Əbu Abdullah b. Cəllai fəqirliyin həqiqəti barədə deyir: «Bu, sənin olmayan, sənin olmayan sənin deyil baxımından isə sənin olanda da sənin olmayandır».

İbrahim Xəvvas həqiqi fəqirliyin əlaməti barədə bildirir: «Şübhəni tərk etmək, bəlanın izini gizlətmək». Ona görə də bu təbəqəni sadiqlərin məqamı adlandırırlar.

Üçüncüsü bir şeyə malik olmayan, ehtiyacı olanda onun müraciətindən sevinəcəyini bildiyi bir [əqidə] qardaşına müraciət edəndir. Onun istəməsinin qarşılığı sədəqədir.

Cüreyridən fəqirliyin həqiqəti barədə soruşanda deyir: «Olanı itirməyənə qədər olmayanı istəməmək».

Rüveymə görə: «Hər bir var olanın yox olması, onun əşyalarda mövcudluğu özündən yox, bir başqasındandır». Bu, fəqirlikdə sıddıqların (ən sadiqlərin) məqamıdır.

Fəqirlik səbri vacib bilir.

## *Səbir məqamı*

Şeyx deyir: Səbir şərəfli bir məqamdır. Allah-Təala səbir edənləri öz Kitabında mədh edərək buyurmuşdur: □Səbirlə dözənlər hesabsız mükafatlanacaqlar□ (Quran 39/10). Cüneyddən səbir barəsində soruşanda söyləyir: «Ağır zaman bitənə qədər Allah-Təalanın verdiyi qüvvətlə dözmək».

İbrahim Xəvvas deyir: «Əksər məxluq səbir yükünü daşımaqdan qaçdı, istəyə və səbəbə sığındı, onlara öz Rəbbi kimi inandı».

Bir nəfər Şiblinin yanına gəlib soruşur:

– Səbir edənlərin hansı səbri daha güclüdür?

– Allah barədə.

– Yox.

– Allah üçün.

– Yox.

– Allahla olan səbir.

– Yox.

Şibli qəzəblənir:

– Vay sənin halına, bəs hansı?

– Allahdan [uzaq] olmağa.

Şibli bu sözdən elə qışqırır ki, az qalır ruhu bədənindən çıxsın.

İbn Salim Bəsrəlinin səbir barədə suala cavabı belədir: «Səbir üç cür olur: dözən, səbir edən və səbbar (ən çox səbir edən). Dözən Allah barədə səbir edəndir, Onun sıxıntısına gah səbir edən, gah aciz qalandır.

Qənnaddan da səbir barədə soruşurlar, onlara belə deyir: «Qadağan olunmuş şeyləri yerinə yetirməyə çalışmaq, əmr edilənlərə daim riayət etmək».

Səbir edənlər Allah haqqında və Allah üçün səbir edənlərdir. Onlar səbirsiz olmur, səbirsizlik onlardan uzaqdır, amma daxillərində bir şikayət olur.

Zu‘n-Nun söyləyir: «Bir xəstənin ziyarətinə getmişdim. Xəstə ilə söhbət zamanı o inildədi. «Zərbəsinə səbir etməyənin məhəbbətində sadiqlik olmaz», – dedim. «Zərbəsindən ləzzət almayanın sevgisində sadiqlik olmaz», – deyə cavab verdi».

Şibli nəql edir: «Məni xəstəxanaya salmışdılar. Yanıma bəzi dostlarım gəlmişdi. Onlardan: «Siz kimsiniz?» – deyə soruşdum. «Biz səni sevənlərik», – dedilər. Yerdən daş götürüb onlara atmağa başladım, qaçdılar. «Yalançılar! Məni sevdiklərini deyirlər, amma zərbələrimə dözmürlər?!» – dedim».

Səbbarlar isə Allahda, Allah üçün, Allahla səbir edərlər. Bütün bəlalar onların üzərinə gəlsə də, aciz olmur, nə borclarını ödəməkdə, nə həqiqətində, nə də zahirində bir dəyişiklik olur.

Şiblidən səbir haqqında soruşanda bu beytləri deyir:

«Bu ibarələr sətir-sətir yanağında yazıldı,
Onları yaxşı oxuya bilməyən də oxuyar.

Şövqün ağrısından və ayrılıq
Qorxusundan sevgilinin səsi zərər verir.

Səbir edən ondan səbir istədi,
Sevən səbri səslədi: «Səbir!»»

Rəvayət edilənlərin elmi dəlili budur: «Zəkəriyyənin başına vəl (boynuna qandal vurulanda) qoyulanda bir dəfə inildədi. Allah-Təaladan ona vəhy gəldi: «Səndən bir də inilti eşitsəm, göylərlə yerləri bir-birinə qovuşduracam».

Səbir təvəkkülü vacib bilir.

### ***Təvəkkül məqamı***

### (*inam və etibar)*

Şeyx deyir: Təvəkkül şərəfli məqamdır. Allah-Təala təvəkkülü əmr etmiş və onu imana bərabər tutmuşdur. □Mütəvəkkillər Allaha təvəkkül etsinlər (ümidli olsunlar)□ (Quran 14/12). Başqa bir yerdə isə: □Möminlər Allaha təvəkkül etsinlər□ (Quran 5/11) buyurur və mütəvəkkillərin təvəkkülünü möminlərin təvəkkülündən fərqləndirir. Sonra da seçilmişlərin seçilmişinin təvəkkülünü xatırladır: □Allaha təvəkkül edən Onunla kifayətlənir□ (Quran 65/3). Allah onları Özündən başqa bir şeyə yönəltmir. Elçilərin ağası və mütəvəkkillərin imamına (Məhəmməd peyğəmbərə (ﷺ)) dediyi kimi: □Ölməyib diri olana təvəkkül et, O kifayətdir□ (Quran 25/58) və □Səni namaza durarkən görənə, Əziz və rəhimli olana təvəkkül et□ (Quran 26/217-218).

Təvəkkül üç növdə olur. Birinci möminlərin təvəkkülüdür ki, üç şərti vardır və Əbu Turab Nəxşəbi bu barədə deyir: «Bədəni ibadətə vermək, qəlbini rübubiyyətə bağlamaq və kifayət edənlə razılaşmaq. Verəndə şükür etmək, mane olanda tale ilə razılaşıb səbir etmək». Zu‘n-Nundan təvəkkül barədə soruşanda bunu söyləyir: «Təvəkkül nəfsin tədbirini tərk etmək, cəhd və qüvvəni atmaqdır».

Əbu Bəkr Zəqqaq deyir: «Təvəkkül sabahın qayğılarını atıb bu günlə yaşamaqdır». Rüveym isə təvəkkülü «ilahi vədə inam» adlandırır. Səhl b. Abdullah: «Allahın istədiyinə etibar etməkdir», – deyir.

Seçilmişlərin təvəkkülü barədə Əbu Abbas b. Əta deyir: «Allaha Allahdan başqası üçün təvəkkül edən Allaha Allahla və Allah üçün təvəkkül etməyənə və onun Allaha təvəkkülündən başqa səbəb qalmayana qədər Allaha təvəkkül etmir».

Əbu Yəqub Nəhrəcuri bildirir: «[Təvəkkül] nəfsin həzlərinin dünya və axirət səbəblərindən uzaqlaşması ilə ölməsidir».

Əbu Bəkr Vasiti də deyir: «Təvəkkülün kökü ehtiyac və kasıblıqdır ki, [adam] öz istəklərində təvəkküldən ayrılmır, ömründə bir göz qırpımı da olsa, öz sirrini təvəkkülünə yönəltmir» (təvəkkülü son məqsəd bilmir).

Səhl b. Abdullaha görə: «Təvəkkül bütünlüklə üzdür, onun arxa tərəfi yoxdur. O ancaq qəbir əhlində kamildir».

Bunların hamısı mütəvəkkillərin, yəni seçilmişlərin təvəkkülünün həqiqəti barədə dedikləridir.

Seçilmişlərin seçilmişinin təvəkkülü isə Şiblinin dediyi kimidir: «Sənin var olmamış kimi Allah üçün olmağın və Allahın heç əzəli olmamış kimi sənin üçün olmasıdır» (dünyada Allahdan başqa heç bir varlığın olmadığı hələ əzəli, əbədi və s. sifətlərin təyin olmadığı bir vaxta işarədir).

Birisi deyir: «Təvəkkülün həqiqəti budur ki, Onun xəlqindən heç kim kamala çatmaz, çünki kamal Kamalla mümkündür ki, bu da ancaq Allaha məxsusdur».

Əbu Abdullah b. Cəllai təvəkkül barədə: «Bütün hallarda yalnız Allaha sığınmaqdır», – deyir.

Cüneyd təvəkkülü «qəlbin Allaha etibarı» adlandırır.

Rəvayətə görə, Əbu Süleyman Dərani Əhməd b. Əbu Həvari təvəkkül barədə bunları söyləyir: «Ey Əhməd, axirətin yolları çoxdur. Sənin şeyxin bu mübarək təvəkküldən başqa, onların çoxusunu tanıyır. Mən onun bircə rayihəsini də hiss etmədim, məndə onun ətrini duyacaq burun yoxdur».

Bir başqası isə deyir: «Həqiqi təvəkküllə olmaq istəyən özünə bir qəbir qazsın və ora uzansın, dünyanı və onun əhlini unutsun, çünki təvəkkülün həqiqətinin kamilliyinə Onun yaratdıqlarından heç kəs yüksəlməyəcək».

Təvəkkül razılığı vacib bilir.

### *Razılıq məqamı*

Şeyx deyir: Razılıq şərəfli məqamdır. Allah-Təala öz Kitabında buyurur: □Allah onlardan, Onlar da Allahdan razıdırlar□ (Quran 5/119), □Allahın razılığı hər şeydən böyükdür□ (Quran 9/72). Deməli, Allahın öz qullarından razılığı onların Ondan razılığından daha böyük və üstündür.

Razılıq böyük Allahın qapısı, dünya cənnətidir. Bu, qulun qəlbinin Allahın hökmü altında sakitləşməsidir.

Cüneyd deyir: «Razılıq – seçimi aradan götürməkdir». Qənnad onu «Sıxıntı müddətində qəlbin sakitliyi», Zu‘n-Nun isə «Sıxıntı müddətində qəlbin sevinci» adlandırır.

İbn Əta bildirir ki, «Təvəkkül qəlbin Allahın qul üçün seçdiyinin əzəliliyinə yönəlməsidir, çünki bilir ki, O, onun üçün ən yaxşısını seçir və bununla razılaşıb bir daha narahat olmur».

Əbu Bəkr Vasiti deyir: «Razılıq sənin cəhdini sərf edir. Razılığın səni sərf etməsinə qoyma, yoxsa onun ləzzəti və həqiqətinin görüntüsü ilə pərdələnərsən».

Razılıq əhlinin razılığı üç halda olur:

Birincilər səbirsizlikdən uzaqdırlar, Allahın hökmü ilə ona gələn pislik və ya yaxşılıq, rahatlıq, maneə və ya əta zamanı onların qəlbləri Allaha yönəlir.

İkincilər özlərinin Allahdan razılıqları, Allahın da onlardan razılığının □Allah onlardan, Onlar da Allahdan razıdır□ (Quran 5/119) görüntüsündən uzaqlaşırlar. Sıxıntı və rahatlıq, maneə və əta zamanı baş verən dəyişmələrdə onların razılığı sabit olmur.

Üçüncülər bundan yüksəkdə duran, Allahın öz yaratdıqlarından razı olmasının daha əvvəl olduğunu anlayıb Allahın onlardan və onların Allahdan razılığının görüntülərindən uzaqlaşanlardır. Əbu Süleyman Dərani deyir: «Allahı razı salan və qəzəbləndirən Onun xəlqinin əməlləri deyil. Lakin O bir qövmdən razı olanda onlara razılıq əhlinin, qəzəblənəndə də qəzəb əhlinin əməllərini etdirir».

Razılıq məqamların sonuncusudur. Bundan sonra könül sultanlarının qeybi oxuyan, zikr saflığı və hal həqiqətləri üçün sirləri qoruyan halları vacib olur.

Hallardan birincisi nəzarət (müraqəbə) halıdır.

### ***Nəzarət halı***
### (*müraqəbə)*

Şeyx deyir: Müraqəbə şərəfli haldır. Allah-Təala deyir: □Allah hər şeyə nəzarət edir□ (Quran 33/52), yaxud □Dediyi elə bir şey yoxdur ki, ona nəzarət edən, qeyd edən olmaya□□(Quran

50/18) və ya □Bilmirlərmi ki, Allah onların sirrini və gizlətdiklərini bilir, Allah qeyblərin bilicisidir□ (Quran 9/78). Quranda belə misallar çoxdur.

Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Allaha elə qulluq et ki, sanki Onu görürsən. Sən Onu görməsən də, O, səni görür».

Nəzarət qulun Allah-Təalanın onun qəlbindəkilərdən, gizli düşüncələrindən agah olduğunu və onun qəlbini Allahı zikr etməkdən ayrı qoyan günah düşüncələrə nəzarət etməsini bilməsi və yəqinləşdirməsidir.

Əbu Süleyman Dərani deyir: «Qəlblərdə olanları necə gizlədirlər! Qəlblərdə ancaq Onun verdikləridir, Ondan olanı Ondan gizlədirlər?!»

Cüneyd İbrahim Acurrinin ona belə dediyini söyləyir: «Oğlan, diqqətinin bir zərrəsini Allah-Təalaya yönəltməyin sənin üçün günəşin bir şeyin üzərinə doğmasından daha xeyirlidir».

Həsən b. Əli Dəmğani deyir: «Siz könüllərinizi qorumalısınız, çünki O, sizin gizli düşüncələrinizdən agahdır».

Nəzarət əhli öz hallarına görə üç təbəqədir. Həsən b. Əlinin dedikləri yeni başlayanlara aiddir.

İkincilər isə Əhməd b. Ətanın dediyi kimidir: «Sizin xeyirliniz Haqqın qorxusundan Haqsız olan fənada Haqla olanınız və öz əməl, əxlaq və ədəblərində Mustafanın (ﷺ) davamçıları olanlardır».

Üçüncü təbəqə nəzarət əhlinin ən böyükləridir. Onlara Allah tərəfindən nəzarət edilir, Ondan bu hala riayət etmək üçün kömək istəyirlər, çünki Allah-Təala onları Özünün nəcabətlilərindən və seçilmişlərindən edib ki, bütün hallarında başqa birisi ilə danışmasınlar, O, onların əməllərini yönəldəndir, □O, salehləri yönəldir□ (Quran 7/196).

İbn Əta Xorasanın hikmət əhlindən cəhalət və ziddiyyətə qapılan birisinə deyir: «Sən bilmirsən ki, bədənində olanlar qəlbində doğulanların yanında çox pisdir? Qəlbində nəzarət etdiklərin isə sirrində nəzarət etdiklərinin yanında toz kimidir!

Sirrində və aşkarında Allahdan qorx [nəzarət elə]. Bu, sənin əməllərindən və ibadətlərindən daha xeyirlidir».

Nəzarət halı yaxınlıq halını vacib bilir.

## *Yaxınlıq halı*
*(qürb)*

Allah buyurur: □Qullarım səndən məni soruşsalar, yaxındayam□ (Quran 2/186), □Biz ona şah damarından yaxınıq□ (Quran 50/16). Öz mələklərinə deyir: □Sizlərdən dua edənlər Rəbblərinə vasitə axtarırlar, Ona ən yaxın olanlar da□ (Quran 17/57), vasitə, yəni yaxınlıq. □Mən sizə sizdən yaxınam, siz görmürsünüz□ (Quran 56/85). Allah-Təala onların Ona yaxınlığını xatırladır, sonra onların Allah-Təalaya daha yaxın olmaq üçün vasitə axtardığını qeyd edir.

Yaxınlıq halı bəndənin öz qəlbi ilə Allahın ona yaxınlığının şahidi olması, öz itaəti, bütün diqqəti ilə Allah-Təala qarşısında olub, Onu davamlı olaraq zahirən və daxilən zikr etməklə Allah-Təalaya yaxınlaşmasıdır.

Onlar üç təbəqə olur: birincilər Allah-Təalanın verdiyi elmi, [Onun] onlara yaxınlığını, üzərlərindəki qüdrətini bilməklə, müxtəlif itaətlərlə Ona yaxınlaşanlardır.

İkincilər bunları gerçəkləşdirənlərdir. Amir b. Əbdülqeys deyir: «Nəyə baxdımsa, Allahın ona məndən daha yaxın olduğunu gördüm».

Şair deyir:

«Sirdə Səni gerçəkləşdirdim, dilim Sənə dua oxudu,
Mənaları topladım və mənaları fərqləndirdim.

Təzim etməyim Səni gözlərimdən itirsə,
Vəcd Səni daxilimdə seyr edər».

Cüneyd deyir: «Bil ki, O, qullarının qəlblərinin Ona yaxınlığı qədər özü onların qəlblərinə yaxındır. Gör sənin qəlbinə nə yaxındır?»

Başqası deyir: «Allahın Ona yaxın qulları vardır ki, onların yaxınlığı Onun onlara yaxınlığı ilədir. Ona yaxın olanların yaxınlığı Onun onlara yaxınlığı qədərdir». Bu yaxınlıq halının ikinci dərəcəsidir.

Ən böyük hal isə nəhayət əhlinə xasdır. Bu, Əbu Hüseyn Nurinin yanına gələnə dediyidir: «Haradansan?» «Bağdaddan». «Kimlə söhbət etmisən?» «Əbu Həmzə ilə». Dedi: «Qayıt Bağdada və Əbu Həmzəyə de ki, bizim işarə etdiyimiz yaxının yaxını uzağın uzağıymış».

Əbu Yəqub Susi deyir: «Bəndə yaxın olan müddətdə yaxın olmayacaq, yaxınlıqla yaxınlıqdan qeyb olana qədər. Yaxınlığın görüntüsündən yaxınlıqla uzaqlaşarsa, bu, yaxınlıqdır». Yəni onun Allaha yaxınlığının görüntüsündən Allahın ona yaxınlığı ilə uzaqlaşır.

Yaxınlıq halı məhəbbət və xof halını vacib bilir.

## ***Məhəbbət halı***

Şeyx deyir: Allah-Təala öz kitabında məhəbbət halı barədə buyurur: □Allah sevdiyi və Onu sevən qövm gətirəcək□ (Quran 5/54), □De ki, Allahı sevirsinizsə, mənə tabe olun, Allah da sizi sevəcək□ (Quran 3/31, □Onları Allahı sevən kimi sevərlər, inananların Allaha sevgisi daha güclüdür□ (Quran 2/165).

Birinci ayədə Onun məhəbbəti onların məhəbbətindən qabaq xatırlanır. İkinci ayədə onların Ona və Onun onlara məhəbbəti xatırlanır, üçüncüdə isə onların Ona məhəbbəti xatırlanır.

Məhəbbət halı bəndənin gözləri ilə Allah-Təalanın ona verdiyi nemətlərə baxması, qəlbi ilə Allah-Təalanın ona yaxınlığını, diqqətini, onu qorumasını və yardımını görməsi, imanının və yəqinliyinin həqiqəti ilə özündən əvvəlkilərə Allah-

Təalanın diqqət və hidayətini, Allahın ona sevgisinin əzəliliyini görməsi və Allah-Təalanı sevməsidir.

Məhəbbət əhli üç təbəqə olur: birinci hal ümumidir. O, Allah-Təalanın onlara yaxşılıqlarından və lütflərindən yaranır. Peyğəmbər (ﷺ) deyir: «Qəlblər təbiətən onlara yaxşılıq edəni sevər, pislik edənə nifrət edərlər».

Məhəbbətin bu təbəqəsinin şərtləri barədə Səmnun deyir: «Sevginin saflığı zikrin davamlılığı ilə şərtlənir, çünki bir şeyi sevən ən çox onu xatırlayar».

Səhl b. Abdullahdan bu barədə soruşanda belə cavab verir: «Qəlblərin Allaha müvafiqliyi və bu müvafiqliyə israrla davam etməsidir. Allah-Təalanın zikri və Allaha münacatın şirinliyinin mövcudluğu naminə tamamilə Peyğəmbərə (ﷺ) tabe olmaqdır».

Həsən b. Əli məhəbbəti «Bütün cəhdini sevgilinin etdiklərinə sərf etmək» adlandırır.

Şeyxlərdən biri deyir: «[Məhəbbət] – qəlblərin sevgilisi ilə şəfa tapması, ona tabe olması və ona müvafiq olmasıdır».

Şair deyir:

«Sən sevgilinə sadiq olsan, ona itaət edərsən,
Sevgili mütiliyi sevəndir».

İkinci hal qəlbin Allah-Təalanın zənginliyinə və əzəmətinə, elminə və qüdrətinə nəzər salmasıdır. Bu, sadiqlərin və əmin olanların halıdır.

Onun şərti və təsviri Əbu Hüseyn Nurinin dediyi kimidir: «Pərdənin götürülüb, sirlərin açılmasıdır».

İbrahim Xəvvas deyir: «[Məhəbbət] iradələrin məhvi, sifət və dəlillərin hamısının yanıb kül olmasıdır».

Əbu Səid Xərraz isə belə söyləyir: «Onun məhəbbətindən bir kasa içənin, Allahın münacatının nemətindən dadanın, Ona olan sevgisinin dadından əldə etdiyi ilə Ona yaxınlaşanın və qəlbinin Allaha sevgisindən ləzzətlə uçanın, Onun üçün dəli-divanə olanın (yanıb kül olanın) xoş halına! Rəbbi ilə kədər

(təəssüf) duyanın və xəstəliyə düçar olanın vay halına! Onu Ondan başqa sakit edən, Ondan savayı aşina yoxdur!»

Üçüncü hal isə sıddıq və ariflərə xas haldır. Bu, Allahın sevgisinin əzəliliyi ilə onların görüş və mə‘rifətlərindən səbəbsiz doğulan məhəbbətdir və onlar Allahı səbəbsiz sevirlər.

Bu məhəbbətin sifətləri barədə Zu‘n-Nun Misridən soruşurlar: «İçində küdurət olmayan sevgi hansıdır?» Cavab verir: «Allahın sevgisində küdurət yoxdur. Məhəbbət qəlbdən və orqanlardan (əzalardan) itəndə onlarda məhəbbətdən əsər-əlamət qalmır və əşyalar Allahla və Allah üçün olur. Bu, Allahın məhəbbətidir».

Əbu Yaqub Susi deyir: «Sevgili qeybdə olduğuna görə [sevən] məhəbbətin elmindən fəna olaraq məhəbbət görüntüsündən çıxıb sevgilinin görüntüsünə keçənə qədər onun məhəbbəti səhih olmaz və o, məhəbbəti ilə olmaz. Sevən bu nisbətlə olarsa, məhəbbətsiz sevgili olar».

Cüneyd məhəbbət haqqında bunları söyləyir: «Məhəbbət – sevgilinin sifətlərinin sevənin sifətlərini əvəz etməsidir». Bunun mənası odur ki, Onu sevəndə onun görən gözləri, eşidən qulaqları, tutan əli oldum.

## *Xof halı*
## *(qorxu)*

Şeyx deyir: Yaxınlıq halını xatırladanda demişdik ki, o, iki halı: məhəbbət və xof hallarını vacib bilir.

Allahın ona yaxınlığını görəndə bəzisinin ürəyində xof üstün gəlir, bəzisində isə məhəbbət. Bu, Allah-Təalanın onun ürəyi üçün ayırdığı təsdiqdən, yəqinliyin həqiqətindən, əndişədən, qeyblərin kəşfindən asılıdır. Qəlbi Uca Tanrının əzəmətinə, heybətinə, qüdrətinə yaxınlığın şahidi olarsa, ona qorxu, həya, ürkəklik gələr. Qəlbi Tanrısının ona lütfünün, şəfqətinin, yaxşılıqlarının, məhəbbətinin şahidi olarsa, ona məhəbbət, şövq, təlaş, yanma, bəqa arzusu verilər. Bu, Onun elmi, istəyi, qüdrəti, Uca və Bilənin seçimi ilədir.

Qorxu üç cür olur. Allah-Təala [Kitabında] xofu xatırladır və onu imanla əlaqələndirir: □Onlardan qorxmayın, əgər mömin-sinizsə, Məndən qorxun□ (Quran 3/175). Bu, böyük qorxudur.

□Rəbbinin məqamından qorxanlar üçün iki cənnət var□ (Quran 55/46). Bu, ortadakıların qorxusudur.

Onun qəzəbindən, cəzasından qorxanlar üçün isə Allah deyir: □Qəlblərin və gözlərin çevriləcəyi gündən qorxun□ (Quran 24/37). Bu, ümumilərin qorxusudur. Bunların qorxusu qəlblərinin ibadətlərinin qüvvəsi barədə bildiklərindən doğan narahatlıqdır.

Ortadakıların qorxusu mə‘rifətin saflığında yadlığın və küdurətin özünü büruzə verməsindən yaranır.

Şiblidən xof barədə soruşanda belə cavab verir: «Bu, səni sənə təslim etməsindən qorxmaqdır».

Əbu Səid Xərraz söyləyir ki, «ariflərdən birinə qorxudan şikayət etdim, mənə belə dedi: «Allahdan qorxmağın nə olduğunu anlayan birini görmək istəyirsən?» Sonra əlavə elədi: «Qorxanların çoxusu nəfslərinə görə, onları Allah əmrindən çıxaran şəfqətə görə Allahdan qorxanlardır».

İbn Xübeyq deyir: «Məncə, qorxu vaxtın hökmünə görə olur, bəzən məxluq Ondan qorxur, bəzən Ona güvənir».

Qənnad isə: «Qorxunun əlaməti nəfsinə «bəlkə də», «ola bilər» deməklə ümid verməməkdir», – bildirir.

Bir başqası: «Allah qorxusunun əlaməti qəlblərin həyəcanı, vahimədən ürkməyin şiddətidir», – deyir.

İbn Xübeyqə görə, «Qorxan öz nəfsindən Şeytandan çox qorxur».

Qorxanlardan seçilmişlərin qorxusu isə Səhl b. Abdullanın dediyi kimidir: «Qorxanların qorxusundan bir zərrəsi yer əhlinin üzərinə düşərsə, hamısı bundan məmnun olar». Ondan soruşdular: «Qorxanlarda belə qorxu nə qədərdir?» Cavabı: «Dağlar qədər», – olur.

İbn Cəllai deyir: «Məncə, qorxanlar Allahdan başqa heç bir şeydən qorxmayanlardır».

Vasitiyə görə: «Böyüklər ayrılıqdan, kiçiklər cəzadan qor-xurlar. Böyüklərin qorxusu daha kəskindir, çünki nə qədər ki,

nəfsin düşüncəsizliyi nəfsdə qalır, tamamilə təslimiyyət və itaətdə olsalar da, yaxşılıq edənlə [Allahla] ola bilməzlər».

Şeyx deyir: «Düşüncəsizliyin mənası onun (nəfsin) tədbirləri, dəvəti, itaətə baxışlarıdır».

Qorxu ümidlə əlaqəlidir.

## ***Ümid halı***
## *(rica)*

Şeyx deyir: Ümid şərəfli haldır. Allah buyurur: □Allahın elçisi sizə, Allaha və Axirət gününə inananlara gözəl örnəkdir□ (Quran 33/21). Bir başqa yerdə: □Onun rəhmətinə ümid edib və əzabından qorxanlar□ (Quran 17/57), □Rəbbinin rizasına (görüşünə, razılığına) ümid edənlər saleh əməl etsinlər, öz ibadətlərində tək olan Rəbbinə şərik qoşmasınlar□ (Quran 18/110), təfsirlərdə riza sözü Rəbbinin savabı kimi də deyilir.

Peyğəmbər (ﷺ) deyir: «Möminin qorxusu ilə onun ümidini tərəziyə qoysalar, bərabər gələr». Birinin belə dediyi məlumdur: «Qorxu və ümid əməlin iki qanadıdır, yalnız hər ikisi ilə uçmaq olar».

Əbu Bəkr Vərraq söyləyir: «Ümid Allah-Təaladan qorxanların qəlblərinə üfürülür. Belə olmasa, onların nəfsi məhv olar, ağılları gedər».

Ümid üç cür olur: Allaha ümid, Allahın mərhəmətinin genişliyinə ümid, Allahın savabına ümid. Allahın savabının və rəhminin genişliyinə ümid mürid qul üçündür ki, Allahın qeyd olunan mərhəmətini eşidib və Ona ümid edir. Bilir ki, lütf, hikmət, səxavət Allahın sifətlərindəndir və qəlbi Onun kəraminə, fəzlinə ümid edib ruhlanır.

Zu‘n-Nun Misri belə dua edir: «Allahım, Sənin rəhminin genişliyi bizi əməllərimizdə ümidləndirir. Sənin əhvinə inamımız Sənin bizi cəzalandırmandan daha çox ümid verir».

Biri deyir: «Allahım, Sən iradəsi ilə Sənə üz tutanlar və günahlarında Sənə ümid edənlər üçün lütfkarsan. Ey ümid

edənlərin ümidlərinin dayağı, bizi Sənin sevinc mənzillərinlə sevindirən və yaxınlığına çatdıran ani rahatlıqla bizə ümid ver».

Allaha ümid edənlər öz ümidində əmin olan və Allahdan başqasına ümid etməyənlərdir.

Zu‘n-Nun deyir: «Mən çöllərdə sərgərdan gəzirdim. Bir qadına rast gəldim. Məndən:

– Sən kimsən? – soruşdu.

– Qərib.

– Allahla olanın da qürbət kədəri olar? – dedi».

## *Xof və ümidin mənasına dair*

Şeyx deyir: Nəhayət və əminlik əhlinin dilində xof və ümidə gəlincə, bu, Əhməd b. Ətanın dediyi kimidir: «Xəlq xof və ümidlə öyrədilir. Qul hər ikisinin vasitəsi ilə yüksəlməyincə, onların arasından çıxa bilməz, hər ikisinin haqqının həqiqətinə çata bilməz və həqiqətə yetişdirməyəcək şeyə bağlı qalar».

Biri soruşur: «Bunlar, yəni xof və ümid nədir? Ona cavab verirlər: «Onlar nəfsin düşüncəsizliyindən, yəni özündən razılıqdan, əminlikdən, ümid qırıqlığından və ayrılıqdan çıxmayana qədər nəfsin istiqamət verənləridir».

Əbu Bəkr Vasiti deyir: «Qorxunun elə bir zülməti var ki, sahibini elə çaşqınlığa salar ki, həmişəlik ona alışar. Ümid öz nuru ilə gələrsə, [adam] rahatlığa çıxar və bu dəfə də onun təsiri altına düşər. Günortanın yaxşılığının xeyri ancaq gecənin zülməti ilə bilinər. Eləcə də qəlb. Xofun zülmətində əsir olur, ümid qapısını döyəndə isə əmirə dönür».

Məhəbbət, xof və ümid bir-birlərinə bağlıdırlar.

Birisi deyir: «Qorxusu olmayan məhəbbət zərərlidir. Ümidsiz hər bir qorxu da eləcə, qorxusuz ümid də eləcə».

Ümid və məhəbbət şövqü vacib bilirlər.

## *Şövq halı*
*(həsrət)*

Şeyx deyir: Şövq şərəfli haldır. Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Cənnətə istək yoxdurmu? Kəbənin Rəbbinə and olsun, gözəl ətirlər, daim axan çaylar, gözəl sevgililər vardır». Yenə Peyğəmbər (ﷺ) belə dua edir: «Səndən Sənin üzünü görmə ləzzətini və Səninlə görüşün şövqünü istəyirəm».

Allahın üzünü görmə ləzzəti axirətdə, Onunla görüşün şövqü isə bu dünyada olur.

Yenə deyir: «Cənnətə müştaq olan xeyirli işlər görməyə tələsər», «Cənnət bu üçünün həsrətini çəkir: Əlinin, Əmmarın və Salmanın».

Şövq qulun öz sevgilisinin görüşü həsrəti ilə sıxılması, alışıb yanmasıdır. Birisindən şövq barədə soruşurlar, belə cavab verir: «O, sevgilisini xatırlayanda qəlbin alışıb yanmasıdır».

Bir başqası isə deyir: «Şövq Allahın öz övliyalarının qəlblərində yandırdığı oddur ki, oradakı (qəlblərdəki) düşüncə, iradə, səbəb və maneələri yandırar».

Cüreyriyə görə: «Şövqdə məmnunluq olmasaydı, onun zərəri çəkilməzdi».

Əbu Səid Xərraz söyləyir: «Onların qəlbləri məhəbbətlə doldu və Allahla sevincdən uçub həsrətlə Ona aşiq oldular. Ey həsrətdən həyəcanlananlar, Rəbbinin həsrətindən sıxılan, qəm çəkənlər Ondan başqası ilə sakitlik tapmazlar, Ondan savayısı ilə ülfət etməzlər!!!»

Şövq üç halda olur. Bəziləri Allah-Təalanın öz övliyalarına vəd etdiyi savab və kəramətin, lütf və razılığın həsrətindədirlər.

Bəziləri məhəbbətlərinin gücündən öz sevgililərinin həsrətindədirlər, Onun görüşünün həsrəti ilə alışıb yanarlar.

Digərləri də Ağalarının yaxınlığının şahidi olublar ki, O, itməyib həmişə yanlarında olandır və qəlbləri Onun zikri ilə nemətlənir. Birisi belə deyir: «O, olmayanın həsrətindədir, amma O, itməyən varlıqdır. O, şövqlə şövqün görüntüsündən uzaqlaşar və şövqsüz həsrət gələr. Onun dəlilləri Onu öz əhlinə şövqlə vəsf edir, onun (adamın) nəfsini deyil».

Şövq ünsiyyəti vacib bilir.

### *Ünsiyyət halı*

Şeyx deyir: Allahla ünsiyyətin mənası Ona etimad, Onunla sakitlik tapmaq, Ondan yardım istəməkdir. Bundan artıq onun barəsində söz söyləmək mümkün deyil.

Belə rəvayət edilir ki, Mütərrəf b. Abdullah b. Şihhir Ömər b. Əbdüləzizə yazır: «Qoy ünsiyyətin Allahla olsun, yönəlişin Ona olsun, Allahın Allahla ünsiyyətdə olan elə qulları var ki, öz təkliklərində insanların öz çoxluqlarında olduqlarından daha çox ünsiyyətdədirlər. İnsanlarla ünsiyyətdə olanda yalnızlıq duyar, insanlar yalnızlıq hiss edəndə isə ünsiyyətdə olarlar».

Mütərrəf b. Abdullah b. Şihhir tabiinlərin* böyüklərindən, Ömər b. Əbdüləziz isə raşidi (haqq yolda olan) imamlardan olmuş.

Ariflərdən biri deyir: «Allah bəzi qullarından Özü ilə ünsiyyətinin həqiqətlərinin haqqını istəyir və onları Özündən başqasının xofundan kənar edir».

Allahla ünsiyyət qullar üçün təharətinin tamlığı və zikrinin saflığı, onu Allah-Təaladan ayıran hər bir şeydən aralanmağıdır. Belə olanda Allah-Təala onlarla ünsiyyətdə olar.

Ünsiyyət əhli öz ünsiyyətində üç halda olur. Bəziləri zikrlə və qəflətdən, günahdan aralanmaqla, itaətlə ünsiyyətdə olurlar.

Səhl b. Abdullahın belə söylədiyi nəql edilir: «Ünsün əvvəli quldadır. Nəfsi və orqanları əql vasitəsi ilə ünsiyyətdə olur, əql və nəfs şəriət elmi ilə, əql, nəfs və orqanlar Allahın saf əməlləri (elmləri) ilə ünsiyyətdə olur, qulun Allahla ünsiyyətdə olması qulun Onunla rahatlıq tapmasıdır».

İkincisi qulun Allahla ünsiyyətdə olub, onun Ondan savayı maneələrdən və məşğul edən fikirlərdən aralanmasıdır.

Zu‘n-Nundan ünsiyyətin əlaməti nədir soruşanda belə cavab verir: «Məncə, O, səni Öz yaratdıqları ilə ünsiyyətə verirsə, səni

---

* Tabiin – Peyğəmbər (□) əshabələrinin əshabələri.

Özündən aralayır, səni öz yaratdıqlarından aralayırsa, səni Özü ilə ünsiyyətə gətirir».

Cüneyd Allahla ünsiyyət barədə bunları söyləyir: «Heybətin (qorxu qarışıq sevginin) varlığı ilə təvazökarlığın artmasıdır».

İbrahim Məristaninin fikrincə: «Ünsiyyət – qəlbin öz sevgilisi ilə bərabər sevincidir».

Üçüncüsü isə [Allahın] heybətinin, yaxınlığının və ünsiyyətinin artması ilə ünsiyyətin görüntüsündən uzaqlaşmaqdır.

Mə‘rifət əhlindən bəzilərinin qeyd etdiyinə görə, Allahın elə qulları var ki, Onun heybətindən başqası ilə ünsiyyətdən qaçarlar.

Bir nəfər Zu‘n-Nuna yazır: «Allah səni öz yaxınlığı ilə ünsiyyətə çatdırsın». Zu‘n-Nun ona belə cavab verir: «Allah səni öz yaxınlığından aralasın, O, səni öz yaxınlığı ilə ünsiyyətə çatdırırsa, bu, sənin dəyərindir, əgər səni öz yaxınlığından uzaqlaşdırırsa [və ünsiyyətə çatdırırsa], Onun dəyəridir». Onun: «Səni öz yaxınlığından uzaqlaşdırırsa», – deməyinin mənası «Öz yaxınlığının heybətini sənə verməsidir» (aldadıcı hissdən qurtulmaq nəzərdə tutulur).

Şibli: «Ünsiyyət – sənin səndən, nəfsindən və kainatdan ayrılmağındır», – deyir.

Allahla ünsiyyət əminliyi vacib bilir.

## *Əminlik halı*
## *(könül rahatlığı)*

Allah-Təala buyurur: Ey nəfsləri əminlik tapmışlar (Quran 89/27), təfsirdə imanla əminlik tapmışlar deyilir. Və ya Allahı zikrlə qəlbləri əminlik və sakitlik tapmışlar, Allahın zikri ilə qəlblər əminləşmirmi? (Quran 13/28).

İbrahim [peyğəmbərin] hekayətində deyilir: Qəlbimin əminliyi üçün (Quran 2/260), Səhl b. Abdullah deyir: «Qulun qəlbi Mövlası ilə sakitləşib, Onunla əminləşər, qulun halı qüvvətlənər, deməli, hər şeyin qulla ünsiyyəti qüvvətlənər».

Həsən b. Əli Dəmğani Allah-Təalanın: □Allahı zikrlə qəlbləri əminlik və sakitlik tapmışlar□ (Quran 13/28) kəlamı barədə belə deyir: «Qəlblər nəşələnər, gülər, sakitləşər və ünsiyyətdə olar, sonra ona kəşflər olar», yəni qəlblər Allah-Təalanın cəlalının və əzəmətinin mə‘rifətindən nəşələnər, Allah-Təala rəhminin və fəzlinin mə‘rifətindən gülər, Allahın qüdrətinin yetərliyindən və sidqinin mə‘rifətindən sakitləşər, Allahın ehsan və lütfünün mə‘rifətindən ünsiyyətdə olar.

Şiblidən Əbu Süleyman Dəraninin «Nəfsin qüvvəsi zəfər çalanda əminlik tapır» sözünün mənasını soruşurlar. Belə cavab verir: «Nəfs onu qüvvətləndirəni tanıyanda əminlik tapır».

Əminlik yüksək haldır, qulun öz ağlını üstün bilməsi, imanının artması, elminin möhkəmlənməsi, zikrinin saflaşması, həqiqətinin sabitləşməsidir.

Əminlik üç cür olur:

Ümumilərin əminliyi: onlar Onu zikr edəndə əminləşirlər və bundan həzz duyurlar. Onlar ruzilərinin artması və bəlanın yan ötməsi üçün dualar edirlər.

Bu, Allah-Təalanın buyurduğu kimidir: □Ey nəfsləri əminlik tapmışlar□ (Quran 89/27), yəni inanırlar ki, müdafiə edən və əngəl olan ancaq Allahdır.

İkincilər isə seçilmişlərin əminliyidir. Onlar öz talelərindən razıdırlar, bəlalarına səbir edir və bunda səmimidirlər. Allah-Təalanın bu kəlamlarından: □Allah qorxanlar və yaxşılarladır□ (Quran 16/128), □Allah səbir edənlərlə bərabərdir□ (Quran 2/153) qorxur, sakitləşir və əminləşirlər. Allahın «bərabərdir» kəlamı onları sakitləşdirir, əminləşdirir və onların əminliyi itaətlərinin görüntüsü ilə qarışır.

Seçilmişlərin seçilmişi isə bilir ki, onların qəlbləri təmiz və heybətlə Onunla əminləşə və sakitləşə bilməz, çünki Onun dərkinin həddi yoxdur. □Onun misli yoxdur□ (Quran 42/11), □Heç kim Onun bərabəri deyil□ (Quran 112/4). «Sirrində belə şeylər olanın qəlbi nədən əminləşib sakitləşsin? Daha artığını istəyib təmənna edən [kəs] təxəyyüllərin belə üzmədiyi bir dənizdədir». Bu, Vasitinin kəlamından ixtisar etdiyimdir.

Əminlik müşahidənin gözəlliyini vacib bilir.

### *Müşahidə halı*

Allah-Təala buyurur: □Bunda qəlbi olan, diqqətlə dinləyən üçün öyüd var və o, şahiddir□ (Quran 50/37) və ya □Şahid olana və müşahidə edilənə and olsun□ (Quran 85/3).

Əbu Bəkr Vasiti bildirir: «Şahid Rəbbdir, müşahidə olunan – kainatdır, onları yox edən, sonra var edən Odur».

Əbu Səid Xərraz deyir: «Kim Allahı qəlbi ilə müşahidə edib, Ondan başqa şeyləri arxada qoyarsa, Allahın əzəməti yanında hər şey məhv olar, itər, qəlbində Allahdan başqa heç nə qalmaz».

Əmr b. Osman Məkkinin fikrincə: «Müşahidə qəlblərin qeybə qeyblə uyğunlaşmasıdır. O (müşahidə), gözlə görülüb, güclü hisslə duyulmur».

Yenə o: «Müşahidə qəlblərin gördükləri ilə gözlərin gördükləri arasında əlaqədir, çünki qəlblərin gördükləri təxəyyülün artmasından yəqinin kəşfi zamanı olur», – deyir.

Peyğəmbər (ﷺ) Abdullah b. Ömərə deyir: «Allaha elə qulluq elə, sanki onu görürsən».

Allah-Təalanın: □O, hər şeyə şahiddir□ (Quran 34/47) ayəsi barədə deyirlər: «Əşyaların müşahidəsi ibrət gözü ilə, bilavasitə görmək isə fikir gözü ilə olur».

Əmr Məkki deyir: «Müşahidə [Onun] hüzurunda olmaqdır, yəni yaxınlığında». Allah-Təala buyurur: □Onlardan dəniz kənarında yerləşən kənd (şəhər) barədə soruş□ (Quran 7/163), yəni dəniz yaxınlığında.

Yenə Əmr Məkki söyləyir: «Müşahidə ürəyin hüdudlarından kənara çıxmadan yaxınlığın kəşflərinin açılması ilə yəqinliyinin artmasıdır».

Sonra deyir: «Müşahidə hüzurdur, yəni yaxınlıq, yəqinlik elmi və onun həqiqətləri ilə bağlı olandır».

Müşahidə üç halda olur: birincisi kiçiklərdə, yəni müridlərdə olur. Bunlar Əbu Bəkr Vasiti söylədiyi kimi: «Əşyaları ibrət (nəsihət) və fikir gözü ilə müşahidə edənlərdir».

İkincilər ortadakılarda olur. Bunlar Əbu Səid Xərrazın qeyd etdikləridir: «Yaradılmış Haqqın ovcundadır, Onun mülkündədir. Əgər Allahla qul arasında müşahidə olsaydı, onun sirrində və vəhmində Allahdan başqa heç nə qalmazdı».

Üçüncüsü Əmr b. Osman Məkkinin «Müşahidə kitabında» işarə etdiyidir: «Ariflərin qəlbləri Allahı müşahidə edəndə sabitləşir, onlar Onu hər şeylə müşahidə edir və bütün varlıqları Onunla görürlər. Onların müşahidəsi Onun nəzdində və Onunla olar. Onlar itmiş ikən hüzurda olar, hüzurda ikən itərlər, həm qeybdə (itərkən), həm hüzurda Haqqın təkliyi ilə olarlar, zahirən və batinən, batinən və zahirən, son və əvvəl, əvvəl və son olaraq Onu görərlər. □O, ilk, son, zahir və batindir. O, hər şeyi billəndir□. (Quran 57/3)».

Müşahidə yüksək haldır və o, yəqinliyin həqiqətlərinin artmağının parıltılarındandır və yəqinlik halını vacib bilir.

## *Yəqinlik halı*

Şeyx deyir: Allah-Təala Kitabında yəqinliyin üç növünü qeyd edir: yəqinliyin bilinməsi (ilm əl-yəqin – علم اليقين), yəqinliyin görülməsi (ayn əl-yəqin – عين اليقين) və yəqinliyin həqiqəti (haqq əl-yəqin – حق اليقين).

Peyğəmbərin (ﷺ) belə dediyini söyləyirlər: «Dünyada və Axirətdə Allahdan əhv, lütf və yəqinlik istəyin», «Allah qardaşım İsaya rəhmət eləsin, yəqinliyi bir az da artsa, havada gəzəcəkdi».

Amir b. Əbdülqeys deyir: «Pərdə qalxsa da, yəqinliyim artmazdı», yəni Ona inananda mənim görməyim [bilavasitə] qeybdəndir. Bu, qələbə, vəcd və əminlik zamanı deyilmiş bir kəlmədir.

Peyğəmbər (ﷺ) bildirir: «Xəlq (insan) öldürüldüyü kimi də dirildiləcəkdir» və ya «xəbər hər mənasında görməklə eyni deyil, onun başqa bir yönü də ola bilər, yəni yəqinlik elmini artırmayan tərəfi».

Əbu Yəqub Nəhrəcuri deyir: «Qul yəqinliyin həqiqətlərini kamilləşdirdikcə, bəla onun üçün nemət olur, rahatlıq – müsibət».

Yəqinlik kəşfdir və kəşf üç cür olur:

Qiyamət günü baxmaqla gözlərin gördükləri.

Necəsiz və hüdudsuz, bilavasitə yəqinliklə qəlblərə iman həqiqətlərinin açılması.

Üçüncü isə peyğəmbərlərə [Allahın] qüdrətinin izharı ilə ayətlərinin və möcüzələrinin, başqaları (sufilər nəzərdə tutulur) üçün kəramətlərin və təsdiqlərin aşkarlanmasıdır.

Yəqinlik yüksək haldır və üç təbəqədə olur: birincilər – kiçiklər, müridlər və ümumilərdir (bir başqa rəvayətə görə, avamlardır). Bu, bəzilərinin dediyi kimi, yəqinlik məqamının əvvəlidir: Allah-Təala qarşısında inam və güvən, insanlar qarşısında ümidsizlikdir.

Cüneyd bunu belə ifadə edir: «Yəqinlik – şəkkin aradan qalxmasıdır».

Əbu Yəqubun fikrincə: «Qul Allahın ona verdiyindən razı qalanda yəqinliyi kamil olar». Rüveym b. Əhməd isə: «Yəqinlik – ürəyin bərabər olduğu mənanı təsdiqləməsidir», – deyir.

İkincilər yarı yolda olanlar, seçilmişlərdir. İbn Əta yəqinliyi «Zaman keçdikcə, maneələrin heç cür kəsilməməsi» adlandırır.

Əbu Yəqub Nəhrəcuri isə deyir ki, «qul yəqinliyini təsdiqləyəndə yəqinlik ona vətən olana qədər yəqinlikdən yəqinliyə keçər».

Əbu Hüseyn Nuri yəqinlik haqqında bunları söyləyir: «Yəqinlik müşahidədir». Müşahidənin mənasını isə artıq açıqlamışıq.

Üçüncülər böyüklərdir və onlar seçilmişlərin seçilmişləridir. Əmr b. Osman Məkki deyir: «Yəqinlik bütünlüyü ilə Allah-Təalanın bütün sifətlərinin isbatları ilə təsdiqidir».

Yenə bu barədə deyir: «Yəqinin hüdudları ilhamdan irəli gələn hərəkətlərdən qəlblərdə doğulan şeylə qəlblərin Allah yanında tutduqları məqam qədərdir».

Əbu Yəqub: «Qul ərşdən yerə qədər özü ilə Allah arasında hər bir səbəbdən kəsilməyənə və Allahdan qeyrisi qalmayana

qədər yəqinə layiq olmur. O, Allahı Ondan başqa, hər şeydən üstün bilir. Yəqinin artmasının sonu yoxdur. Hər dəfə dində nə isə anlayıb dərk edəndə yəqinliyi üzərinə yəqinlik gələr», – deyir.

Yəqinlik bütün halların əslidir və bütün hallar onda bitər. O, halların sonudur və batinidir. Bütün hallar yəqinliyin zahiridir. Yəqinliyin sonu isə hər bir şəkk və şübhənin izahı ilə qeybin təsdiqi və isbatıdır. Yəqinin sonu səbəb və maneələri ortadan qaldırmaqla yəqinliyin həqiqətlərinin müşahidəsindən qəlblərin sevinməsi, münacatın şirinliyi, Allaha nəzərin saflığıdır.

Allah-Təala deyir: □Bunda işarətdən anlayanlar üçün ayətlər var□ (Quran 15/75), □Yerdə əmin olanlar üçün ayətlər var□ (Quran 51/20).

Vasiti deyir: «Əgər mənada yəqinliyə çatsa, ona müşahidə halı vaqe olar. Mənanın həqiqətləri onun üçün açılsa, yaradılmışların sıxıntılarından çıxıb, onlara [Allaha] yaxınlıqla müraciət edər. Bu, həqiqi kəşfdir və Allah-Təala onlara müşahidə əhli kimi müraciət edər: □Sıddıqlar, şahidlər və salehlər□ (Quran 4/69). Şahidlər nəfslərini Ona satanlar, salehlər □əmanət və əhdlərinə riayət edənlərdir□ (Quran 23/8).

# ÇƏTİNLİKLƏRİN İZAHI

## *Sufilərin istifadə etdikləri kəlamların izahına dair fəsil*

Şeyx deyir: «***Haqq, Haqq ilə, Haqq üçün***» (**الحق بالحق للحق**) sözünün mənasında Haqq Allahdır. Əbu Saleh Allah-Təalanın Haqq onların istəklərinə tabe olsaydı (Quran 23/71) ayəsinə təfsirində yazır: «Haqq Allah-Təaladır».

Əbu Səid Xərraz deyir: «Qul Haqla bərabər, Haqq ilə, Haqq üçün var, yəni o, Allahla bərabər, Allahla, Allah üçün mövcuddur. Eləcə də **«Ondan, Onunla, Onun üçün»** Allahdan, Allahla, Allah üçün deməkdir. Ola bilsin, bununla qulun qul ilə qul üçün əldə etdiyi nəzərdə tutulur. Əbu Əli Sindi mənə dedi ki, Əbu Yəzid belə deyir: «Məndən, mənimlə, mənim üçün olan bir halda idim, sonra Ondan, Onunla, Onun üçün olan halda oldum».

Bunun mənası budur ki, qul öz əməllərinə baxır və əməllərini öz nəfsinə aid edir. Əgər ürəyində mə‘rifətin odu üstün gələrsə, bütün şeyləri Allahdan, Allahla var olan, Allaha məlum olan, Allaha aid olduğunu görər.

**«*Hal*»** (الحال) qula öz zamanında nazil olandır. Razılıq, etibar və sair şeylər ürəkdə yerləşir, onun halını, vaxtını saflaşdırır və itir. Bu, Cüneydin dediyidir.

Başqa bir fikrə görə isə, «Hal zikrlərin saflığından könüllərdə yerləşən və itməyəndir. İtirsə, deməli, bu, hal deyil».

«***Məqam***» (المقام) quldа bəzi vaxtlarda baş verəndir, məsələn, səbir edənlərin (sabirlərin), etibar edənlərin (mütəvəkkillərin) məqamı kimi və bu, qulun həm zahiri, həm də batini çalışmaları, cəhdləri və istəkləri ilə olur. Qul həmin məqamdan bir başqasına keçənə qədər onlardan birində bütünlüklə yerləşir. Bu, onun məqamıdır. Məqam və hallar fəslində qeyd etdiyim kimi.

**«*Məkan*»** (المكان) kamal, təmkin və nəhayət əhlinə məxsusdur. Qul öz anladıqlarında (çatdığı mə‘rifət

mərtəbələrində) kamala çatanda ona məkan verilir. Çünki onlar artıq hal və məqamlarını keçirlər və məkan sahibi olurlar.

Onlardan biri belə deyir:

«Sənin məkanın ürəyimdədir, o, ürəyin hamısıdır,
Orada səndən başqa bir şey yoxdur».

**«*Müşahidə*»nin** (المشاهدة) mənası yaxınlaşmaq, hazır olmaqdır. Müşahidə və mukaşəfə (görünmə) mənaca yaxındırlar, lakin kəşf mənaca daha genişdir.

Əmr b. Osman Məkki deyir: «Allah-Təalanın: Bunda qəlbi olanlar, yaxud şahid olub eşidənlər üçün zikr var və o, şahiddir (Quran 50/37) ayəsində yaxın olan nəzərdə tutulur».

**«*Ləvaih*»** (اللوائح) – **«*lövhələr*»** ucalığın artması, bir haldan daha yüksək hala keçmək üçün zahiri sirlərin açılmasıdır.

Cüneyd deyir: «Dostları tərəfindən qısa yola yönəldilən və münacat üsulu anladılan, xitabı anlamaq üçün onlara edilən dəvətin anlamına tez-tez işarələr edilən qövm xilas yolundadır. Allah-Təala: Rəbbiniz tərəfindən bağışlanmağa tələsin (Quran 3/133), – deyəndə, əqllər Onun yanındakı etibarlarını saxlamaq üçün xoş meyllə hərəkət edərlər.

**«*Ləvami'*»** (اللوامع) **«*parıltılar*»**ın mənası «ləvaih»ə yaxındır. Onu şimşək parıltılarına bənzədirlər, belə ki, buludlar arasında şimşək çaxanda ataş [içində] susuz olanlar da yağış istəyir.

Əmr b. Osman Məkki deyir: «Allah-Təala saf zənlərə bir-birinin ardınca çaxan şimşək kimi xəbərlər verir. O, xəyal edilmədən (yəni vasitəsiz) öz övliyalarının ürəklərinə onların qeybə imanlarının və təsdiqə inandıqlarının əslini göstərir. Ürəklərə gələn parıltılar nurun artmasındandır və hətta nəfslər də saf zənlərdəki bu nuru xəyal edə bilməz, çünki xəyal edilərsə, o (nur) kəsilər». Şair deyir:

«Hirsli adam sirabın parıltısına aldanar».

«***Haqq***» (الحق) Allahdır. Allah-Təala deyir: Allah açıq-aydın Haqdır (Quran 24/25).

«***Hüquq***»un (الحقوق) mənası hallar, məqamlar, mə‘rifətlər, istəklər (iradələr), məqsədlər, çalışmalar və ibadətlərdir. Təyalisi Razi deyir: «Hüquq üzə çıxanda həzz itir, həzz üzə çıxanda hüquq itir».

«***Həzz***»in (الحظوظ) mənası nəfsin və bəşəriyyətin həzzidir. Onlar hüquqla bərabər ola bilmir, çünki hər ikisi bir-birinə ziddir və bərabər ola bilmirlər.

«***Təhqiq***» (التحقيق) – «***gerçəkləşdirmə***» həqiqətin dəvəti yolunda qulun cəhd və qüvvəsini sərf etməsidir. Zu‘n-Nun nəql edir: «Rastlaşdığım hikmət əhlindən olan birindən soruşdum: «Niyə təriqət yolçusu dağın aşırımının ortasında dayanır?» «Təsdiqinin dayağının və qəlbinin təhqiqinin zəifliyindən», – cavab verdi».

«***Təhəqquq***» (التقق) – «***isbat***» mənaca təsdiqə yaxındır, təlim və öyrətmə sözlərinin bir-birinə yaxınlığı kimi.

«***Həqiqət***» (الحقيقة) addır. «*Həqaiq*» (الحقائق) həqiqətin cəmidir və mənası daim ucalması prosesində ürəyin öz inandığının qarşısında dayanmasıdır. Ürəyə inandığı barədə şəkk, yaxud zənn düşərsə, buna əngəl olmayana və Onun qarşısında durmayana qədər imanı batil olar. Peyğəmbər (ﷺ) Harisdən soruşur: «Hər haqqın həqiqəti var, sənin imanının həqiqəti nədir?» Cavab verir: «Nəfsimi dünyadan çəkdim, gecələri oyaq qaldım, gündüzləri susuz keçirdim, sanki Rəbbimin ərşini aydınca gördüm». «Sanki» onun qəlbinin müşahidəsinin, qavrama davamiyyətinin, Allah-Təala qarşısında ucalmasının ifadəsidir, yəni Onu sanki gözləri ilə görənə qədər inanır.

Cüneyd deyir: «Həqaiq ürəkləri şərhin dediklərinə çağırmır».

«***Xüsusi***», «***xüsusi əhl***» (الخصوص واهل الخصوص) bütün möminlər arasında həqiqətləri, hal və məqamları ilə Allah-Təalanın seçdiyi kəslərdir.

«***Xüsusun xüsusu***» (خصوص الخصوص) (seçilmişlərin seçilmişi) tövhidin seçilmiş və təcrid olunmuş, hallardan və

məqamlardan keçən, onları yaşayan, çətinlikləri qət edən bir əhlidir. Allah-Təala deyir: □Onlardan bəziləri ortadadır, bəziləri də xeyirləri ilə önə keçənlərdir□ (Quran 35/32), ortada olanlar xüsusilər, önə keçənlər – xüsusun xüsusiləridir.

Şiblinin belə dediyi rəvayət edilir: Cüneyd məndən soruşdu: «Ey Əbu Bəkr, deyilən ifadədə (ayədə) seçilmişlərin seçilmişinin ümumi mənası barədə nə düşünürsən?» Sonra əlavə elədi: «Seçilmişlərin seçilmişi işarə edilən keyfiyyətində ümumidir».

**«*İşarət*»** (الإشارة) danışanın gizlətdiyi, incə mənasını ibarələrlə açdığıdır.

Əbu Əli Rüzbari deyir: «Bizim elmimiz işarədir, ibarə olanda gizli qalır».

**«*İma*‘»** (الإيماء) – **«*işarə*»** bədən üzvünün hərəkəti ilə işarədir.

Cüneyd söyləyir: «İbn Kürreyninin (mümkün ki, bu, İbn Küteybədir) yanında oturmuşdum. Başımla yerə işarə etdim (ima etdim), dedi: «Uzaqdır». Sonra göyə işarə etdim, yenə: «Uzaqdır», – dedi».

Şibli deyir: «Ona [Allaha] işarə edən bütə tapınan kimidir, çünki işarə ancaq büt üçün yararlıdır».

Şair deyir:

«Göz qapaqları ilə göz qapaqlarına
İşarə etmək nöqsanı olan birisi ilə

Görüşəndə ehtiyatla diqqət etdim və qorxudan əridim,
Hərəkətdən və sükutdan fəna oldum».

**«*Rəmz*»** (الرمز) zahiri kəlamın altında saxlanan batini mənadır. Onu ancaq öz əhli anlayır. Qənnad deyir: «Onlar (sufilər) danışanda rəmzlərinin genişliyi səni heyrətə salar».

Bir başqası isə: «Şeyxlərimizin rəmzlərini anlamaq istəyən onların yazışmalarına və məktublarına baxsın. Onların rəmzləri oradadır, əsərlərində deyil», – söyləyir.

***«Saflıq»*** (الصفاء) – ***«səmimiyyət», «səfa»*** fikir qarışıqlığından, həqiqətlər zamanı əməlin görünməsindən xilas edəndir. Cüreyri deyir: «Səfanı səfa ilə düşünmək cəfadır, çünki orada fikir qarışıqlığı və əməllərin görüntüsü var».

İbn Əta deyir: «İbadətin saflığına aldanmayın. Onunla rübubiyyət unudulur, fikir qarışır və əməllər görünür», (yəni diqqət daha çox əməllərə verilir). Allah bilən yaxşıdır.

Kəttanidən saflıq barədə soruşanda: «İnkarların itməsidir», – deyə cavab verir.

***«Saflığın saflığı»***nı (صفاء الصفاء) isə «Halların, məqamların itməsi və nəhayətə daxil olması», – adlandırır.

Saflığın saflığı səbəbsiz vüsala yetməklə Haqqı Haqq ilə müşahidə üçün yaranmışlar haqqında sirlərin açılmasıdır. Şair deyir:

«Onun saflığında saflığın saflığı itaətdir,
Onun varlığında saflığı yəqinlikdir.

Bunu açan Onunla Onun üçün izah edən şeyi açıqlayar,
Bəyan izahın açıqlığı ilə haqq olar.

Bu, Onun vəcdindən olan onun vəcdinin həqiqətidir,
Onun vəcdindən üstün bir bəyan varmı?»

***«Zəvaid»*** (الزوائد) – ***«artma»*** qeybə imanın və yəqinliyin artmasıdır.

Hər dəfə iman və yəqinlik artanda hallarda, məqamlarda, iradədə, mübarizədə sidq və səmimiyyət artır.

Əmr b. Osman Məkki deyir: «Yəqinin artması yaxınlığın kəşfləri ilə qeyblərin gizlətdiyi şeylər üzərindən qəlblərin örtüklərinin açılmasıdır».

***«Fəvaid»*** (الفوائد) – ***«faydalar»*** mübarizə əhlinin (daim nəfsin məni keyfiyyətləri ilə mübarizə aparanların) xidmət zamanı anlayışlarının artması üçün Haqqın onlara hədiyyəsidir.

Əbu Süleyman Dərani deyir: «Faydaları gecənin qaranlığında varid olanda gördüm».

**«*Şahid*»** (الشاهد) səndən gizli olanı sənə göstərəndir, yəni sənin qəlbinin Onun varlığı üçün hazırlanmasıdır. Şair deyir:

«Hər şeydə Ona şahid var,
Onun vahid olduğunu sübut edir».

«*Şahid*» həmçinin hazır olmaq mənasındadır. Şahid haqqında Cüneyddən soruşanda belə cavab verir: «Şahid sənin vicdanında və sirrində var olub onlardan xəbərdar olan Haqdır, **məşhud** (المشهود) (müşahidə edilən) isə Şahidin şahid olduğu şeydir».

Əbu Bəkr Vasiti deyir: «Şahid Haqdır, müşahidə edilən – kainat. Allah-Təala buyurur: Şahid və müşahidə edilən (Quran 85/3)».

**«*Mövcud*»** (الموجود) və **«*məfqud*»** (المفقود) – **«*itirilmiş*»** iki bir-birinə zidd sözlərdir. Mövcud yoxluq məkanından varlıq məkanına, itirilmiş isə varlıq məkanından yoxluq məkanına keçəndir.

Zu‘n-Nun deyir: «İtirilmiş üçün kədərlənmə, var olan – qul üçün bir işarətdir».

**«*Mə‘dum*»** (المعدوم) – **«*yox olmuş*»** var olmayan və mövcudluğu mümkün olmayan şeydir. Əgər bir şeyi yox etsən və olmağı mümkündürsə, onda bu, yox olmuş deyil, itirilmişdir.

Mə‘rifət əhlindən biri deyir: «Aləm yoxluğun iki tərəfinin arasında var olandır, çünki o, yox olmuş yoxluq idi və yox ediləcək yoxluq olacaq bir varlıqdır. Arif onu ancaq yox edilmiş yoxluqla görür. Onun yoxluğunun görüntüsü ona öz Xaliqinin vəhdaniyyətini (təkliyini) tanıdır».

**«*Cəm*»** (الجمع) kainat olmamışdan qabaq xəlqsiz Haqqa işarə edən işarətləri anladan qısa kəlmədir. Kainat və xəlq öz-özlərinə var olmayan iki varlıqdır, çünki onlar yoxluğun iki tərəfinin arasında mövcuddurlar.

**«*Təfriqa*»** (التفرقة) – **«*ayrı*»** isə kainat və xəlqə işarə edən işarələri anladan qısa kəlmədir. Onlar bir-birləri üçün zəruri olan iki prinsipdir. Cəmsiz bölünməyə işarə edən yaradıcını inkar etmiş

olur; bölünməsiz cəmə işarə edən Qadirin qüdrətini inkar etmiş olur. Hər ikisini birləşdirən tövhiddədir (tövhidi anlayır).

Şair deyir:

«Gah onunla özümü cəm etdim, gah ayırdım,
Tək – vüsal, ikilik – saydır».

Yəni Onunla cəm olub özümdən ayrıldım. Tək – cəmdir, iki – ayrılma.

***«Qeyb»*** (الغيبة) – ***«örtünmə»*** qulun zahirində bir dəyişiklik olmadan Haqqa yaxınlığı və müşahidəsi ilə qəlbin xəlqdən pərdələnməsidir.

***«Ğaşyət»*** (الغشية) – ***«zəifləmə»*** (bihuşluq) qəlbin ona varid olan şeylə pərdələnməsi və bunun qulun zahirində özünü büruzə verməsidir.

***«Hüzur»*** (الحضور) – ***«yaxınlıq»*** [Allahın] bəndənin gözlərindən itsə də, qəlbin yəqinliyinin saflığı ilə ona yaxın olmasıdır. O, onun gözlərindən itsə belə, elə bil, Onun yanındadır. Şair deyir:

«Sən, sahibim, gözümdən itsən də, yanımdasan».

Nuri isə belə söyləyir:

-

«Mən itəndə O zühur edir,
O zühur edəndə mən itirəm».

**«Sahv»** (الصحو) – **«ayılmaq»** və **«səkr»** (السكر) – **«sərxoşluq»** da mənaca örtünmə və hüzura yaxındırlar, lakin ayıqlıq və sərxoşluq əvvəlkilərdən daha qüvvətli və daha tamdır:

«Mənim iki halım ayıqlıq və sərxoşluqdur,
Mən hallarımda hələ də ayığam və sərxoşam.

Sənə yetər ki, ayıqlıq mənə hüzn verir,
Bəs onda sərxoşluq necə haldır ki, ona uydum?

Mən istəyi inkar etdim, çünki istək
Sənin gözlərini məni kəsən və görən göz etdi.

Səndən başqa bir şeyə baxanda
Gecə yuxusunun röyası kimi görürəm».

Sərxoşluq və zəifləmə arasında fərq budur ki, sərxoşluq təbdən yaranmır və varid olduğu vaxt təb və hisslər dəyişmir. Zəifləmə təblə qoşa yaranır, onun varidi təb və hissləri dəyişir, təharəti pozur. Zəifləmə davam etmir, sərxoşluq edir. Hüzur və ayıqlıq arasında fərq budur ki, ayıqlıq təsadüfidir, hüzur isə həmişə olur.

**«*Vəcdin saflığı*»**nın (صفو الوجد) mənası vəcd zamanı ona öz varlığından başqa bir şeyin qarışmamasıdır. Şair deyir:

«Vəcdimizin saflığı təsdiqlənəndən sonra bizə nə lazımdır?
Üstümüzdə bizdən savayı, xəbər verən bir seyr edən var».

**«Hücum»** (الحجوم) və **«*qələbə*»** (الغلبات) yaxın mənalıdırlar, lakin hücum qələbə sahibinin əməlidir və bu, istəyin qüvvəsindən olur. Bu, istənəni (mətlubu) istəmə halında çoxlu işarətlər meydana çıxanda istəyənin istəyinin gücü ilə şəhvət və nəfslərin bəhanələrindən qurtulmaqdır. [Salik (yolçu)] istədiyinə çatacağını, yaxud çatmayacağını fərq etmədən, istədiyinin dənizin arxasında, yaxud səhrada olduğunu güman etsə də, ona tərəf üzər, iradəsinin üstünlüyü, var gücü ilə ona doğru gedər, əgər od görsə, bütün qüvvəsi ilə ruhunu tələf edərək ona hücum edər. Bunlar hücum və qələbənin mənalarıdır.

**«*Fəna*»** (الفناء) və **«*bəqa*»** (البقاء). Fəna – nəfsi keyfiyyətin itməsi (fəna olması), [bəndənin] çatdığı hala tabe olub ona mane olmamasıdır. Bəqa qulun bunlarla qalmasıdır. Həmçinin fəna

qulun Allahın onun üçün etdiyi əməlləri öz əməlləri kimi bilməkdən uzaqlaşmasıdır. Bəqa qulun Allahla, Allah üçün olmasından qabaq onun Allah üçün olması naminə Allahın onu var etməsi görüntüsünün qalmasıdır.

«***Mübtədi***» (المبتدى) – «***başlayan***» böyük əzmlə Allah-Təalaya gedən yolları qət etmişlərin yoluna başlayandır, həmin ədəblərə uyan, başlanğıcdan sona qədər getməyə və şərəf gətirən halları tanıyanların xidmət və izni ilə tərbiyələnməyə hazırlaşandır.

«***Mürid***» (المريد) başlanğıcı sağlam olan, yolu qət edənlərin arasına qoşulan, iradə saflığına sadiqlərin qəlblərinin şahidlik etdiyi, hələ hal və məqamlara çatmayan və bu yolda hələ öz iradəsi qalandır.

«***Murad***» (المراد) iradəsi artıq qalmayan arifdir; o artıq nəhayətlərə çatan, hallardan, məqamlardan, məqsədlərdən, iradələrdən keçmişdir. O, istənəndir (muraddır), istədiyi şeyi Onunla istəyir, ancaq Onun istədiyini istəyir.

«***Vəcd***» (الوجد) qəlblərin itirdikləri zikr saflığına rast gəlməsidir.

«***Təvacüd***» (التواجد) (özünü vəcdə gəlmiş kimi göstərmək) və «təsakur» (التساكر) (özünü sərxoş olmuş kimi göstərmək) mənaca yaxındırlar. Bu, qulun öz istəyi ilə vəcd və sərxoşluq halına çatmasıdır. Onun qayğısı vəcd və səkr (sərxoş) əhlindən olan sadiqlərə oxşamaqdır.

«***Vaxt***» (الوخت) keçmiş və gələcək arasında olandır. Cüneyd deyir: «Vaxt əzizdir, ötərsə, dərk edilməz», yəni sənin keçmiş və gələcək nəfəsin arasındakı nəfəsini və vaxtını Allahın zikri olmadan ötürsən, bir daha ona çata bilməzsən.

«***Badi***» (البادي) – «***aşkar***» qulun halına uyğun olaraq zamanında onun qəlbinə aşkarlanandır, açıq Haqq aşkarlananda Haqdan qeyri olan hər bir aşkar məhv olur. İbrahim Xəvvas da: «Açıq Haqq aşkarlananda bütün açıqlananlar itər», – deyir.

«***Varid***» (الوارد) aşkardan (badidən) sonra qəlblərə varid olan və onları bürüyəndir. Variddə əməl var, aşkarda isə əməl

yoxdur, çünki aşkarlar varidlərin başlanğıcıdır. Zu'n-Nun deyir: «Haqqın varidi gəlib ürəkləri titrədir».

**«*Xatir*»** (الخاطر) – **«*düşüncə*»** başlanğıcı olmayan sirlərin oyanmasıdır. Qəlbə bir şey gələrsə, sabit qalmaz, özü kimi başqa bir xatirlə itirilər.

**«*Vaqe*»** (الواقع) – **«*gerçək*»** isə sabit olur, başqa bir vaqe ilə yox olmur. Əbu Tayyib Şirazinin belə dediyini eşitdim: «Şeyxlərimizdən birindən bir məsələni soruşdum və mənə: «Arzu edirəm cavabı vaqe olsun», – cavabını verdi». Cüneyd Xeyr ən-Nəssacın yanına gələndə deyir: «Elə birinci xatirdən niyə çıxmadın?» Bu, o deməkdir ki, Xeyr ən-Nəssacın ürəyinə gəlir ki, Cüneyd onun qapısının ağzındadır, amma bu xatirini dönə-dönə yoxlayandan sonra qapıya çıxır və Cüneyd ona belə deyir. Deyirlər ki, doğru xatir birinci olandır, yəni ilk xatirinə gələndir. Xatirin mənası həmçinin onun sirlərdə zühur etməsində qulun bir münasibətinin olmamasıdır. Xatir eyni zamanda sirləri qavraya bilən bir gücdür.

**«*Qadih*»*** (القادح) – **«*alışdıran*»** xatirə yaxındır, lakin xatir ayıq (oyaq, bilən) əhl, qadih isə qəflət əhlinin ürəkləri üçündür. Onların qəlblərindən qəflət buludları dağılanda yerini zikrin qadihi (odu) tutar. Bu söz çaxmaqla od qalamaq sözündən götürülüb. Qadih odu alışdırandır. Biri deyir: «Ey odları çaxmaqla alışdıran».

Bir başqası isə: «Həqiqətin yandırdığı [şey] bəşəri sifətlərə bənzəməz», – deyir.

**«*Ariz*»** (العارض) – **«*əlavə*»** (aksidensiya) qəlblərə və sirlərə düşmənin, nəfsin və istəyin dediklərindən gələn şeydir (hissdir). Nəfsin, düşmənin, istəyin söylədiyi hər bir şey əlavədir, Allah-Təala bu düşmənlərə öz övliyalarının qəlblərinə girməyə arizdən başqa yol qoymayıb, xatir, qadih, aşkar və varid isə onlar üçün yol deyil. Şair deyir:

«Maddi şeylər hamısı qəlbimə gəlir,
Onu öz sirri və aşkarı ilə titrədir».

---

* Bu sözün bir neçə mənası var: dərindən düşünən, qığılcım çıxaran, təsir göstərən.

***«Qəbz»*** (القبض) – ***«sıxma»*** (azaltma) və ***«bəst»*** (البسط) ***«genişləndirmə»*** (böyütmə) mə‘rifət əhlinin iki şərəfli halıdır. Haqq onları sıxanda [namaza] durmaqdan, azadlıqdan, yeməkdən, içməkdən, danışmaqdan çəkindirir, bəst zamanı isə bunları verir və onları qoruyur. Qəbz arif adamın halıdır ki, onda mə‘rifətindən başqa bir şeyin lütfü yoxdur. Bəst də arif adamın halıdır ki, Haqq onu böyüdür, xəlqi onun ədəbi ilə tərbiyə edənə qədər onu hifz edir. Allah-Təala buyurur: Allah sıxan və genişlik verəndir, siz Ona dönəcəksiniz (Quran 2/245).

Cüneyd qəbz və bəstin mənasına, yəni xov və ümidə dair deyir: «Ümid itaəti genişləndirər, xof səhvləri azaldar (sıxar)».

Arifin xof və ümid halları barədə şair belə söyləyir:

«Haqqın mə‘rifətləri yayılsa, üç şeyi
Əhatə edər, ondan uzaq olanlar aldanmış ruhlardır.

Haqqın lütflərini tanıyan üçün Ondan savayı
Və Ondan başqa bir nəfəs yoxdur.

Məlikin dostluğunu tanıyan etiraf edir ki,
Vəcdi onu sabahın toranlığına təhrik edir.

Arif adəti itirəndir və kin-küdurətin
Bürüdüyü ürəklər ondan yan keçir.

Təvazökarlıqda fəsadı azaldır və yox edir,
Ondan iki şey yan uçar: nitq və dilsizlik.

Haqq Onsuz olan şeylərdə onun yardımına gəlir,
Ondan onun üçün gizli vəhyli işarətlər (cizgilər) var».

Qeyd edirlər ki, ariflər üç növ olur. Birincilər arifliyin heç nəfəsi olmayanlardır, ikincilər vəcdləri tərəfindən Allahın qoruduğu bir hala təhrik edilənlərdir, üçüncülər adət və ənənəni

itirən, Haqqın onlara qayğısı sayəsində danışmağın, susmağın və başqa belə şeylərin onlar üçün eyni məna daşıdığı kəslərdir. Susanda Allah üçün susarlar, danışanda Allahdan danışarlar.

Qeyb, hüzur, ayıqlıq, sərxoşluq, vəcd, hücum, qələbə, fəna, bəqa. Bil ki, bunlar Allahı zikr və Ona təzim üçün ürəklərdə baş verən hallardandır.

***«Mə'xuz»*** (المأخوذ) – ***«zəbt edilmiş»*** və ***«müstələb»*** (المستلب) – ***«talan olunmuş»*** eyni mənalıdırlar, lakin zəbt edilmiş mənaca daha tamdır. Bu kəslər (mə'xuzlar) Peyğəmbər (ﷺ) barəsində rəvayət edilən bir hədisdə xatırlanan qullar kimidirlər: «İnsanlar zənn edirlər ki, onların ağlı çaşıb, ancaq əslində çaşmayıb. Onların qəlbləri Allah-Təalanın əzəmətindən çaşıb, ağıllarını başlarından alıb».

Yenə Peyğəmbərin (ﷺ) belə dediyi rəvayət edilir: «Qul insanlar onu dəli zənn etməyənə qədər imanın həqiqətinə çatmayacaqdır». Həsən [Bəsri]nin belə dediyini nəql edirlər: «Bir mücahid gördüm, uzunqulağı itmiş yolçu kimi çaşqınlıq içində idi».

Zəbt edilmiş və əlindən alınmışa aid məlumatlar çoxdur. Şair deyir:

«Məni sarsıdan şeylərə görə məni qınama,
Mən sənin sevginlə zəbt edilib talan olmuşam».

***«Dəhşət»*** (الدهشة) ümidsizliyə düçar olanda sevənin ağlını aparan sevgilisinin heybətinin qüvvəsidir. O keçib gedəndə isə bir xəstəlik, zəiflik qalmaz. Sufilərdən birinin belə dediyi nəql edilir: «Allahım, Sən dünyada görünmürsən, elə isə Öz nəzdindən qəlbimi sakitləşdirən bir şey aşkarla». Dedi və huşunu itirdi. Ayağa qalxanda isə: «Sübhan Allah», – söylədi. Ondan nə üçün belə dediyini soruşanda cavab verdi: «Qəlbimə Onu görməyi əvəz edən bir sakitlik verdi». «Bu, Ona əvəz ola bilər?» Dedi: «Ya Rəbb, Sənin məhəbbətindən dəhşətə gəldim, özümə malik olmadım və nə dediyimi bilmədim». Bir başqası deyir:

«İstəklərinə uyan məni dəhşətə gətirir,

Bu dəhşətdən zaman keçmədi».

Şibli [Allaha] müraciətdə: «Ey dəhşətə gətirən», – deyərmiş. Bunun mənası hər şey, bütün yaradılmışlar Səndən dəhşətə gəlir deməkdir.

«***Heyrət***» (الحيرة) ariflərin ürəyinə onların düşüncəsi, hüzuru, təfəkkürü zamanı varid olan ilhamdır ki, onları düşüncə və təfəkkürdən aralayar. Vasiti deyir: «İlhamın heyrəti heyrətdən qaçmanın sakitliyindən daha üstündür».

«***Təhəyyur***» (التحير) – «***çaşqınlıq***» öz istədiyinə və məqsədinə çatmaqda ariflərin ürəklərinin ümid və ümidsizlik arasında çaşqınlıq məkanıdır. Onlar vüsala ümidli olmurlar ki, gözləsinlər, istəklərində də ümidsiz olmurlar ki, [əməllərinə] ara versinlər. Belə bir vaxtda onlar çaşqınlıqda olurlar. Bir nəfər «Mə‘rifət nədir?» sualına belə cavab verir: «Çaşqınlıq, sonra qovuşma, sonra ehtiyac, sonra heyrət». Şair deyir:

«Səndən çaşqınlığa düşdüm, tut əlimdən,
Ey Səndən çaşqınlığa düşənlərə dəlil olan!»

«***Təvali‘***» (الطوالع) – «***nurlanma***» tövhid nurunun mə‘rifət əhlinin ürəklərinə bütün parlaqlığı ilə doğması və öz nurunun üstünlüyü ilə qəlbdəki başqa nurları əminləşdirməsidir. Günəş doğarkən işığının qüdrəti ilə ona baxan ulduzların işığının yox olması kimi, halbuki onlar yerindədirlər. Hüseyn b. Mənsur deyir:

«Parlaq nurlar təcəlli edib
Şimşək parıltısı ilə işıqlandırdı.

Vahid mənə Ona gedən yolları
Saf tövhidlə xatırlatdı».

«***Təvariq***» (الطوارق) – «***fəlakətlər***» eşitmək vasitəsi ilə həqiqət əhlinin ürəyinə girən, oradakı həqiqətləri təzələyən şeydir.

Şeyxlərdən birinin belə dediyi nəql edilir: «Həqiqətlər əhlinin elmlərindən bir elm eşidəndə onun qəlbimə girməsini ancaq Kitab və sünnələrə müraciət edəndən sonra rəva bilirəm».

«*Təvariq*» lüğətdə gecə doğan ulduza deyilir. Peyğəmbərin (ﷺ) belə dua etdiyi rəvayət edilir: «Məni xeyrə yol göstərənlərdən savayı, gecə və gündüz doğanların şərindən qoru».

**«*Kəşf*»** (الكشف) fəhmdən gizlənən şeyin bəyanı, öz gözləri ilə görürmüş kimi qul üçün açıqlanmasıdır. Əbu Məhəmməd Cüreyri deyir: «Özü ilə Allah-Təala arasında olanlara qorxu (təqva) və nəzarətlə əməl etməsə, kəşf və müşahidəyə çatmaz». Nuri isə: «Gözlərin kəşfləri görməklə, qəlblərin kəşfləri qovuşma ilə olar», – söyləyir.

**«*Şəth*»** (الشطح) dilin mənbəyindən gələn, vəcdlə deyilmiş, iddiaya yaxın söylənmiş sözdür, ancaq onun sahibi talan edilmişdir (müstələb) və qorunur. Əbu Həmzə nəql edir ki, Xorasanlı bir adam məndən əminlik barədə soruşanda belə cavab verdim: «Sağında şir, solunda yastıq olan və hansına söykənəcəyini ayırd edə bilməyən birini tanıyıram». O: «Bu, şəthdir. Elmini göstər», – dedi.

Bəzi şəxslər var ki, onlardan iddialı bir məsələ barədə soruşanda: «Allah mənim dilimi şəthdən saxlasın», – deyir.

Cüneyd Əbu Yəzidin şəthlərini təfsir etmişdir, Əbu Yəzid özü isə onları hər hansı bir səbəbdən təfsir etməmişdir. Qənnad deyir:

«Həqiqətin və halların şəthi arasında
Bir şəth var ki, hər ikisi arasında parlayar.

[Bu] hal dəyişən (təlvindəki) hal kimi itib-batar,
Göz iki deyilən şəthi yaxınlaşdırar»,

(yəni ilk baxışda müxtəlif mənalı sözlər eyni görünə və yanlış yozula bilər).

***«Saul»*** (الصول) – ***«coşma»*** müridlərin və yarı yolda olanların yoldaşlarının halları barədə diluzunluq etməsidir və bu, məqbul hesab edilmir.

Əbu Əli Rüzbari deyir: «Sənin öz nəfsi əməllərində Allahı günahlandırmağın böyük günahlardandır. Həm mən Səninəm, Sənsiz [məqsədə] yetişmərəm deyə xəyal edirsən, həm də öz iddianla Allahdan qorxub sənə öz halını xəbər verməyən kəsin üstünə coşursan. Coşmaqdan çəkin, çünki o, səndən yüksəkdə olan birisinin yanında utanmazlıq, səndən aşağıda olanın yanında mə‘rifətinin azlığı, sənin kimisinin yanında isə ədəbsizlikdir. Sadiqlər və nəhayət əhli Allahla olan məqamlarının azlığına, Allahdan savayı olan şeylərə coşarlar».

Peyğəmbərin (ﷺ) belə dua etdiyi nəql edilir: «Allahım, səninlə coşur və Səninlə hərəkət edirəm». İbrahim Xəvvas bir kitabında yazır: «Mən deyirəm ki, mənim coşmam Allahladır».

Şair yazır:

«Bərabər olduğunun uzaqlığından yaşayış<br>
necə xoş ola bilər?<br>
Zamanın müsibətlərinə qarşı coşdum».

***«Zihəb»*** (الذهاب) – ***«uzaqlaşma»*** itməklə (pərdələnməklə) eyni mənalıdır, lakin uzaqlaşmaq pərdələnməkdən daha əhatəlidir, tamdır. Bu, şahidi olduğunun müşahidəsi ilə qəlbin öz hiss etdiklərindən uzaqlaşmasıdır, sonra o, bu uzaqlaşmanın özündən də uzaqlaşır.

***«Uzaqlaşmadan uzaqlaşma»*** (ذهاب الذهاب) sonu olmayan bir şeydir. Cüneyd Əbu Yəzidin «yoxluqla yox olma» kəlamının təfsirində belə deyir: «Bu, hər bir şeydən uzaqlaşma və uzaqlaşmanın özündən də uzaqlaşmaqdır və bu, onun «yoxluqla yox olma» dediyinin mənasıdır, yəni danışan itir, əşyalar yox olur və heç bir şey qalmır, hiss etmir və bu, qövmün (sufilərin) «fəna» və «fənadan fəna», «itirməkdə itirilmişin itirilməsi» adlandırdığı şeydir».

**«*Nəfəs*»** (النفس) qəlb yanarkən [insanın] cana gəlməsidir. Şeyxlərdən biri belə deyir: «Nəfəs Allahın odu üzərində hakim olan Allah nəfəsindən bir əsintidir».

**«*Tənəffüs*»** (التنفس) də eynən elədir. Zu‘n-Nun deyir:

«Allaha sığınan Allahla qurtulur,
Allahın bəlasının gəlməyi onu sevindirir.

Nəfəslər Allah üçündür, Allaha doğru qaçarlar,
Mənimkində Allahdan başqasının təsiri yoxdur».

«*Nəfəs*» həmçinin qulun nəfəsidir. Cüneyd deyir: «Qulun öz nəfəsini qoruması vaxtının [hədər] keçməsinə mane olur». Şair yazır:

«Yalnız sən nəfəsimlə bərabər olanda nəfəs alıram,
Ruhum öz yolunda Səninlə məndən qaçır».

**«*Hiss*»** (الحس) nəfsin sifətindən (keyfiyyətindən) meydana gələn şeyin təsviridir. Əmr Məkki deyir: «Məncə, vəcdin üstünlüyü (qələbəsi) zamanı hisslərimi itirirəm deyən səhv edir, çünki o, anlamır ki, hisslərin itməsi ancaq hisslərlə mümkündür».

Tapmaq və itirmək hisslərlə anlaşılar və hər ikisi hiss olunandır.

**«*Ümumi (avam) tövhid*»** (توحيد العامة) dil ilə söylənən, qəlb ilə təsdiqlənən tövhiddir. Dil onu Vahid olanın sübutları ilə, Onun təsdiq etdiyi bütün ad və sifətləri ilə söyləyir, inkar etdiyini Allahın onun nəfsi üçün isbat etdiyi şeyin dəlili ilə inkar edir, Allahın onun nəfsindən uzaqlaşdırdığı şeydən uzaqlaşır.

**«*Xüsusi tövhid*»** (الخصوص توحيد) tövhid bölməsində qeyd etdiyimiz kimi, Allah-Təalanın vəhdaniyyətinin əzəmətinin qulun hisslərinin uzaqlaşması (zihəb) ilə Onun yaxınlığının həqiqətinin mövcudluğu və qulun hərəkətlərinin Allah-Təalanın istədiyi kimi olmasıdır. Rəvayətə görə, tövhid haqqında söhbət gedərkən Şibli bir nəfərə deyir: «Bu, sənin tövhidindir». Həmin şəxs soruşur:

«Məndə bundan başqa nə ola bilər ki?» Şibli cavab verir: «Vahid olanın tövhidi. Bu, Allahı Özü ilə tövhid etmək, Onun üçün təkləmək, buna şəhadət vermək və Onunla şəhadət verdiyindən qeyb olmağındır (bütün vasitələrdən uzaqlaşmağındır)». Bu, xüsusi tövhidin sifətidir.

**«*Təfrid*»** (التفريد) **«*fərdiləşdirmə*»** yeganəliyin həqiqətlərinin mövcudluğu ilə yaradılanı ortadan qaldırıb əbədini (qıdəmi) seçməklə Fərdlənəni ayrı tutmaqdır. Birisi belə söyləyir: «Möminlərdən Allahın vahid olduğunu deyənlər çoxdur, onlardan fərdiləşdirənlər azdır». Hüseyn b. Mənsur qətli zamanı danışarkən bunu deyir: «Vacidin (vəcd sahibinin) düşüncəsi Vahidin təkliyini bilməkdir».

**«*Təcrid*»** (التجريد) qəlblərin bəşəriyyətin küdurətlərindən arınıb, ülunhiyyətin (tanrılığın) şahidlərindən uzaq (təcrid) olmasıdır. Şeyxlərdən birindən təcrid barədə soruşanda belə cavab verir: «Qulun Haqqı baş verən şər bir şeydən seçməsi və ağlına gələn hər bir şeyi atmasıdır».

«*Təcrid*», «*təfrid*» və «*tövhid*» oxşar mənalı müxtəlif sözlərdir. Onların təfsilatı vəcd sahiblərinin və onların işarətlərinin sayı qədərdir. Şair deyir:

> «Haqqın həqiqəti yalnız təcrid olunanın
> Həqiqi təcridi ilə tanınan Haqdır».

**«*əl-Həmm əl-müfərrəd*»** (الهم المفرد) – **«*təklənmiş kədər*»** və **«əs-sirr əl-mücərrəd»** (السر المجرد) – **«*təcrid olunmuş sirr*»** eyni mənalıdırlar. Bu, qulun kədəri və sirridir. Əgər bütün məşğuliyyətlərdən uzaqlaşıb cəlal sahibinin (Allahın) nəzarəti ilə yalnız qalarsa, kəskin düşüncələr ona qarşı çıxmaz, onun istiqamətinə, iqbalına, yaxınlığına və qovuşmasına mane ola biləcək əngəl olmaz.

Cüneyd İbrahim Acurrinin ona belə dediyini nəql edir: «Oğlan, sənin qayğının bir göz qırpımı da olsa, Allah olması günəşin hər hansı bir şeyin üzərinə doğmasından daha xeyirlidir».

Şibli bir nəfərə deyir: «Məqsədlərin ən ifratı (şiddətlisi) yoxluq fəzasında olur. Sənin qayğın susuzun qayğısıdır, mənim qayğım isə susuzluqdan yanmışın (qovrulmuşun) qayğısıdır».

**«*Muhadəsə*»** (المحادثة) – **«*söhbət*»** sadiqlərin son [halının] vəsfidir. Əbu Bəkr Vasitidən sadiqlərin sonuncu ən uca halı barədə soruşanda belə cavab verir: «[Ürəyində fikirlər] doğulur və [qeybdən] xəbər verilənlər». Peyğəmbərin (ﷺ) belə dediyini rəvayət edirlər: «Ümmətim arasında [dini əmrləri etməyə] borclu olanlar və [qeybdən] xəbər verilənlər vardır, Ömər də onlardandır». Səhl b. Abdullah deyir: «Allah xəlqi sirrini bölüşmək üçün yaratdı və bölüşdü». Allah-Təala deyir: «Mən sizi sirlərinizi bölüşəsiniz deyə yaratdım və əgər sizlər bunu etməsəniz, mənə deyin, mənə söyləyin, əgər etməsəniz, mənə dua edin, əgər etməsəniz, məni dinləyin».

**«*Münacat*»** (المناجاة) Qüdrət sahibinin zikrinin saflığından sirlərin Ona deyilməsidir. Əbu Əmr b. Ülvan Cüneydin bir gecə səhərə kimi öz münacatında belə dediyini eşitdiyini söyləyir: «Allahım, Ağam, məni vüsalınla Özündən aralamaq, yaxud heyhatı tərk edərək məni Özündən gizlətmək istəyirsən». Əbu Əmrdən soruşdum: «Heyhatın mənası nədir?» Dedi: «Təmkin».

**«*Müsamərə*»** (المسامرة) – **«*gecə söhbəti*»** gizli zikr zamanı sirlərin söylənməsidir. Rüzbari deyir:

«Saf sevgimlə söhbət etdim, onun kədəri
İstəyin yanğısıdır, onun susuzluğu – atəşidir».

Şeyxlərdən birindən gecə söhbəti barədə soruşanda belə cavab verdi: «İçindəki sirlərlə bərabər, müraciətin davamlılığının uzanmasıdır».

**«*Qəlbin görməyi*»** (رؤية القلوب) iman həqiqətləri zamanı yəqinliyin odu ilə qəlblərin qeybdə olanlara baxmasıdır. Onun mənası möminlərin əmiri Əli b. Əbu Talibin: «Sən Rəbbini görürsən?» – sualına cavabında açıqlanır: «Görmədiyimiz bir şeyə necə ibadət edə bilərik?» Sonra əlavə elədi: «Onu gözlərinizlə, yəni bu dünyada gözlərin görməsi ilə görmürük, lakin qəlblər Onu

Ona imanın həqiqətləri ilə görür». Allah-Təala buyurur: Könül gördüyündə aldatmadı (Quran 53/11) və bu dünyada qəlblərin görməsini təsdiqləyir.

Peyğəmbər (ﷺ) deyir: «Allaha elə ibadət et ki, elə bil görürsən, sən Onu görməsən də, O, səni görür».

***«Ad»*** (isim – الإسم) ad verənin adlandırdığını təsdiq edən dəlil üçün toplanmış hərflərdir. Hərflər itərsə, onun (adın) mənası «adlanan» şeydən fərqli olmaz.

Rəvayətə görə, Şibli belə deyir: «Xəlqdə Ondan yalnız Onun adı var». Sonra isə əlavə elədi: «Adı haqqı ilə söyləyəni ver mənə!»

Əbu Hüseyn Nuri öz işarəsini bu beytində bildirir:

«Bir uşaq aclıqdan öz anasına toxunanda
Anası onu uşaqlıq adı ilə çağırdı və o, ona sarıldı».

Şibli deyir: «Adı deyib və dediyini tanıyan birini istəyirəm». Sonra söyləyir: «Məxluq elmlə, elm adla, ad Zatla qürurlanar».

***«Rəsm»*** (الرسم) elmi işarətlərlə xəlqin zahirinin çəkilən və Haqqın sultanlığının meydana gəlməsi ilə itən təsviridir.

Cüneyddən adı itmiş, təsviri getmiş, işarətləri yox olmuş və təsviri olmayan biri haqqında soruşanda belə deyir: «Bəli, o, Haqqın onu Öz mülkündə Özü ilə, Özü üçün var etdiyini müşahidə edəndə belə olur». Onun dediyinin mənası budur ki, itən onun şəklidir, yəni öz varlığında Allahın onu var etməsini görməklə ona əlavə edilən elmi (bildiyi) və əməli (etdiyi) itir.

Şair deyir:

«İtmiş və silinmiş rəsmlərə and olsun».

***«Vəsm»*** (الوسم) – ***«əlamət»*** Allahın öz məxluqlarını elminin əvvəlində istədiyi şeylə, istədiyi kimi işarələməsi və damğalamasıdır, [o] heç vaxt dəyişmir və heç kim bu elmi anlamır. Əhməd b. Əta deyir: «Qəbul və rədd edilmişlərin iki

əlaməti məlumdur, çünki hər ikisi əbədidən əzəliyə qədər davam edən iki keyfiyyətdir».

**«*Ruh*»** (الروح) və **«*ruhlanma*»** (الترّوح) həqiqət əhlinin ürəyinə əsən mehdir. [Ürəklərin] böyük diqqətlə daşıdığı şeyin ağırlığının yorğunluğundan ruhlanmasıdır. Yəhya b. Müaz deyir: «Hikmət Allah-Təalanın ariflərin ürəklərinə göndərdiyi qoşunlardandır və bununla dünya atəşini soyudur». Bir başqa dəfə isə: «Ruh Qüdsdə öz mövlası ilə məşğul olan Allahın dostudur», – söyləyir. Süfyanın fikrincə: «Ariflərin qəlblərinin həcmi səma bağları qədərdir ki, onun hüdudlarından kənarda Rəbbin pərdələri başlayır. [Bağın] meyvəsi Allahla yaxınlığın ünsiyyətinin havasından yetişir».

**«*Nə't*»** (النعت) – **«*vəsf*»** təsvir edənin təsvir etdiyinin əməli, ehkamları, əxlaqı barədə söylədikləridir. Sifət və vəsf eyni mənalı olsalar da, vəsf konkret, sifət isə daha geniş mənalıdır. Vəsf edilərkən ümumi [şeylər] söylənir, sifətdə isə (onlar) ayrı-ayrılıqda fərqləndirilirlər.

**«*Sifət*»** (الصفة) vəsf edilən şeydən fərqlənməyən bir şeydir. Deyilə bilməz ki, bu, vəsf olunandır, yaxud deyil.

**«*Zat*»** (الذات) özü-özlüyündə var olan şeydir. «Ad», «vəsf», «sifət» zatın əlamətləridir. Ad, vəsf, sifət yalnız zatla mövcuddur. Yalnız zatı (mahiyyəti) olan adlana, təsvir və vəsf edilə bilər. Belə ki, Qadir Allah-Təalanın adlarındandır, qüdrət Allah-Təalanın sifətlərindəndir, qüdrətli olmaq Onun vəsfidir. Mütəkəllim Allah-Təalanın adlarından bir ad, kəlam sifətlərindən bir sifət, bağışlayan Onun vəsflərindəndir.

Vasiti deyir: «Onun xəlqlə olan yalnız adı, yaxud sifəti və ya vəsfidir. Xəlq Onun adları ilə vəsflərindən, vəsfləri ilə sifətlərindən, sifətləri ilə Zatından pərdələnib. Qul Onun idarə etməsini, yaratmasını, fəzilətini və ehsanını xatırlayanda Onun vəsflərini xatırlamış və bu vəsflərlə Onu vəsf etmiş olur, Onun elmini, qüdrətini, kəlamını, istəyini xatırlayanda isə Onun sifətini xatırlamış və bu sifətlə Onu təsvir etmiş olur.

Şair deyir:

«Günəş sənin üzərinə öz nurları ilə doğanda
Son düşən şüalarla qarışırsan.

Onun məkanı Əziz Zatdan uzaqdadır,
Sən nəfsini məcburi vəsfdən arındıra bilməzsən».

***«Hicab»*** (الحجاب) istənən, qəsd edilən şeylə istəyən, məqsədə gedən arasında qoşulmuş maneədir. Səri Səqati belə dua edir: «Allahım, hər hansı bir şeylə əzab versən də, hicab zilləti ilə əzab vermə».

Məhəmməd b. Əli əl-Kəttani deyir: «Savabı görmək hicabdır, hicabı görmək özünə heyranlıqdır». Allah bilən yaxşıdır, ancaq mənası budur: «Qul öz ibadətinin və zikrinin savabını görərsə, bu, onun üzərinə çəkilən hicab olar, onun hicabı görməsi isə öz elmini bəyənməsinin pərdəsi olar».

***«İddia»*** (الدعوى) nəfsin onun olmayan şeyi özünə aid etməsidir. Səhl b. Abdullah deyir: «Qul və Allah arasında ən böyük hicab iddiadır».

Şair yazır:

«Mən məhəbbət iddia etdim, dedi məni aldadırsan,
Sənin heç bir əzanı eşqə tutulmuş görmürəm».

Əbu Əmr Züccacinin fikrincə: «İddiası olmayanın mənası da olmaz», yəni nəfs özünə əxlaqdan kənar bir itaət aid edirsə, bu iddia üçün bir sübut da lazım olar.

***«İxtiyar»*** (الإختيار) – ***«seçim»*** Allahın öz qulu üçün seçdiyidir. Qul Allahın ona lütfü ilə seçir. Bu seçkini o, öz nəfsinin seçməsi ilə deyil, Allahın onun üçün seçməsi ilə edir.

Yəhya b. Müazın fikrincə, nə qədər ki, qul öyrənir, ona deyirlər: «Seçmə, çünki sən öyrənənə qədər öz seçimində əmin deyilsən». Öyrənəndə isə deyirlər: «İstəyirsən seç, istəyirsən seçmə, sən seçsən bizimlə seçəcəksən, seçməsən də bizimlə seçməyəcəksən. Sən seçəndə də, seçməyəndə də bizimləsən».

**«*İxtibar*»** (الإختبار) – **«*sınaq*»** Haqqın öz sadiq qullarını sınağa çəkməsidir. Bununla seçilmişlərin məqamını qaldırır, imtahanla onların sədaqətini üzə çıxarır, Onun möminlər üzərindəki dəlillərini isbatlayır və bununla müridləri tərbiyə edir.

Peyğəmbərin (ﷺ) belə dediyi rəvayət edilir: «Sınasan, küsdürərsən», yəni sevdiyin birini imtahan etsən və içində olduğu halının səmimiliyini imtahanla meydana çıxarsan, o küsər.

**«*Bəla*»** (البلاء) Haqqın öz qulunu onun halının həqiqətində mübtəla etdiyi ilə imtahan etməsinin zühurudur. Bu, ona gələn əzabdır. Əbu Məhəmməd Cüreyri deyir: «İnsan bəla ilə olar».

Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Biz, peyğəmbər toplusu, insanların ən çox bəlalı olanlarıyıq».

Bəla haqqında şair deyir:

«Bəlanın dairələri ətrafımda dolanır,
Görürsən, hamısı üstümə coşur?

Mən məndən savayı bir bəla görmədim,
Mənim bəlamın üstünə bəla qarışıb.

Mən bəla quyusuyam, mənim bəlam
Üzərindəki bəlaları qucaqlayır.

Ey bəla, üzərindəki bəlam artır,
Rəbbim, ona rəhmli və malik ol.

Ey bəlalara yardımçı, mənə bəlamda
Yardım et, bəla mənim üzərimdə bir atəşdir».

**«*Lisan*»** (اللسان) – **«*dil*»** həqiqətlər elminin bəyanıdır.

Əbu Hüseyn Nuri Cüneydə yazır: «Ağam, sənin bəla elminə dair bir dilin var, bəlanın bəlasının elminin isə iti ücü var». Dil, yəni elmin bəyanı.

Şiblidən elmin dili ilə həqiqətin dilinin fərqi barədə soruşanda belə cavab verir: «Elmin dili bizə vasitə ilə çatır,

həqiqətin dili isə vasitəsiz çatır». Ondan yenə soruşurlar: «Bəs Haqqın dili nədir?» Cavab verir: «Yaradılmış üçün ona yol yoxdur». Dil deyəndə o, elmin bəyanını və onu sözlə açıqlamağı nəzərdə tutur.

«***Sirr***» (السر) yoxluq və varlıq arasındakı mənada gizli olan şeydir. Deyilənə görə: «Sirr – Haqqın gizlətdiyi və xəlqin görə bilmədiyi şeydir». Xəlqin sirri Haqqın vasitəsiz olaraq bildiyidir. Haqqın sirri yalnız Haqqın aça biləcəyi şeydir.

«***Sirrin sirri***» (سر السر) sirrin belə hiss etmədiyi şeydir. Hiss etsəydi, ona sirr deyilməzdi.

Səhl b. Abdullah deyir: «Nəfs üçün sirr yalnız Haqqın Fironun dili ilə yaydığı şeydir: «Mən sizin ən uca Rəbbinizəm!»».

Şair yazır:

«Ey hər bir canlının vəhmindən
Gizlənən qədər incələn sirrin sirri.

Hər bir şeydən hər bir şey üçün
Təcəlli edən zahir və batin».

«***Əhd***» (العقد) – «***düyün***» sirrin düyünüdür. Bu, qulun qəlbi ilə Allah arasında bağlanır ki, bunu et, o birini etmə.

Allah-Təala deyir: Ey iman edənlər, əhdinizə əməl edin (Quran 5/1). Bir hikmət əhlindən soruşurlar: «Allah-Təalanı nə ilə tanıdın?» Cavab verir: «Düyünləri açıb borclarımı yerinə yetirməklə».

Məhəmməd b. Yaqub Fərəci deyir: «Dilim söylədiyində yalançı çıxar deyə, qorxudan 30 ildən bəri mənimlə Allah-Təala arasında bir əhd bağlanmayıb».

Ümumi və xüsusi arasında fərq barədə soruşanda cavab verirlər: «Ümumi möminlərdir ki, dilləri ilə and içəndə Allah-Təala onlar üçün vəfanı vacib buyurur. Xüsusi isə qəlbi ilə əhd edər və Allah-Təala ona da vəfanı buyurar».

***«əl-Həmm»*** (الهم) – ***«qayğı»*** bütün qayğıları cəmləşdirən qayğıya işarətdir. Əbu Səid Xərraz deyir: «Bütün qayğılarını Allah-Təalanın qarşısında topla». Bu sözləri də ona aid edirlər: «Qulun qayğısı gərək Onun ayaqları altında olsun», yəni nə keçmiş, nə gələcək halına baxmadan öz vaxtında Onun vaxtı ilə olsun.

***«Baxış»*** (اللحظ) mənbəyə olan imandan yəqinliyin artması ilə qəlblərin onlara agah olanlarla gördüklərinin aşkarlanmasına işarətdir.

Rüzbari deyir:

«Onu gördüm və o da məni baxışlarında gördü,
Onun mənası ilə gördüklərimdən uzaqlaşdım.

Mənım əzmim gizli lütflə rastlaşdı,
Mənşəyi olmayan bir yerdə məskunlaşdı.

Heç kimə bir marağım, bir biliyim yox,
Təsəlli tapıb unudacağım rahatlıq da yox.

Allah bilir ki, mən Onu zikr etmirəm,
Mən onu necə zikr edim, Onu unuda bilmirəmsə?»

***«Məhv»*** (المحو) şeyin izsiz itməsidir. Əgər ondan iz qalırsa, ona «tams» – silinmə deyirlər.

Nuri deyir: «Xüsusi və ümumi [hər ikisi] übudiyyət (qul) köynəyindədir, lakin onların daha üstün olanlarını Allah cəzb edir, hərəkətlərindəki nəfslərini məhv edir və onları öz yanında sabitləşdirir».

Allah-Təala buyurur: □Allah istədiyini məhv edir və sabitləşdirir□ (Quran 13/39). Ayənin mənası budur: «Hər şey Onun əlindədir və onların nəfslərini məhv edər, yəni hərəkətlərində nəfslərinin gördüklərini uzaqlaşdırar və onların hərəkətlərini və əməllərini var edənin Allahın olduğunu isbatlayar».

***«Məhq»*** (المحق) – ***«tələf etmə»*** məhvlə eyni mənadadır, lakin tələf etmə daha geniş mənalıdır. Çünki o, məhvdən daha sürətlidir.

Birisi Şiblidən soruşur: «Səni niyə belə narahat görürəm? O, səninlə deyil, ya sən Onunla deyilsən?», Şibli cavab verir: «Mən onunla olsaydım, məndən yan ötərdi, lakin mən Ona nisbətdə yoxam (məhv olmuşam)», yəni məndən, mənimlə, mənə aid bir şey yoxdur, hər şey Ondandır, Onun üçündür.

Şair dediyi kimi:

«Hər bir şey Onun üçün, Onunla və Ondandır,
Bəs mənim üçün olan hardadır ki, Ondan üstün bilim, dil sussun?»

***«Əsər»*** (الأثر) – ***«iz»*** itmiş şeydən qalan əlamətdir. Birisi deyir: «Nəzərdən məhrum olan izlə ünsiyyətdə olar. İzin yoxlugundan zikrlə məşğul olar». Şair deyir:

«Sizdən məndə bir iz yoxdur,
Sizdən bir xəbər eşitmirəm».

Deyirlər ki, bəzi şahların sarayında belə yazılırmış:

«Bizim izlərimiz bizə dəlalət edər,
Bizdən sonra izlərimizə baxın».

Xəvvas izin mənası və xüsusi tövhid barədə belə deyir: «[Bu], Nəfslərində olan şeylərin izlərini tərk etməklə bütün şeylərdə Allah-Təalanı fərdiləşdirməkdir».

Şair deyir:

«Əgər sənsiz olsam, Çin dənizi qarşımda olsa,
Onu izi itən şərab kimi içərəm».

**«*Kaun*»** (كون) – **«*varlıq*»** kəf (ك) və nun (ن) arasında var olan, Onun yaratdıqlarının ümumiləşdirilmiş adıdır.

**«*Baun*»** (البون) – **«*məsafə*»** uzaqlaşmaq (beynunə) mənasındadır. Varlıq və məsafənin mənaları tövhid elmindəndir. Tövhid əhlinin tövhidi təsvir etməsi barədə Cüneyd deyir: «Varlıqsız var olurlar, məsafəsiz uzaq olurlar», yəni müvahhidlər (tövhid əhli) var olmamış kimi olurlar, şeylərdən heç uzaqlaşmadan onlardan uzaq olurlar. Çünki onların varlıqları şəxsiyyətlərinə görə, əşyalardan uzaq olmaqları isə sirləri ilədir». Bunlar varlığın və məsafənin mənalarıdır.

Şair deyir:

«Təklik səhrasında yalnızca dolaşdı,
İstədiyin vaxt səndən olan ucalıqla qeyb oldu.

Uzaqlığından sonra özünü tanıtdığın kəs üçün
zühur etdin,
O, varlıqsız var oldu, sanki Sən o oldun».

**«*Vəsl*»** (الوصل) – **«*vüsal*»** qeybə çatmaqdır.

Yəhya b. Müaz deyir: «Ərşin altındakılara göz yummayan kəs ərşin üstündəkinə çata bilməz», yəni ərşin məxluqların nəzarət etdiyindən ötürdüklərinə çata bilməz. Şiblinin fikrincə: «Vasil olduğunu güman edən hasil olmaz». Bir başqası isə: «Üsulunu itirmişlər vüsaldan məhrum olar», – söyləyir.

Şair yazır:

«Vəsliniz hicrandır, sevginiz tərk,
Yaxınlığınız uzaqdır, sülhünüz hərb».

**«*Fəsl*»** (الفصل) – **«*ayrılma*»** sevgilidən rica edilən şeyi nəzərdən qaçırıb ötürməkdir.

Şeyxlərdən biri deyir: «Çatdığını (vəslini) güman, yaxud zənn edən, yəqindir ki, çatmayıb (ötürüb)». Bir başqası isə bildirir: «Sənin vüsalının sevinci ayrılığın kədəri ilə qarışıqdır».

Şair yazır:

«Nə vəsl var, nə fəsl,
Nə ümidsizlik, nə ümid».

**«*Əsl*»** (الأصل) çoxala bilən şeydir. Üsulun əsli hidayətdir.

**«*Üsul*»** (الأصول) – dinin üsulu tövhid, mə‘rifət, iman, yəqinlik, sidq və səmimiyyətdir.

**«*Fər‘*»** (الفرع) – **«*törəmə*»** əsldən artıq olan şeydir. Törəmədən artıq olana isə əsl adı verilir.

Əsl – törəmə olan artımların dəlilidir, törəmə olan artımlar isə üsuldur. Əsl hidayət, tövhid, mə‘rifət, iman, sidq, səmimiyyətdir. Onların artması hidayətin artması ilə olur. Hallar, məqamlar, əməllər, itaətlərin artması və onların törəmələri «üsul» adlanır.

Əmr b. Osman Məkki deyir: «Üsulu qəbul etməyimiz nöqsanımızda, imandan sonra inkarımızda əleyhimizə dəlildir».

Alimlərdən biri belə söyləyir: «Allah-Təalanın rəsulunun dəvət etdiyi şey əsldir. Bu əsldən artıq olan isə əslə geri dönən törəmədir».

**«*Tams*»** (الطمس) – **«*silinmə*»** aşkar şeyin aşkarlığının məhvidir. Cüneyd Əbu Bəkr Kəsaiyə yazdığı məktubda deyir: «Qapalı yollarda, sönmüş ulduzlar arasındasan».

Allah-Təala buyurur: Ulduzlar sönəndə (Quran 77/8), yəni işıqları itəndə.

Əmr Məkki deyir: «Sən bu qaranlıq yollara düşmədikcə, Haqqın həqiqətinə çata bilməyəcən», yəni sənə xas olan izi itəcək bu hallara çatmayana qədər sən həqiqətə çata bilməyəcən.

**«*Rəms*»** (الرمس) – **«*basdırmaq*»** və **«*dəms*»** (الدمس) – **«*gömmək*»** dəfn etmək mənasındadır. Ona görə də qəbirstanlığa «deymas» – sərdabə deyirlər. Cüneyd Yəhya b. Müaza məktubunda yazır: «Sonra Öz şahidini məzar qaranlığında basdırdı, sonra məzarını qaranlıqları bağışlayanın qeybində yox elədi, öz sirrindən Onun gizliliyində gizlətdi, sonra Onun üçün,

Onunla və Ondan olan fərdiləşdirmə (yeganə olduğunu bildirmək) işarətlərini və nişanələrini kəsdi».

Bu, xəlqin heç yoxmuş kimi varlığının itməsi ilə tövhidin həqiqətinə [çatmağa] işarətdir.

Səhl deyir: «Nəfsini torpaq altında dəfn etsən, qəlbin ərşin üstünə çatar», yəni əgər nəfsinin əleyhinə olsan, ondan ayrılarsan.

***«Qasm»*** (القصم) – ***«qırılma»*** bükülmək deməkdir. Əbu Bəkr Zəqqaqın belə dediyi rəvayət edilir: «Günahlarım mənim nəfsim üçün seçdiyim şeylər olsa, buna kədərlənməzdim, çünki onlar mənə oxşayardı. Əvvəl etdiklərim belimi qırır». Vasiti: «Zamanında bütün işlərin həqiqətləri açılar. Kim əbədinin şahidliyi ilə onların şahidi olsa, beli bükülər», – söyləyir.

***«Səbəb»*** (السبب) vasitədir. Səbəb və vasitələr xəlq və Allah-Təala arasında olanlardır.

Əhməd b. Əta deyir: «Kim səbəbdən səbəb olanın etdiyinin şahidi olarsa, səbəb olanın səbəb etdiyinin müşahidəsinə çatar. Çünki səbəbi görənin qəlbi səbəblərin zinətləri ilə dolar. İtaətdən yayındıran səbəbləri tanıyan onlardan (səbəblərdən) aralanıb dəvət edən səbəblərlə saleh əməllərə çatar.

Əbu Əli Rüzbari deyir:

«Səninlə olmayan Sənin məhəbbətindən,
İstəyindən, sevdikləri ilə ünsiyyətdən fanidir.

Onu bürüyən dərin eşq onu təmizləməsə,
Səbəblərdən uzaqlaşa bilməz.

Sanki o, mərtəbələr arasında dayanıb,
Həzz mənzilləri, ya da gözəl bir sonluq üçün».

***«Nisbət»*** (النسبة) sahibini tanıdan hal, yəni onu tanıdan aidiyyətdir. Cəfər Təyalisi Razi deyir: «Nisbət iki cür olur. Həzlərin və həqiqətlərin nisbəti. Yaranmış itəndə həqiqət meydana çıxar. Yaranmış meydana çıxanda həqiqət itər».

Qənnaddan qərib barədə soruşurlar: «Dünyada bir nəsibi olmayandır», – cavabını verir. Nuri deyir: «Hər dəfə gözlərim Onu görəndə elmə aid edir, qəlbim Onu tanıyanda yəqinə aid edir». Buna görə də deyirik ki, nisbətin mənası [həm də] etirafdır.

Əmr b. Osmana görə: «Sirlərin kəsilməsinin təsviri odur ki, görüləndən sonra qalmır və nisbətində, yəni etirafında açıqlıq olmur».

Filan **«*Qəlb sahibidir*»**in (صاحب قلب) mənası odur ki, onun [quru] sözləri və qəlbində toplanmış elm haqqında bəlağətli bəyanı yoxdur. Cüneydin belə dediyi nəql edilir: «Xorasan əhli qəlblərinin sahibləridir».

**«*Halın rəbbi*»**nin (رب حال) mənası odur ki, o, bizim xatırlatdığımız məhəbbət, qorxu, rica, şövq və s. hallardan biri ilə bağlıdır. Hallardan biri qula qalib gələrsə, ona həmin halın rəbbi deyərlər.

**«*Məqam sahibi*»** (صاحب مقام) qəsd etdiyi tövbə, vəra‘, zühd, səbir və s. məqamlardan birində qalandır. Əgər bir şeydə bu məqamla tanınarsa, ona məqam sahibi deyirlər.

Cüneydin belə dediyini nəql edirlər: «Qul hal və məqamları keçməyənə qədər mə‘rifətin həqiqətinə çatmaz».

Rəvayətə görə, şeyxlərin biri belə söyləyir: «Şiblinin yanında bir müddət qaldım və onu yalnız hal və məqamlardan danışan gördüm».

Filan **«*nəfssizdir*»** (بلا نفس) demək onda nəfsi əxlaqın zühur etməməsidir. Nəfsi əxlaq qəzəb, hiddət, təkəbbür, acgözlük, həsəd və sairdir. Əgər qul bu və bənzər bəlalardan qurtularsa, ona nəfssiz deyirlər, yəni elə bil nəfsi yoxdur.

Əbu Səid Xərraz deyir: «Allaha dönən, Allahla bağlı olan və Allahın yaxınlığında yerləşən qul öz nəfsini və Allahdan savayı hər şeyi unudar. Ondan: «Sən kimsən?», «haradasan?» – deyə soruşsan, cavabı bircə «Allah» olacaq, çünki o, qəlbində Allah-Təalanın əzəmətini tapandan bəri Allahdan savayı heç nə tanımır».

Filan **«*işarət sahibidir*»** (صاحب إشارة), yəni onun danışığı incəlik, işarətlər və mə‘rifət elmini əhatə edəndir. Rüzbari deyir:

«İşarətləri əhatə edərək vəcdin saflığı
Gerçəkləşərsə, o, kimsəyə üz tutmaz».

Birisinin **«*mən mənsizəm*»** (أنا بلا أنا), **«*biz bizsizik*»** (نحن بلا نحن) deməsi isə onun öz əməllərindən xali olmasıdır.

Əbu Səid Xərrazdan Nemətlərdən sizə verilən Allahdandır (Quran 16/53) ayəsinin mənasını soruşanda belə cavab verir: «Allah onların dediklərindən onların əməllərini arındırıb» (verənin yalnız Allah olduğunu sübut etmək üçün).

**«*Mən sənəm, sən mənsən*»** (أنا أنت وأنت أنا) deyilənə gəlincə, onun mənası Şiblinin işarə etdiyi şeydir: «Bir məclisdə deyəndə ki, «Ey qövm, bu, Amir qəbiləsindən olan Məcnundur», ondan Leylanı soruşurlar. Cavab verir: «Leyla mənəm». O, Leyla ilə Leylada qeyb olmuşdu, sadəcə, Leylanın görkəmi qalmışdı. Onun üçün Leyladan savayı hər şey qeyb olmuşdu. O, hər şeyi Leyla ilə görürdü. Onun məhəbbətinə iddia edən necə edər? Bu, onun biliyini, dostluğunu və həzlərini aşan bir həqiqətdir. O hara, onun bir zərrəsindən belə uzaq olmayan, onun sifətlərinin birindən belə uzaqlaşmayan hara?! Məbudu (ibadət etdiyi) üçün bütün qüvvəsini sərf etmək qövm yanında ən yaxın rütbədir».

Yenə Şibli nəql edir: «İki sevgili gəmiyə minir. Birdən birisi dənizə düşür və az qalır boğula. O biri də özünü atır suya. Qəvvaslar suya atılıb hər ikisini çıxarırlar. Birinci o birindən soruşur: «Mən bilmədən suya yıxıldım, bəs sən özünü niyə dənizə atdın?» Cavab verir: «Mən səndə özümdən keçdim, elə bildim mən sənəm»».

Başqa bir rəvayətə görə, bir oğlan Şiblinin yanına gəlir və soruşur: «Ey Əbu Bəkr, məni məndən aldı, məni özümdən qeyb etdi, sonra özümə qaytardı, amma mən mənsiz idim!» Şibli soruşur: «Vay sənin halına, bu, səndə haradandır? Allah səni kor eləyib?» Oğlan deyir: «Ey Əbu Bəkr, bəs məni kor edən haradandır?» və Şiblinin qarşısından qaçıb gedir. Şair yazır:

«Unutmadan zikr etdik və zikr edirik,

Lakin yaxınlığın mehi əsdi və gözləri qamaşdırdı.

Onunla özümdən fani oldum, Onunla Onun üçün qaldım,
Haqq Ondan xəbər verən və anladandır».

Bir başqası isə deyir:

«Aşiq olan da, olunan da mənəm,
Əgər məni görsən, bizi görürsən.

Biz bir bədəndə iki ruhuq,
Allah bizə bədən geyindirdi».

Yaxud:

«Ey təmənna edənlərin ümidi,
Məni özündə yox etdin.

Məni özünə yaxınlaşdırdın, hətta
Zənn etdim ki, sən mənəm».

Bu, məxluqun öz istəyində məxluq üçün müraciətidir, bəs ona şah damarından da yaxın olana məhəbbət iddia edən necə olar?!

***«Onsuz O»*** (هو بلا هو) kəlamına gəlincə, bu, tövhidin yeganəliyinə işarətdir. Sanki «O» deyənin dediyi olmadan «O» deyilir, yazanın yazısı olmadan «O» Odur, «O», bu iki hərf [hə (ه) və vav (و)] meydana çıxmadan Odur, yalnız O mənasında.

Cüneyd tövhidin təsvirində deyir: «Onun hökmü cərəyan edən üzərində cərəyan edər. Onun üstünlüyü hər bir ali haqq üzərindədir. Zühur edər və üstələyər, gizlənər və pərdələnər, coşar və dağıdar. O, o-suz Odur. Aşkarlanıb açıq onları məhv edər, ona

işarə edən şeyləri yox edər. Onun yaxınlığı uzaqlıq, uzaqlığı yaxındır. Yaxınlığı çaşdırandır».

Allah bilir, ancaq Cüneydin dediklərinin mənası biz qeyd etdiklərimizdir.

**«*Əlaqələrin kəsilməsi*»** (قطع العلائق) ifadəsində əlaqələrin mənası qulu bağlayıb məşğul edən səbəblərdir ki, onu Allahdan aralı qoyur.

Əbu Səid Xərraz deyir: «Tövhid əhli əlaqələri kəsdi və yaradılmışları tərk etdi, rahatlıqları dağıtdı, bütün adətlərindən xilas oldu, dost olanlardan aralandı».

**«*Aşkarsız aşkar*»** (بادي بلا بادي) **«badi bilə badi»** zikrin saflığından, nurlardan və hallardan mə‘rifət əhlinin qəlblərinə açılan şey nəzərdə tutulur. «Aşkar» deyəndə buna işarə edirlər. «Aşkarsız» deyəndə isə aşkarın Yaradıcı olduğuna işarə edilir ki, O, bu aşkarları qəlblərə açıqlayır. Allah-Təala buyurur: O, yaradan və qaytarandır (Quran 85/13). Əgər qul Onun – Yaradanın yaratdığı halı müşahidə edərsə, buna deyirlər: aşkardır və Onu isbatlayır. Əgər aşkarların qaynaqlandığı Yaradanın şahidi olursa, ona aşkarsız deyirlər.

Xəvvas «Mə‘rifətin mə‘rifəti» kitabında yazır: «Haqq aşkarlananda aşkar olmayan açılır, aşkar olmayan aşkarlanmayan (transendent) deməkdir, çünki Aşkar olan (Allah) aşkarlıq baxımından hər bir aşkarı puç edir. Aşkar olmayan aşkarlanmamaq baxımından aşkar olandır. Bu, onların qəlblərinin Haqqı yaxından müşahidədəndir».*

**«*Təhəlli*»** (التحلي) – **«*bürünmək*»** libasa girmək, hərəkətləri, əməlləri ilə sadiqlərə bənzəməkdir. Peyğəmbərin (ﷺ) belə dediyi nəql edilir: «Bürünməklə (şəkilə düşməklə) və təmənna ilə iman olmaz, O, qəlbdə yerləşən və əməllərlə təsdiqlənən şeydir».

Şair yazır:

* Allah yeganə gerçəklikdir ki, Onun yanında bütün gerçəkliklər yox hesab edilir, eyni zamanda bu yeganə gerçəkliyin dərkinə yol yoxdur, o, transendentdir.

«Özünə aid olmayan bir şeyə bürünəni
İmtahanın nəticələri kəsər».

***«Təcəlli»*** (التجلي) – «*görünmək*» (aşkarlanmaq) Allaha yönələnlərin qəlblərinə Haqqın yönəliş nurlarının saçılmasıdır.

Nuri deyir: «O, öz yaratdığı üçün yaratdığı ilə təcəlli edir və Onun xəlqindən pərdələnməsi də xəlqi ilədir».*

Allah-Təalanın: O gün qarşılıqlı itirmə və mükafatlanma günüdür (Qiyamət günü) (Quran 64/9) ayəsi barədə Vasiti bildirir: «Haqq əhlinin aldanma və mükafatlanması onların fənası, gördükləri və təcəllililəri qədərdir».

Yenə Nuri söyləyir: «Onun təcəllisi ilə gözəlliklər gözəlləşər və yaxşılaşar. Onun pərdələnməsi ilə pisləşər və kifirləşər».

Şair yazır:

«Ondan qəlbinə nur təcəlli etdi,
Onunla zülmətlərdən qurtuldu».

***«Təxəlli»*** (التخلي) – ***«üz çevirmə»*** zahir və batini məşğul edən maneələrdən üz çevirməkdir. Bu, xəlvəti seçmək, yalnızlığı üstün bilmək, təkliyə çəkilməkdir.

Cüneydin fikrincə: «Sahibləri qorunan qəlblərini Ondan başqası ilə söhbət etməkdən qısqanaraq, diqqətlə qoruyaraq açmazlar ki, bütünlüklə onları Onunla saflaşdıranın, Onun üçün cəmləyənin, Ona qaytaranın ixtiyarında olsunlar».

Bu, Allahı Onunla xəlvət üçün murad edən, ünsiyyət üçün cəmə yetənlərin keyfiyyətləridir, onlarla Onu inkar edənlər arasında bir haldır.

Yusif b. Hüseyn üz çevirmənin mənasına dair deyir: «Bu, ayrılmaqdır, çünki nəfsinə gücü çatmayan zəifdir və o, öz nəfsindən ayrılıb Rəbbinə sığınır».

Şair deyir:

---

* Allahla yaratdığı arasında daim Onun yaratdığı – vasitə qalır.

«Gəncin qəlbi illərlə yaşasa da,
İstəkdədir, yalnızlığa girməz».

**«*İllət*»** (العلة) – **«*dərd*»** yoxluqdan var olanlara kinayədir.

Şibli xəlqin sifətini belə təsvir edir: «Olmaqları zillət, varlıqları illətdir». Zu'n-Nun Misri: «Hər bir şeyin illəti onun yaradılmasıdır, Onun yaratmasında illət yoxdur», – söyləyir. Allah bilən yaxşıdır, amma mənası belədir: hər bir yaranmış varlıqda nöqsan var, çünki o, yox idi, oldu. Yaradanın yaratması isə yaratdıqları üçündür, onda illət yoxdur.

Biri deyir:

«İllətim olsan da, ey dərdimin şəfası».

**«*Əzəli*»**nin (الأزل) mənası başlanğıcı olmayan (qıdəm) deməkdir. Qədim (əvvəl) sözü ilə Yaradandan başqasını da adlandırırlar. Deyirlər ki, bir şey başqasından daha (əvvəldir) qədimdir. Əzəlilik və əzəliyyət Allaha aiddir, əzəli ilə Allahdan başqası adlandırılmır. Əzəli birincilik adlarındandır, o da İlk və Qədim olan Allahdır ki, əzəli və sonsuzdur.

**«*Əzəliyyət*»** (الأزلية) də Onun sifətlərindən biridir. Öndə olanlardan (mütəqəddimlər) biri deyir: «Haqq sonu olmadığı kimi, əvvəli də olmayandır». Bunları qəbul edən qövm Haqqın dəyişməsini inkar edənlərdir, çünki O, bütün adları və əməlləri ilə əzəlidir. Başqa bir qövm əşyaların qədimliyini də qəbul edir və bununla feli adları zatı adlardan, feli sifətləri zatı sifətlərdən fərqləndirir. Allah bilən yaxşıdır.

**«*Əbədi*»** (الأبد) və **«*əbədiyyət*»** (الأبدية) Allah-Təalanın vəsflərindəndir. Əzəli və əbədinin arasındakı fərq budur ki, əzəliyyətin başlanğıcı, əvvəli yoxdur, əbədiyyətin isə sonu və nəhayəti yoxdur.

Vasitidən əbədi barədə soruşarkən belə cavab verir: «Sayın kəsilməməsinə və sonsuzluqda vaxtın yox olmasına işarətdir».

Vəsm (əlamət) və rəsm əzəlidə cərəyan edən və əbədidə davam edən iki sifətdir.

Birisi deyir: «Əzəli, qıdəm və əbədi əhədiyyətin həqiqətində uca deyillər, çünki onlar Onu xəlqinə xəlqi üçün tanıdan işarət və ibarələrdir».

Şiblinin belə söylədiyi nəql edilir: «Var olan, məkansız, zamansız, vaxtsız, izsiz, əbədisiz, əzəlisiz, əvvəlsiz, sonsuz olana sübhan olsun. O, əşyaları yaratma halındadır, amma onlarla məşğul deyil, onlara möhtac deyil, onlara etdiyi bütün hökmlərində ədalətlidir».

Əmr b. Osman Məkki isə: «Səmədə (əbədiyə), əzəlidə qədim olana, əbədinin sonsuzluğunda başlanğıcı olmayana sübhan olsun», – deyə dua edir.

**«*Vaxtım sonsuzdur*»** (وقتي مسرمد), yəni onunla Allah-Təala arasında olan halının davamı boyunca dəyişiklik olmur. Bu, vəcd sahibinin kəlamıdır və onun öz sifətini deyil, sirrinin vəsfini bildirir, çünki sifətlər dəyişən varlıqlardır. Hallar dəyişməsə də, sifətlər dəyişir, belə ki, onlar dəyişməsə, onun yaranışdan olan halını dəyişdirər.

Şibli deyir:

«Vaxtım Səndə sonsuzlaşdı və o, əbədidir,
Məni məndən aldın və mücərrədləşdirdin».

**«*Dənizim sahilsizdir*»**in (بحري بلا شاطئ) mənası qeyd etdiyimiz sonsuz vaxtın mənasına yaxındır. Bu kəlmə Şiblinin bir söhbətində də xatırlanır. Məclislərin birinin sonunda o, belə deyir: «Sizin vaxtınız kəsikdir, mənim vaxtımın iki tərəfi yoxdur, dənizim sahilsizdir», yəni Allaha təzim etməyim və ancaq Onu zikr etməyim üçün Onun mənə verdiyi halın nə sonu var, nə kəsilir. Əgər bir şeyin sonu və sərhədi yoxdursa, bundan artıq ona bir şey etmək olmaz. Allah-Təala buyurur: De ki, Rəbbimin sözlərini yazmaq üçün dəniz mürəkkəb olsa, bir o qədər də mürəkkəb götürsək, Rəbbimin kəlamları bitməmiş

dəniz tükənər (Quran 18/109). Allah onlara bir hədd qoymamışdır, çünki onlarla təsvir edilənin sonu yoxdur.

Biri deyir: «Allahı tanıyan Onu sevər, Onu sevən qayğı dənizinə qərq olar». Bir başqası isə belə söyləyir:

«Əgər sənsiz olsam, Çin dənizi qarşımda olsa,
Onu izi itən şərab kimi içərdim».

**«*Müsəyyər*»** (نحن مسيرون) – **«biz yönləndiriləník»** deyən bununla qəlblərinin yönləndirilməsini və onların bir haldan başqasına, bir məqamdan başqasına keçməsini bildirir.

Yəhya b. Müaz deyir: «Zahid səyyardır (gəzəndir), arif – təyyar (uçan)», bununla ucalmağın, haldan hala, məqamdan məqama keçməyin və könüllərin ğözəlləşməsinin sürəti nəzərdə tutulur.

Şibli deyir:

«Əgər qəlbimi onun evi və məkanı etməsəm,
Mən sevənlərdən deyiləm.

Mənim ətrafına dolanmağım (tavafım) ona doğru gedir,
Onu salamlayarkən O, mənim dayağımdır».

Bununla qəlblərin seyri, yönəlişi nəzərdə tutulur.

**«*Təlvin*»** (التلوين) – **«*dəyişmə*»** qulun öz hallarında dəyişməsidir. Bir qrup deyir: «Həqiqətin əlaməti təlvindir, çünki təlvin Qadirin qüdrətinin zühuru və ondan qeyrət qazanılmasıdır». Deməli, təlvinin mənası dəyişməkdir.

Qəlblərin təlvininə və halların dəyişməsinə işarə edən həqiqətin əlamətinin təlvinin ucalmasıdır demək istəyir. Qəlblərin təlvininə, onların öz müşahidəsində Allaha məxsus sirlərə və ürəyə varid olanların, yəni əzəmət, heybət və digər varidatların təlvininə işarə edən bildirir ki, həqiqətin əlaməti təlvindir

(dəyişmə), çünki onlar onlara varid olanların dəyişməsindən sirlər üzərinə ucalmaqlarında olan hər bir seyrdə Allahla bərabərdirlər.

Sifətlərin dəyişməsinə gəlincə, belə deyirlər:

«Sən hər gün dəyişirsən,
Biri o birindən daha gözəldir».

Vasiti deyir: «Kim Onun [buyurduğu] əxlaqla dəyişərsə, dəyişmələrinin nəticəsində bədbəxtlik olmaz».

Yönləndirilənlərin sifəti barədə bu iki beyt var:

«Ürəyimə qışqırdım, amma o dayanmadı,
O, bir şey istəyir və ondan qaçır.

O yardım istəyərək Haqqa gedir,
Mən ona qarşı şəfqətli və diqqətliyəm».

**«*Bəzlu'l-mühəc*»** (بذل المهج) – **«*canını fəda etmək*»** mənası qulun Allah-Təalaya yönəlməsində var qüvvəsini sərf etməsi və Allah-Təalanı bütün sevdiklərindən üstün bilməsidir. Xəvvas deyir: «Bütün yönələn Allaha yönəlidir. Orada olan istirahət yerləri istiqamət üçün uyğun deyil». Şair yazır:

«Ey gözəl üzlü və işvəli,
Sən sevdiklərinin üzərində sultansan».

**«*Mühəc*»**in (المهج) mənası bütün sevdiklərindir – nəfsin, malın və övladın.

**«*Tələf*»in** (التلف) mənası ölümdür. Həm tələf, həm ölüm gələndə ondan həlak gözlənir. Əbu Həmzə Sufinin belə dediyi nəql edilir: «Bir quyuya düşdüm və qapağını örtdülər. Özümdən ümidimi kəsib Allaha pənah apardım, təslim oldum. Bu vaxt bir heyvan quyuya endi. Onun ayağından tutdum və quyudan çıxdım. Qeybdən gələn bir səs eşitdim: «Ey Əbu Həmzə, bu, səni tələf

olmaqdan xilas etdiyimiz bir gözəllikdir». Sonra beytlər söylədi. İkisi budur:

«Sənə olan heybətimdən səni uzaq görürəm,
Sən lütflərinlə və şəfqətinlə məni özünə bağlayırsan.

Sən sevdiyini tələf edərək məhəbbətlə dirildirsən,
Əcəbdir: həyatın varlığı ölümlədir».

Cüreyri deyir: «Tövhid elminə Onun sübutlarından biri ilə vaqif olmasan, qürur addımları səni tələf edər».

***«Ləcə‘»*** (اللجأ) – ***«sığınma»*** səmimi fəqirlik və ümidlə qəlblərin Allaha yönəlməsidir. Vasiti deyir: «Yalnız ölüm anında səmimi fəqirlik və sığınmada olan [bəndə] ömrü boyu zillət içində olar».

Fəhm əhlindən birisi Allah-Təalanın: De ki, Rəbbim, məni sidq qapısından daxil et və sidq qapısından çıxart (Quran 17/80) ayəsi barədə deyir: «Məhəmməd (ﷺ) Allah-Təalanın qarşısında öz nəfsindən fəqirliyin və sığınmanın (ləcə‘) səmimiyyətini göstərdi və sığınma səmimiyyəti ilə könüllər qaydasına düşdü».

***«İnzi‘ac»*** (الإنزعاج) – ***«narahatlıq»*** qəlbin qəflət dalğınlığından oyanıb murad üçün hərəkət etməsidir. Cüneydin belə dediyi nəql edilir: «Könüllər necə Ona doğru ucalmaz? Könüllərdə olan gizli düşüncələr necə hərəkətə gəlməz? Addımlar itaətlə Ona doğru necə sürətlənməz? Necə Onun bəlalarına bağlanaraq, Onun böyük yaxşılıqlarına sevinərək ciddi-cəhdlə Ona doğru qaçmaz?»

Narahatlıq və narahat edilmənin (*izdi‘ac* – الإزدعاج) mənaları qazanma və qazanılma kimidir.

Şeyxlərdən birindən, zənnimcə, İbrahim Xəvvasdan soruşurlar: «Sənin bəzi dostların: «Biz nə alırıqsa, Allahdan alırıq», – deyirlər, amma onların ancaq insanlardan nə isə aldığını görürük». Cavab verir: «İnsanların qəlblərini onlardan bir şey istəmədən və xahiş etmədən versin deyə narahat edən kimdir?»

***«Ruhların cəzbi»*** (جزب الأرواح) qəlblərin yüksəlməsi, sirlərin müşahidəsi, münacat, müraciət və buna bənzər şeylərdir. Bunların çoxusu adamın vəcdindəki yaxınlığı və uzaqlığı, səmimiyyəti və saflığı qədər hidayətindən qəlblərə nurlar açan [Allah-Təalanın] müvəffəqiyyət və lütfünü anladan ibarələrdir. Əbu Səid Xərraz deyir: «Allah öz övliyalarının ruhlarını cəzb etmiş və Onun zikri, Onun yaxınlığına çatmaqla şirnikdirmişdir, onların bədənlərinin hər bir şeylə ləzzət almağını artırmışdır. Beləliklə, onların bədənləri heyvani, ruhları isə rəbbani bir həyat yaşayır».

Vasiti deyir: «O, onların ürəklərinin Ona cəzb edən lütflərini onlara göstərmişdir». Sonra əlavə etdi: «O, ruhları xəyallarla (aldanışlarla) cəzb etsə də, xəyalları əql və sifətlərlə sübut edər. Çünki onların cəzbi əqli şərtlərlədir. Allah-Təalanın: De: Allahın fəzli ilə (Quran 10/58) ayəsi ilə onların qəlblərini başqa bir şeylə olmaqdan pərdələmişdir (ümidini kəsmişdir)».

***«Vatar»*** (الوطر) – ***«dilək»*** arzudur, bəşəri sifətdən və nəfsani həzlərdən başqa, xoş duyğularla həvəslənməkdir. Belə deyirlər: «O, öz vətənində yerləşib, öz arzularına qovuşub». Şair yazır:

> «Ey Leyli, dolaşdım, amma arzularımı uzaqlaşdıra bilmədim,
> Mən hələ də qəmliyəm, evimin həsrətindəyəm».

Zu'n-Nun deyir:

> «Mən ölürəm, amma sənə məhəbbətim ölməyib,
> Sənin məhəbbətinin atəşindən arzularım sönməz.
>
> Mənim hər bir məqsədimin məqsədi sənin məni istəməyindir,
> Ehtiyacım zamanı sən bütün yetərlərdən yetərlisən».

Hikmət əhlinin birindən soruşurlar: «Sakini olmağa və özünə vətən etməyə ən sevimli yer hansıdır?» Cavab verir: «Sahibi üçün ən xoş vətən arzularını istəyib cavab aldığı yerdir».

**«*Vətən*»** (الوطن) qulun hallarının sona çatdığı və qərar tutduğu yerdir. Deyirlər ki, «O, filan halda və filan məqamda məskunlaşdı (vətən elədi özünə)».

Cüneyd bildirir: «Allahın vətənlərdə qulları var ki, Onun miniklərinə minər və sürətlə Ona doğru gedərlər». Nuri deyir:

«Məni çaşqınlığa salanı,
Məni vətənimdən çıxaranı görmürsənmi?

Qeyb olarsam, o aşkarlanır,
Aşkar olunca məni qeyb edir.

Deyir ki, sən görmürsən,
Gördüyünü və məni görmürsən».

Əbu Süleyman Dərani deyir: «İman yəqindən daha yüksəkdir, çünki iman vətəndir, yəqinlik ani düşüncədir».

Adam yəqinində müşahidə edə bildiyi qədər təsvir edir və bununla öz nəfsini təsvir etmiş olur, Onun yanında öz uzaqlığını nəzərdə tutur, çünki yəqinlik qəlbdə elmin saflığı və orada qərar tutmasıdır. İnsanlar bununla fərqlənirlər.

